# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 222 (8815) CÜMƏ, 15 oktyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# XALQA XİDMƏTİN MÖHTƏŞƏM NÜMUNƏSİ

**Xoşbəxt o xalqdır ki, tarixinin taleyüklü məqamlarında onlara müdrik, uzaqgörən, qətiyyətli, xalqını və dövlətini qəlbən sevən insanlar başçılıq edirlər!**

**Başı bəlalar və müsibətlər çəkmiş Azərbaycanın bəxti bu sarıdan gətirmişdir.**

**Ulu Öndər Heydər Əliyevin siyasət aləminə qədəm qoyması ilə sanki Azərbaycana yeni günəş doğmuşdur.**

*Dövrün xüsusiyyətlərini incəliklərinə qədər bilən, sosializmin qəliblərindən ustalıqla yayınmağı və yararlanmağı bacaran Ümummilli Liderimiz ölkəyə rəhbərlik etdiyi müddət ərzində Azərbaycanı yenidən tikib-qurdu, kənd və şəhərlərin simasını dəyişdi, yeni təhsil və mədəniyyət ocaqları yaratdı, xalqımızın sosial rifahını və mədəni səviyyəsini əsaslı şəkildə yüksəltdi.*

Ulu Öndər SSRİ-nin rəhbərlərindən biri kimi Moskvaya işləməyə getsə də , qəlbi daim Azərbaycanla döyünür, respublikamıza diqqət və qayğısını bir an belə azaltmırdı.

Ardı 4-cü səh.

# 15 oktyabr 2003-cü il...

## ...Və tariximizin inkişafla başlayıb zəfərlə davam edən ən qüdrətli mərhələsi

*"Öz namizədliyimi İlham Əliyevin xeyrinə geri götürürəm. Üzümü Sizə - həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin İ müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".*

2003-cü ilin 1 oktyabrında Ümummilli Lider Heydər Əliyevin xalqa müraciəti zamanı söylədiyi bu fikirlər bir anda bütün xalqı vahid amal ətrafında səfərbər etdi.

Heydər Əliyev hər zaman olduğu kimi, yenə də Azərbaycan xalqına düzgün olan yolu göstərərək insanları seçkilərdə onun siyasi varisi olan İlham Əliyevi dəstəkləməyə çağırdı.

Ardı 11-ci səh.

# BÖYÜK QAYIDIŞ EPOPEYASI

**Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin məqsədyönlü siyasəti və məharətli sərkərdəlik qabiliyyəti nəticəsində Vətən müharibəsində - Qarabağ savaşında qazanılmış tarixi Zəfər ölkəmizin çoxəsrlik tarixinin nadir hadisəsidir.**

Cəmi 44 gün ərzində Azərbaycan Ordusu təcavüzkar Ermənistanın 30 illik işğalına son qoymuş, ədalətli müharibə apararaq torpaqlarımızı geri almışdır. Vətən müharibəsi Azərbaycanın çoxəsrlik tarixinin ən şərəfli hadisəsi olmaqla bərabər, həm də xalqımızın ədalətli mübarizəsinin bariz nümunəsidir.

Bu mənada Azərbaycanın Qarabağ savaşı - Vətən müharibəsi dünya savaş tarixinə ədalətli müharibə nümunəsi kimi daxil olmuşdur. Bütün bunlara görə Vətən müharibəsi Azərbaycan xalqının əsl qəhrəmanlıq dastanına çevrilmişdir.

Qarabağ savaşında - Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti Qalib Ali Baş Komandan İlham Əliyevin qazandığı tarixi Zəfər uzaqgörən görkəmli dövlət xadimi Heydər Əliyevin göstərdiyi mübarizə yolunun yaradıcı şəkildə davam və inkişaf etdirilməsinin, uğurla başa çatdırılmasının misilsiz nümunəsidir. Məhz Vətən müharibəsində qazanılmış tarixi Zəfərlə Azərbaycan Respublikası ərazi bütövlüyünün həmişəlik təmin olunması problemini həmişəlik həll etmişdir. Müstəqil Azərbaycan dövləti bununla ərazi-inzibati cəhətdən özünün tamlığına nail olmuşdur.

Ardı 5-ci səh.

# Zəfərin rəmzi

*Zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan bu gün dünyada sözünün də imzası qədər dəyəri olan, demokratiya təcrübəsi nümunə göstərilən, dayanıqlı inkişafı təmin edən islahatları dövrün və zamanın tələblərinə uyğun təkmilləşdirən, iqtisadiyyatını düzgün əsaslar üzərində quraraq qarşılaşdığı hər bir çətinlikdən uğurla çıxan, ən əsası, bütün bu reallıqların əsasında dayanan sabitlik diyarı kimi tanınır.*

**Azərbaycan dünyaya təkmil inkişaf modelini təqdim edir**

Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin gələcəyə hesablanmış inkişaf strategiyası, eyni zamanda, düşünülmüş və məqsədyönlü siyasəti bugünkü Azərbaycanın təməlidir. Ölkəmizin bütün sahələrdə qazandığı uğurlar Ümummilli Liderin adı ilə bağlıdır.

Ardı 9-cu səh.

# Xocavəndlilər xilaskarları İlham Əliyevə əbədi minnətdardırlar

**Qarabağ və Şərqi Zəngəzurda aparılan sürətli bərpa və yenidənqurma işləri Azərbaycanın möhtəşəm Zəfərinin, xalqımızın öz torpaqlarını işğaldan azad etməsinin ifadəsidir.**

Eləcə də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan azad olunan rayonlarımıza səfərləri və ictimaiyyət nümayəndələri ilə keçirdiyi görüşlər qələbəmizi dünyaya bəyan edir.

İlham Əliyevin işğaldan azad olunmuş torpaqlarımıza növbəti səfərini oktyabrın 9-da Xocavənd rayonuna etdi. Qeyd edək ki, Vətən müharibəsində Xocavənd istiqamətində də ağır döyüşlər gedib. Hadrut qəsəbəsinin 2020-ci il oktyabrın 9-da işğaldan azad edilməsi Azərbaycan Ordusunun bu savaşdakı əsas uğurlarından biri oldu.

Ardı 10-cu səh.

# Azərbaycanı müzəffər edən KOMANDAN



Dövlət müstəqilliyinin bərpasının 30-cu il dönümünü misilsiz nailiyyətlər, böyük qələbələrlə qeyd edirik. Bu gün Azərbaycan yalnız müstəqilliyinin deyil, ümumiyyətlə, tarixinin ən qüdrətli dövrünü yaşamaqla bərabər, həm də ən möhtəşəm Zəfərinə müəlliflik edir.

Bu Zəfərin memarı, böyük müvəffəqiyyətlərin səbəbkarı isə möhtərəm Ali Baş Komandanımızdır.

Bu gün cənab İlham Əliyevin Prezident kimi fəaliyyətə başlamasının 18-ci ili tamam olur. Amma bu, o demək deyil ki, İlham Əliyev missiyası yalnız 18 illə tamamlanır. Ulu Öndər Heydər Əliyev ailəsində dünyaya göz açmaqla, bu dahi şəxsiyyətdən öyrəndikləri həyatının həm siyasi əlifbası, həm də fəaliyyət müntəxabatı olub.

Ardı 6-cı səh.

# Abşeron rayonunun Bakı-Şamaxı-Yevlax (33 km)-Pirəkəşkül avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı-Şamaxı-Yevlax (33 km)-Pirəkəşkül avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 3,3 milyon (üç milyon üç yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 oktyabr 2021-ci il*

# Azərbaycanın xarici işlər naziri Minskdə rusiyalı həmkarı ilə görüşüb



Oktyabrın 14-də Belarusun paytaxtı Minsk şəhərində keçirilən MDB Xarici İşlər Nazirləri Şurasının iclasında iştirakı çərçivəsində xarici işlər naziri Ceyhun Bayramov rusiyalı həmkarı Sergey Lavrov ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər Azərbaycan-Rusiya ikitərəfli əməkdaşlıq gündəliyinin bir sıra məsələlərini, o cümlədən gələn il iki ölkə arasında diplomatik əlaqələrin təsis olunmasının 30-cu ildönümü çərçivəsində keçiriləcək tədbirləri geniş müzakirə ediblər.

Tərəflər həmçinin 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın tam icrası və regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Minskdə Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin görüşü keçirilib

Oktyabrın 14-də Belarusun paytaxtı Minskdə keçirilən MDB Xarici İşlər Nazirləri Şurasının iclasında iştirakı çərçivəsində Rusiya tərəfinin təşəbbüsü və vasitəçiliyi ilə Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovun Ermənistan xarici işlər naziri Ararat Mirzoyan ilə görüşü olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir Ceyhun Bayramov Azərbaycanın bölgədə mövcud olan münaqişə sonrası vəziyyət və iki ölkə arasında münasibətlərin normallaşdırılması ilə bağlı mövqeyini səsləndirib. Nazir 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli üçtərəfli bəyanatların tam icra edilməsinin vacibliyini vurğulayıb.

Beynəlxalq hüququn prinsiplərinə, xüsusilə dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına hörmət əsasında Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasına hazır olduğumuz ifadə edilib. Bu xüsusda, Azərbaycanın Ermənistan ilə sərhədlərinin delimitasiyası prosesi üzrə danışıqlara başlanılmasının əhəmiyyət kəsb etdiyi vurğulanıb. Həmçinin regionda bütün nəqliyyat kommunikasiyaların açılması üzrə razılaşmaların yerinə yetirilməsinin vacibliyi qeyd edilib.

Nazir Ceyhun Bayramov azad edilmiş ərazilərdə insan həyatına birbaşa təhdid olan mina təhlükəsi mövzusuna toxunaraq, bu xüsusda, Ermənistan tərəfindən dəqiq mina xəritələrinin təqdim edilməsinin zəruriliyini bildirib. Nazir həmçinin azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri barədə danışıb.

# Milli Məclisin Sədri Üçüncü Avrasiya Qadınlar Forumunun açılış mərasimində iştirak edib







Xəbər verildiyi kimi, Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Üçüncü Avrasiya Qadınlar Forumunda iştirak etmək üçün Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində səfərdədir.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, oktyabrın 14-də forumun açılış mərasimi olub. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin mərasimə qatılıb. Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti də açılış mərasimində iştirak edib.

Sonra forum işini müxtəlif mövzularda sessiyalarda davam etdirib.

Qeyd edək ki, Milli Məclisin Sədri Sahibə Qafarova Sankt-Peterburqa işgüzar səfəri çərçivəsində oktyabrın 13-də Üçüncü Avrasiya Qadın Forumunun plenar sessiyasında çıxış edərək ölkəmizdə həyata keçirilən qadın siyasəti, dünyada qadınların artan rolu barədə məlumat verib.

Səfər çərçivəsində Sahibə Qafarova, həmçinin Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko ilə, BMT-nin Qadınlar Təşkilatının Avropa və Mərkəzi Asiya üzrə direktoru Aliya El-Yassir ilə də görüşüb.

# *BMT-nin qadınlar üzrə nümayəndəsi:* "Azərbaycanda həyata keçirilən gender siyasəti uğurludur"





Üçüncü Avrasiya Qadınlar Forumunda iştirak etmək məqsədilə Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində işgüzar səfərdə olan Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova səfər çərçivəsində BMT-nin Qadınlar Təşkilatının Avropa və Mərkəzi Asiya üzrə direktoru Aliya El-Yassir ilə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Sahibə Qafarova Azərbaycanın nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən BMT ilə əlaqələrin inkişafına böyük önəm verdiyini diqqətə çatdırıb. Milli Məclisin Sədri deyib ki, ölkəmiz həmişə BMT-nin çox fəal üzvü olub və təşkilatın müxtəlif fəaliyyət sahələrini əhatə edən qurumları ilə müsbət əməkdaşlıq əlaqələri qurub. Xatırladıb ki, Azərbaycan 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib.

Müasir dövrdə dünyada baş verən dəyişikliklər fonunda qadınların bir çox sahələrdə artan rolu haqqında danışan Sahibə Qafarova bildirib ki, bu gün qadınlar qlobal problemlərin qarşısının alınması, o cümlədən COVID-19 pandemiyasının nəticələrinin aradan qaldırılması, dünyada sülh, təhlükəsizlik və davamlı inkişaf uğrunda mübarizədə beynəlxalq səylərə əhəmiyyətli töhfə verirlər.

Görüşdə ölkəmizdə qadınlarla bağlı dövlət siyasətinin tarixi barədə məlumat verən Milli Məclisin Sədri qeyd edib ki, Azərbaycan qadınları həmişə ictimai-siyasi proseslərdə fəal olublar. 1918-ci ildə Şərqdə ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti qadınlara seçki hüququ verən qanun qəbul edib. Bununla da Azərbaycan qadınlara seçki hüququ verən ilk müsəlman ölkəsi kimi universal seçki hərəkatının da öncülü olub.

S.Qafarova 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra qadınlarla bağlı dövlət siyasətinin həyata keçirilməsində də yeni uğurlar əldə edildiyini vurğulayıb. O, bu sahədə atılan addımların qadınların cəmiyyət həyatının bütün sahələrində fəal iştirak etməsinə, onların ölkəmizin inkişafına töhfələrinin əsaslı şəkildə artmasına imkan verdiyini bildirib. Milli Məclisin Sədri Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın müasir dövlətçiliyimizdə böyük xidmətlərini xüsusi vurğulayaraq onun çoxşaxəli fəaliyyətinin hər bir Azərbaycan qadını üçün örnək təşkil etdiyini söyləyib.

Görüşdə Azərbaycanın 44 günlük Vətən müharibəsi və torpaqlarını işğaldan azad etməsi barədə məlumat verən Milli Məclisin Sədri bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun şücaəti sayəsində ərazilərimizin Ermənistan tərəfindən 30 illik işğalına son qoyulub. Bununla da Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını öz gücünə həyata keçirib. S.Qafarova deyib ki, 2020-ci ilin noyabrında imzalanmış üçtərəfli Bəyanatla münaqişəyə son qoyulub. Hazırda Cənubi Qafqaz regionunda tamamilə yeni şərait yaranıb. Münaqişə keçmişdə qalıb və Azərbaycan işğaldan azad olunmuş ərazilərinin bərpası ilə məşğuldur.

BMT-nin Qadınlar Təşkilatının Avropa və Mərkəzi Asiya üzrə direktoru Aliya El-Yassir müasir dövrdə gender məsələləri, qadınların cəmiyyətlərdə artan rolu, bir sıra ölkələrdə cinsi ayrı-seçkiliklə bağlı problemlərə və digər məsələlərə toxunub. O, iki il əvvəl Azərbaycana səfərini xatırladaraq ölkəmizdə gender sahəsində vəziyyəti öyrəndiyini, həyata keçirilən dövlət siyasətinin uğurlu olduğunu bildirib.

Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Azərbaycanda gender bərabərliyi, qadın hüquqlarının qorunması sahəsində görülən işlər, qadınların cəmiyyətdə rolu barədə fikirlərini bölüşüb.

# *Ceyhun BAYRAMOV:* "Azərbaycan üçtərəfli bəyanatlardan irəli gələn öhdəliklərin yerinə yetirilməsinə sadiqdir"

Oktyabrın 14-də Belarusda MDB-yə üzv ölkələrinin Xarici İşlər Nazirləri Şurasının iclası keçirilib.





Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov tədbirdə çıxış edib.

Nazir Ceyhun Bayramov çıxışında iclasın gündəliyində yer alan və MDB çərçivəsində qarşılıqlı fəaliyyətimizin geniş spektrini əhatə edən məsələləri qeyd edib, müzakirə olunacaq məsələlər sırasında "MDB-nin 30 illiyi ilə bağlı üzv dövlətləri başçılarının Bəyanat layihəsi ilə bağlı Qərar"ı xüsusilə vurğulayıb.

Nazir Azərbaycanın MDB çərçivəsində əməkdaşlığa, həmçinin bütün üzv dövlətlərlə ikitərəfli münasibətlərin daha da genişləndirilməsi və dərinləşdirilməsinə böyük əhəmiyyət verdiyini bildirib.

Xarici işlər naziri MDB çərçivəsində qarşılıqlı humanitar sahənin fəaliyyətin əsas istiqamətlərindən biri olduğunu, bu xüsusda əməkdaşlığın davam etdirilməsinin xalqlarımız və ölkələrimiz arasında münasibətlərin daha da inkişafına töhfə verəcəyini bildirib. O, həmçinin təşkilat çərçivəsində, o cümlədən ikitərəfli əsasda MDB-yə üzv dövlətlərin miqrasiya sahəsində qarşılıqlı fəaliyyətin mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Ceyhun Bayramov çıxışında 44 günlük Vətən müharibəsi nəticəsində ərazilərimizin bir hissəsinin 30 ilə yaxın davam edən işğalına son qoyulduğunu, Azərbaycanın ərazi bütövlüyünün təmin edildiyini vurğulayıb, 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli üçtərəfli bəyanatlarından irəli gələn məsələlərdən, habelə bölgədə mövcud olan mina təhlükəsi və doğurduğu ağır nəticələrdən bəhs edib. Regionda həyata keçirilən sülhməramlı səylərə, o cümlədən Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyətinə Azərbaycan tərəfindən böyük əhəmiyyət verildiyi vurğulanıb.

Nazir həmçinin Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan ərazilərində tarixi, dini və mədəni irsinin dağıdılması, həyata keçirilən urbisid və kultursid barədə iclas iştirakçılarını məlumatlandırıb. O, hazırda münaqişənin keçmişdə qaldığını, əsas məqsədin azad edilmiş ərazilərin bərpası və məcburi köçkünlərin öz doğma yurdlarına geri dönməsinin təmin edilməsi olduğunu vurğulayıb. Bu xüsusda, nazir toplantı iştirakçılarına azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq içləri barədə ətraflı məlumat verib.

Tədbirdə bütün çətinliklərə baxmayaraq, Azərbaycanın beynəlxalq hüququn prinsiplərinə, xüsusilə dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına hörmət əsasında Ermənistanla münasibətlərin normallaşmasına hazır olduğunu vurğulayıb. Azərbaycanın qeyd olunan prinsiplərə riayət etməklə Ermənistanla sərhədlərin delimitasiya və demarkasiya prosesinin başlanılmasına çağırdığı diqqətə çatdırılıb. Nazir Azərbaycanın üçtərəfli bəyanatlardan irəli gələn öhdəliklərin, o cümlədən regionda bütün kommunikasiya əlaqələrinin açılması üzrə razılaşmaların yerinə yetirilməsinə sadiq olduğunu vurğulayıb. Kommunikasiya əlaqələrinin açılmasının regiondakı bütün dövlətlərə fayda gətirəcəyi və beynəlxalq nəqliyyat layihələrində Cənubi Qafqazın rolunu gücləndirəcəyindən əminlik ifadə edilib.

İclasın sonunda nazirlər tərəfindən "2022-ci ildə MDB-də xalq yaradıcılığı və mədəni irs ilinin qeyd edilməsi ilə əlaqədar Tədbirlər Planının layihəsinə dair Qərar" və "Miqrasiya sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə dair MDB iştirakçı dövlətlərin rəhbərlərinin bəyanat layihəsinə dair Qərar" sənədləri imzalanıb.

# Azərbaycan Təhlükəsizlik Şurasının katibi Ramil Usubov Türkiyədə rəsmi səfərdə olub










Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi Ramil Usubov oktyabrın 13-14-də Türkiyə Respublikası Milli Təhlükəsizlik Şurasının Baş katibi Seyfullah Hacımüftüoğlunun dəvəti ilə Ankara şəhərində rəsmi səfərdə olub.

AZƏRTAC xəbər verir ki, səfər Şuşa Bəyannaməsinin müddəalarına uyğun olaraq hər iki ölkənin müvafiq qurumları arasında əməkdaşlığın inkişaf etdirilməsi, həmçinin qarşılıqlı maraq doğuran aktual məsələlərin müzakirəsi məqsədilə həyata keçirilib.

Seyfullah Hacımüftüoğlu ilə keçirilən ikitərəfli görüşdə Ramil Usubov dost və qardaş ölkələrimiz arasında müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, hüquqi və təhlükəsizlik sahələrində əlaqələrin ən yüksək səviyyədə olduğunu məmnunluqla qeyd edərək, bu münasibətlərin regionda sülhün, əmin-amanlığın möhkəmlənməsinə xidmət etdiyini bildirib.

Görüşdə Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qardaşlıq və dostluq münasibətlərinin hər iki dövlət arasında əməkdaşlığa böyük töhfə verdiyi xüsusi vurğulanıb.

General-polkovnik Ramil Usubov Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamına, qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərin bu gün qardaş ölkələrin prezidentlərinin rəhbərliyi ilə müttəfiqliyin və strateji tərəfdaşlığın ən yüksək səviyyəsinə qalxdığını, Vətən müharibəsinin ilk anlarından qardaş Türkiyənin qətiyyətli siyasi və mənəvi dəstəyinin, münaqişənin ədalətli həlli ilə bağlı ortaya qoyduğu qəti və birmənalı mövqeyinin xalqımızın haqq işinin Zəfərlə başa çatmasında çox mühüm rol oynadığını qeyd edib.

Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçularının peşəkarlığının artırılmasında, birgə təlimlərin keçirilməsində, digər nailiyyətlərdə Türkiyə Silahlı Qüvvələrinin xidmətləri xüsusi qeyd olunub.

2021-ci iyunun 15-də Şuşa Bəyannaməsinin imzalanması ilə ölkələrimiz arasındakı əməkdaşlıq münasibətlərində yeni səhifənin açıldığı, sənədin müddəalarından irəli gələn öhdəliklərin həyata keçirilməsi sahəsində vəziyyət və perspektivlər barədə geniş müzakirələr aparılıb.

Səmimi və xoş sözlərə görə təşəkkürünü ifadə edən Türkiyə Respublikasının Milli Təhlükəsizlik Şurasının Baş katibi Seyfullah Hacımüftüoğlu qardaş ölkələrimiz arasında əlaqələrin genişlənməsi üçün səylərini əsirgəməyəcəyini bildirib, bu səfərin də təhlükəsizlik sahəsində birgə fəaliyyətin təkmilləşməsinə öz töhfəsini verəcəyini diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

Tədbirdə Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov da iştirak edib.

Səfər zamanı Ramil Usubov Türkiyənin Müdafiə Sənayesi İdarəsinin rəhbəri İsmayıl Dəmir, Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Gülər, daxili işlər naziri Süleyman Soylu ilə görüşlər keçirib.

Ramil Usubovun başçılıq etdiyi nümayəndə heyəti səfər çərçivəsində Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün məzarını - Anıtqəbri ziyarət edib. Abidənin önünə əklil qoyulub.

Azərbaycan nümayəndə heyəti, həmçinin Ankaradakı Heydər Əliyev Parkında olub, Ümummilli Liderin burada ucaldılan abidəsi önünə əklil qoyub.

# Vətən müharibəsi şəhidi İxtiyar Əliyev dəfn olunub



Oktyabrın 14-də Azərbaycan Silahlı Qüvvələrinin Vətən müharibəsində şəhid olan hərbi qulluqçusu gizir İxtiyar Əliyev anadan olduğu Goranboy rayonunun Goranlı kənd qəbiristanlığında dəfn olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, mərasimdə şəhidin yaxınları ilə yanaşı, hərbçi yoldaşları, qazilər, Goranboy Rayon İcra Hakimiyyətinin rəhbərliyi, hüquq mühafizə orqanlarının əməkdaşları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

1994-cü il təvəllüdlü gizir İxtiyar Əliyev Vətən müharibəsində kəşfiyyat taborunda xidmət edib. Sonuncu dəfə oktyabrın 6-da Ağdərə istiqamətində gedən döyüşlərdə düşmənə qarşı vuruşub. Həmin gündən sonra yaxınları ondan xəbər ala bilmirdilər.

İxtiyar Əliyev Vətən müharibəsində Azərbaycan Ordusunun itkin hesab edilən 7 hərbçisindən biri idi.

## *Müdafiə Nazirliyi:*

# "Hərbi qulluqçumuz şəhid olub"

Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstələri növbəti dəfə terror aktı törədib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 14-də saat 18:15 radələrində qanunsuz erməni silahlı dəstələri tərəfindən açılan snayper atəşi nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu əsgər Həmzəyev Əfqan Bəhram oğlu şəhid olub.

Nazirliyin rəhbərliyi şəhidin yaxınlarına dərin hüznlə başsağlığı verir və səbir diləyir.

Bu terror təxribat əməlinin araşdırılması üçün Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinə sorğu göndərilib.

Minskdə Rusiya Federasiyasının vasitəçiliyi ilə Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin görüşünün keçirildiyi vaxtda Ermənistanın dəstəklədiyi qanunsuz erməni hərbi dəstələri tərəfindən bu terror əməlinin törədilməsi məqsədyönlü təxribatdır. Bu hal, eyni zamanda, Ermənistanın regionda vəziyyəti qəsdən gərginləşdirmək, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müddəalarının icrasına əngəl yaratmaq və Rusiya sülhməramlılarının fəaliyyətinə kölgə salmaq siyasətinin növbəti sübutudur.

Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq bu terror əməlini törətmiş qanunsuz erməni silahlı dəstələrinin neytrallaşdırılması və qanun qarşısında cavab vermələrini təmin etmək üçün qəti addımlar bundan sonra da davam etdiriləcək.

# Qanunsuz erməni silahlı dəstələrinə məxsus PUA ələ keçirilib

Oktyabrın 14-də Füzuli rayonu istiqamətində kəşfiyyat məqsədilə Azərbaycan Ordusunun mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstələrinə məxsus kvadrakopter bölmələrimizin sayıqlığı nəticəsində vaxtında aşkarlanaraq ələ keçirilib. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib.

# Fransanın Piyadalar əleyhinə minaların ləğv edilməsi üzrə Milli Komissiyası Azərbaycanla əməkdaşlıqda maraqlıdır



Oktyabrın 14-də Milli Məclisin Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Soltan Məmmədov və qrupun üzvləri Fransanın Piyadalar əleyhinə minaların ləğv edilməsi üzrə Milli Komissiyasının nümayəndələri ilə görüşüblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Soltan Məmmədov Azərbaycanın 30 il Ermənistanın işğalı altında qalan torpaqlarını 44 günlük Vətən müharibəsi nəticəsində azad etməsindən bir il keçdiyini diqqətə çatdırıb. O, bu ərəfədə Fransanın Piyadalar əleyhinə minaların ləğv edilməsi üzrə Milli Komissiyası üzvlərinin Azərbaycana səfərinin vacibliyini qeyd edib.

Azərbaycan-Fransa əlaqələrinin mövcud vəziyyətindən söz açan S.Məmmədov bu münasibətlərin gələcək inkişafı üçün konstruktiv ikitərəfli dialoqun davam etdirilməsinin əhəmiyyətindən danışıb.

Bölgədə yaranan yeni imkanlara toxunan S.Məmmədov azad edilmiş ərazilərdə Azərbaycanın apardığı quruculuq və bərpa işlərinə mane olan mina sahələri və onların təmizlənməsi problemindən bəhs edib. Bildirilib ki, son məlumata görə, Ermənistan tərəfindən basdırılmış minaların partlaması nəticəsində müharibə bitəndən indiyədək Azərbaycanın 150 hərbi və mülki şəxsi yaralanıb və ya həlak olub.

Vurğulanıb ki, əgər Ermənistan bütün mina xəritələrini Azərbaycana təqdim etsə, on minlərlə vətəndaşımızın həyatı və sağlamlığı təhlükədən xilas olar, işğaldan azad olunmuş ərazilərin bərpası və məcburi köçkünlərin qayıdışı prosesi sürətlənər.

Fransanın Piyadalar əleyhinə minaların ləğv edilməsi üzrə Milli Komissiyasının prezidenti Jerar Şenel təmsil etdiyi komissiya haqqında, minalar və partlamamış döyüş sursatları problemi ilə bağlı Fransanın təcrübəsi barədə məlumat verib, bu sahədə Azərbaycanla əməkdaşlıq niyyətlərini açıqlayıb.

Görüşdə Milli Məclisin müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov, Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Kamal Cəfərov, Fransa Milli Assambleyasının üzvü Fabien Qutfarb, Fransanın Piyadalar əleyhinə minaların ləğv edilməsi üzrə Milli Komissiyasının baş katibi İv Marek və Fransanın Azərbaycandakı səfiri Zakari Qros çıxış ediblər.

Çıxışlarda işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı layihələr, eləcə də minadan zərərçəkənlərə yardımın istiqamətləri barədə danışılıb.

Tədbirdə Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Nigar Arpadarai, Fransa Xarici İşlər Nazirliyinin əməkdaşı Elen Sebatun və digər rəsmi şəxslər iştirak ediblər.

## *Şeyxülislam Allahşükür PAŞAZADƏ:*

# "Azərbaycanda bütün dinlərin nümayəndələrinə ibadətləri üçün hər cür şərait yaradılıb"

"Mən 30 ildir erməni dini lideri ilə görüşlər keçirirəm. Bu illər ərzində heç vaxt əyilməsəm də, daxilimdə bir qüssə var idi. Lakin bu dəfə tamam fərqli görüş oldu. Bunun səbəbi isə Prezident İlham Əliyevin rəhbərliyi ilə qazandığımız möhtəşəm Qələbə idi".



AZƏRTAC xəbər verir ki, bu sözləri Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, MDB Dinlərarası Şurasının sədri Şeyxülislam Allahşükür Paşazadə Rusiya, Azərbaycan və Ermənistanın dini liderlərinin üçtərəfli görüşündən sonra jurnalistlərə müsahibəsində deyib.

Qafqaz müsəlmanlarının lideri deyib: "Biz heç vaxt görüşdən qaçmamışıq və bu görüşlə bağlı Rusiya Patriarxı Kirilin təklifini də qəbul etdik. Rusiya Patriarxı ilə ikitərəfli görüşdə erməni tərəfdən ona xeyli yanlış informasiyalar verildiyinin şahidi oldum. Buna görə də Patriarx Kirilə Qarabağ reallıqları ilə bağlı ətraflı məlumat verdim.

Üçtərəfli görüş mənim üçün xüsusi əhəmiyyət daşıyırdı. Çünki görüşdə qalib tərəf kimi iştirak edirdim. Qarşı tərəfin gözlərindəki məyusluğu hiss edirdim. Bu, bizim Qələbəmizin nəticəsi idi. Bu Qələbəyə görə qəhrəman şəhidlərimizə, qazilərimizə borcluyuq. Bu görüşdə Azərbaycan Prezidenti və dövləti ilə bir daha qürur duydum".

Görüşdə bir çox məsələlərin müzakirə olunduğunu deyən QMİ sədri bildirib ki, onlardan biri də Qarabağda yaşayan ermənilərin dini ibadətlərinə şəraitin yaradılması ilə bağlı idi. "Mən dedim ki, Azərbaycanda bütün dinlərin nümayəndələrinə ibadətləri üçün hər cür şərait yaradılıb. Digər məsələ üçtərəfli Bəyanatın imzalanmasından sonra erməni dini liderin Xankəndiyə getməsi ilə bağlı idi. Bu məsələ ilə bağlı erməni katolikosu mənim sualımı cavablandıra bilmədi. Erməni dini rəhbəri "hərbi əsirlər" məsələsinə də toxundu. Mən isə dedim ki, Azərbaycanda heç bir erməni hərbi əsir yoxdur", - deyə QMİ sədri qeyd edib.

Şeyxülislam həmçinin bildirib: "Görüşdə katolikos "Qarabağın statusu" məsələsini də qaldırdı. Lakin mən bildirdim ki, Azərbaycan Prezidenti bu məsələyə münasibətini bildirib. Heç bir status olmayacaq. Ümumilikdə görüşü məhsuldar hesab edirəm. Görüşün təşəbbüskarı olan Rusiya Patriarxı Kirilə təşəkkür edirəm. Bir daha şəhidlərimizə Allahdan rəhmət diləyir, yaralılara şəfa, qazilərimizə cansağlığı arzulayıram".

# Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan tərəfindən xülasə sənədi yayılıb

Oktyabrın 11-12-də Qoşulmama Hərəkatının 60 illik yubileyi ilə əlaqədar Belqradda keçirilən yüksəksəviyyəli görüşlə bağlı Hərəkatın sədri qismində Azərbaycan tərəfindən xülasə sənədi yayılıb.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, sənəddə iştirakçı üzv və müşahidəçi ölkələrin, təşkilatların, habelə qonaq ölkə və təşkilatların Azərbaycan və Serbiya tərəfindən birgə təşkil olunan görüşün əhəmiyyətini yüksək qiymətləndirdikləri qeyd olunur. Burada 1961-ci il Belqrad Konfransının tarixi əhəmiyyətinə diqqət yetirilərək, Qoşulmama Hərəkatının (QH) Bandunq prinsiplərinə uyğun olaraq, bütün dövlətlərin sülh şəraitində birgə yaşayışı və dayanıqlı inkişafın təşviq olunması məqsədi və Hərəkatın əsasını qoyan şəxslərin uzaqgörən müdrikliyi və qətiyyəti nəticəsində dünyanın ikinci böyük siyasi platformasının yaradılması təqdir edilir.

Beynəlxalq sülh və təhlükəsizliyə olan yeni hədə və təhdidlərə rəğmən hazırda Qoşulmama Hərəkatının artmaqda olan effektivliyi, möhkəmlənən birliyi və müasir çağırışlara uyğunlaşdığı məmnunluqla ifadə edilir.

Tədbir iştirakçılarının beynəlxalq vəziyyəti, o cümlədən beynəlxalq hüquqa hörmətsizliklə müşayiət olunan artmaqda olan siyasi gərginlik, ayrı-seçkilik, irqçilik və ksenofobiyanın artımının davam etməsi, COVID-19 pandemiyası və onun dünya dövlətlərinin sosial-iqtisadi vəziyyətinə təsiri və s. təhlil edilərək qlobal səylərin çoxtəreflilik, beynəlxalq əməkdaşlıq və həmrəylik ruhunda səfərbər edilməsinin əhəmiyyətini vurğuladıqları sənəddə öz əksini tapır.

Burada həmçinin tədbir iştirakçılarının QH-nin hazırkı sədri qismində Azərbaycan Respublikası Prezidenti tərəfindən irəli sürülmüş təşəbbüslərin, o cümlədən COVID-19 pandemiyası ilə mübarizə sahəsində, eləcə də pandemiya sonrası bərpa ilə əlaqədar təşəbbüslərini yüksək qiymətləndirdikləri vurğulanır.

İştirakçı ölkələrin QH-nin Azərbaycan sədrliyinin, qlobal ehtiyacların qarşılanmasında təsirli töhfəni təmin etmək üçün Hərəkatın beynəlxalq müstəvidəki rolunun və fəaliyyətinin artırılmasına yönəlmiş səylərini dəstəklədikləri sənəddə qeyd olunur.

Onu da bildirmək istərdik ki, yüksəksəviyyəli tədbir çərçivəsində baş verən əsas hadisələrdən biri də Azərbaycan sədrliyinin təşəbbüsü ilə bir müddət öncə yaradılmış QH Gənclər Şəbəkəsinin pandemiya sonrası bərpa dövrü ilə əlaqədar Hərəkatın üzv ölkələrinin rəhbərlərinə öz tövsiyələrini təqdim etmələri oldu. Vurğulamaq istərdik ki, Azərbaycan sədrliyinin təşəbbüsü ilə QH-nin Gənclər Şəbəkəsinin yaradılması yüksək səviyyəli tədbirin bir çox iştirakçıları tərəfindən edilən çıxışlarda alqışlanıb.

# Əfqanıstandakı "Qətiyyətli dəstək" missiyasında iştirak etmiş bir qrup hərbi qulluqçu təltif edilib

Əfqanıstan İslam Respublikasında həyata keçirilən "Qətiyyətli dəstək" missiyasında iştirak etmiş Azərbaycan Ordusunun bir qrup hərbi qulluqçusu müdafiə nazirinin əmri ilə təltif olunub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, ölkəmizi və ordumuzu yüksək səviyyədə təmsil etmiş, xidməti vəzifələrini və qarşıya qoyulmuş tapşırıqları yerinə yetirərkən şücaət və fədakarlıq göstərmiş Azərbaycan sülhməramlılarına mükafatların təqdim edilməsi mərasimi keçirilib.

General-mayor Kənan Seyidov müdafiə nazirinin əmrini şəxsi heyətə çatdırıb və hərbi qulluqçulara Azərbaycan Respublikasının "Şücaətə görə" və "Hərbi xidmətdə fərqlənməyə görə" medallarını təqdim edib.

Qeyd edək ki, Əfqanıstandakı "Qətiyyətli dəstək" missiyasında iştirak etmiş hərbçilərimiz bu il oktyabrın 7-də Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə "İgidliyə görə" və "Hərbi xidmətlərə görə" medalları ilə də təltif olunublar.




## Tarixin ən qüdrətli Azərbaycanının və möhtəşəm Zəfərin müəllifi





# XALQA XİDMƏTİN MÖHTƏŞƏM NÜMUNƏSİ

*Əvvəli 1-ci səh.*

**Məkrli, paxıl və xəyanətkar insanların bəd əməlləri nəticəsində Heydər Əliyevin böyük siyasətdən uzaqlaşması ilə Azərbaycanın faciəli günləri başladı.**

**Ölkəmizə qarşı "Qarabağ kaptı"ndan istifadəyə start verildi.**

Həmin dövrdə Azərbaycana maymaq, qorxaq, təcrübəsiz və səriştəsiz adamların başçılıq etməsi hadisələrin fəlakətlə nəticələnməsinə səbəb oldu.

Azərbaycan ərazilərinin 20 faizini itirdi, 20 min övladı şəhid oldu.

Bütün bunlar azmış kimi dövlətin özünün mövcudluğu belə real təhlükə qarşısında idi.

Azərbaycan keçmişdəki kimi, xırda xalqlara parçalanmaq ərəfəsinə çatdırılmışdı.

**Özünün ən doğru tarixi qərarını verən Azərbaycan xalqı üzünü yenidən sınanmış oğlu Heydər Əliyevə tutdu.**

**Xalqının təhlükəli dövrdəki çağırışına biganə qala bilməyən Ulu Öndərimiz yenidən ölkə rəhbərliyinə qayıtdı.**

Tarixən çox qısa müddətdə ölkəni özbaşınalıqdan, xaos və anarxiya burulğanından qurtardı.

Müharibədə atəşkəsə nail olundu, qanunsuz silahlı dəstələr ləğv edildi, əhalidəki külli miqdarda silah-sursat toplanıldı.

*Ulu Öndər Heydər Əliyev Azərbaycanı məhvolmadan qurtarmaqla yanaşı, dövlət müstəqilliyini qoruyub saxladı, əbədiliyə çevirdi, "Əsrin müqaviləsi" yeni neft kontraktını imzalayaraq ölkənin gələcək inkişaf və yüksəlişinin əsasını qoydu.*

Lakin amansız ölüm ona Qarabağ torpaqlarını geri qaytarmağa, ərazi bütövlüyünü bərpa etməyə imkan vermədi.

❖❖❖

**Ulu Öndər Heydər Əliyevin itkisi Azərbaycan xalqı və dövləti üçün çox ağır idi.**

**Tarix həm də göstərmişdi ki, Azərbaycan yalnız müdrik rəhbərinin müəyyən etdiyi yolla getməklə uğura və qələbəyə nail ola bilər.**

*Ümummilli Liderimizin ən böyük xidmətlərindən biri də siyasi varisini hazırlaması, canından artıq sevdiyi müstəqil Azərbaycanı etibarlı əllərə tapşırması oldu.*

Bu münasibətlə 1 oktyabr 2003-cü ildə "Azərbaycan vətəndaşlarına müraciət"ində deyirdi: *"Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin İ müavini İlham Əliyevi dəstəkləməyə çağırıram.*

*O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".*

Azərbaycan xalqı sevimli rəhbərinin son vəsiyyətinə də əməl etdi.

Həm də bununla Azərbaycanın davamlı və sürətli inkişafının, ərazi bütövlüyünün bərpasının, xalqın xoşbəxt gələcəyinin əsası qoyulmuş oldu.

**Xalqımız 2003-cü ildə cənab İlham Əliyevə səs verməklə, onu dövlət başçısı seçməklə Heydər Əliyev siyasi kursunun davamlılığını, yeni qələbələrin qazanılmasını da təmin etdi.**

❖❖❖

**Azərbaycan Prezidenti seçilənə qədər cənab İlham Əliyev özünü böyük siyasətdə, diplomatiya sahəsində və idarəetmədə sınamışdı.**

"Əsrin müqaviləsi" neft kontraktının hazırlanmasında, orada Azərbaycanın maraqlarının təmin edilməsi üçün zəruri müddəaların salınmasında, çətin və gərgin keçən danışıqlar prosesinin uğurla başa çatmasında böyük zəhməti olmuşdur!

*Cənab İlham Əliyev Milli Məclisin deputatı olduğu dövrdə Azərbaycanın AŞ PA-dakı deputat qrupuna başçılıq etmiş, AŞ PA-nın vitse-prezidenti seçilmiş və beləliklə, bu qurumda ölkəmizin milli maraqlarının müdafiəsinin təməlini qoymuşdur.*

Həmin dövrdə İlham Əliyevin təklifi ilə AŞ PA-da Qarabağda erməni təcavüzünü, terrorunu, ekoloji fəsadlarını, narkoticarəti, işğal ərazisinin nəzarətsiz zonaya çevrilməsini ifşa və əks etdirən qətnamələr qəbul olunmuşdur.

**Cənab İlham Əliyevin ən böyük uğurlarından biri Azərbaycanda gənclər siyasətinə dəyərli töhfələrini verməsi, Milli Olimpiya Komitəsinə rəhbərliyi dövründə ölkədə idmanın yüksəlişinə nail olması, yeni gənclər nəslini tərbiyələndirməsidir.**

O gənclər nəslini ki, Qarabağın işğalından sonra dünyaya gəlsələr də, onun azad olunmasında şücaət və qəhrəmanlıqla vuruşdular, lazım gələndə şəhidlik zirvəsinə yüksələrək qələbənin təmin olunmasını canları və qanları ilə təmin etdilər.

Milli Olimpiya Komitəsinə rəhbərliyinin sonrakı dövründə cənab İlham Əliyev Azərbaycan idmanını dünya miqyasına çıxararaq böyük uğurlara imza atmasına, ölkəmizin idman dövləti kimi tanınmasına, beynəlxalq yarışların, dünya və Avropa birinciliklərinin keçirildiyi məkana çevrilməsinə nail oldu.

❖❖❖

**Prezident İlham Əliyevin ölkəyə rəhbərliyinin ilk illəri rahat və asan olmadı.**

**Azərbaycanda sabitliyi pozmağa, rəngli inqilablar keçirməyə, faktiki rəhbərliyi dəyişməyə, özlərinə sərf edənləri hakimiyyətə gətirməklə təbii sərvətlərimizi ələ keçirməyə çalışanlar az deyildi!**

Rəhbərliyinin ilk dövrlərindən cənab İlham Əliyev dövlətə və dövlətçiliyə, milli maraqlara sədaqəti, möhkəm iradəsi və qətiyyətli addımları ilə bütün şər qüvvələrini məharətlə zərərsizləşdirdi.



*İlham Əliyevin Azərbaycana rəhbərliyi illəri ölkənin sürətli və davamlı tərəqqisi ilə xarakterizə olunur.*

Ötən 18 ildə Azərbaycan öz tarixinin ən qüdrətli dövrünə qədəm qoymuş, enerji, nəqliyyat, ərzaq təhlükəsizliyi təmin olunmuş, qeyri-neft sektoru, sahibkarlıq inkişaf etmiş, vətəndaş cəmiyyəti formalaşmış, xalqın sosial rifahı əsaslı şəkildə yüksəlmişdir.

**"Əsrin müqaviləsi"nin açdığı yolla inamla irəli gedən cənab İlham Əliyev Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars kimi nəhəng transmilli layihələrə həyat vəsiqəsi vermiş, "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizlərini işə salmış, Azərbaycanı logistika mərkəzinə çevirmişdir.**

Yeni layihələri gerçəkləşdirərkən ölkəmizə yeni dostlar və müttəfiqlər qazandırmış, Avropanın neft və təbii qazla təminatında etibarlı tərəfdaş imicini formalaşdırmışdır.

**Prezident İlham Əliyev gördüyü bütün işlərdə bir an da olsun belə işğal altındakı torpaqların azad olunmasını unutmur, bütün iqtisadi, siyasi və diplomatik resursları bu vəzifənin uğurlu həllinə məharətlə yönəldirdi!**

İlk Prezidentlik dövrünə başladığı gündə - 31 oktyabr 2003-cü ildə andiçmə mərasimində verdiyi vədlərə şərəflə əməl etdi: *"Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcəkdir. Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir".*

2000-ci illərin əvvəllərində ölkədə vəziyyət bir o qədər də ürəkaçan deyildi. Bir milyondan çox qaçqın və məcburi köçkün ağır vəziyyətdə yaşayırdı, yoxsulluq və işsizlik yüksək səviyyə təşkil edir, yol infrastrukturu köhnə və yararsız vəziyyətə düşmüşdü. Regionlara elektrik enerjisi fasilələrlə verilir, kəndlərin əksəriyyəti qazlaşdırılmamışdı.

**Prezident İlham Əliyev bütün istiqamətlərdə - iqtisadiyyatın yüksəldilməsi, siyasət, diplomatiya, beynəlxalq qurum və təşkilatlarla iş, hərbi quruculuq sahəsində dayanmadan, yorulmadan çalışdı, əsaslı dəyişikliklərə nail oldu.**

Vəd verdiyi müddətdən də tez bütün çadır şəhərciklərini ləğv etdi, qaçqın və məcburi köçkünləri hər cür infrastrukturu olan müasir şəhərciklərə, dövlət hesabına tikilərək təmir olunmuş evlərə köçürdü.

Azərbaycanın ən ucqar kəndlərinə belə yeni yollar salındı, qaz xətti çəkildi, sutka ərzində fasiləsiz elektrik enerjisinin verilməsi təmin olundu.

Regionların sosial-iqtisadi inkişafına dair dörd dövlət proqramının qəbulu və uğurlu icrası kəndlərin dirçəlməsinə, kənd təsərrüfatının və sahibkarlığın inkişafına, yeni iş yerlərinin yaradılmasına mühüm töhfələr verdi.

Sənaye məhəllələrinin və yaşıl parkların salınması, güzəştli kreditlərin və müxtəlif növ məhsul istehsalına görə dövlət tərəfindən subsidiyaların verilməsi, əkinlərin suvarma suyu ilə təmini insanların aqrar sektorda sahibkarlıqla məşğul olmasına, gəlirlərinin artmasına və güzəranlarının yaxşılaşmasına əsaslı dəstək oldu.

**Cənab İlham Əliyevin Prezidentliyi dövründə paytaxt Bakı yenidən tikilib quruldu, parklar, yaşıl xiyabanlar salındı, şəhər tanınmaz dərəcədə təzələndi, dəyişdi. Bunu təkcə paytaxtda yaşayanlar yox, əvvəllər Bakıda olaraq, sonradan qonaq gələn əcnəbilər, hətta vətəndən bir müddət uzaqda yaşayıb geri dönən azərbaycanlılar da sevinclə, heyrətlə etiraf edirlər.**

Artıq müstəqil Azərbaycanın paytaxtı Bakı dünyanın ən gözəl, ən sabit və təhlükəsiz şəhərlərindən biri, turistlərin sevdiyi və həvəslə gəldiyi məkandır.

*Ölkəmizin bütün guşələrində yaşayan vətəndaşlarımız İlham Əliyevin yaratdığı şəraitdən istifadə edərək özlərinə bir-birindən gözəl evlər tikdirmiş, həyat şəraitlərini xeyli yaxşılaşdırmışlar.*

Ailələrin böyük əksəriyyəti minik maşınına sahibdir, hətta elə ailələr var ki, hər üzvünün öz avtomobili vardır. Şəxsi rifahın yüksəlməsindən, avtomobil bolluğundan hətta yeni problem yaranmış, paytaxtda avtomobil tıxacları adi hala çevrilmişdir.

*Cənab İlham Əliyevin qayğısı sayəsində dövlət hesabına xarici ölkələrdə təhsil alan gənclərimizin sayı ilbəil artır, neft kapitalının insan kapitalına çevrilməsi prosesi uğurla reallaşır.*

**Dövlət başçısı olaraq İlham Əliyevin ən böyük uğuru, şübhəsiz, Azərbaycanı iqtisadi cəhətdən qüdrətli, yüksək siyasi nüfuza malik dövlətə çevirməsi və Qarabağı düşmən işğalından azad edərək ərazi bütövlüyünün bərpasıdır.**

**Xalqımız bunu Müzəffər Ali Baş Komandan İlham Əliyevin misilsiz şücaət və qəhrəmanlığı, yaratdığı əsl möcüzə kimi dəyərləndirir!**

*İlham Əliyev özü tərbiyələndirib oxutdurduğu əsgər və zabitlər hesabına qüdrətli, döyüşkən, ən çətin tapşırıqların belə öhdəsindən uğurla gələn qüdrətli ordu yaratdı!*

*Həmin ordunu ən müasir silahlarla silahlandırdı, yeni taktika və strategiya hazırlayaraq hərbi əməliyyatların gedişində məharətlə tətbiq etdi!*

*Beynəlxalq rəylə işləyərək onu Azərbaycanın xeyrinə kökləndikdən sonra hərbi əməliyyatlara qərar verdi.*

**27 il ərzində sülhə gəlməyən, havadarlarına güvənərək Azərbaycanı yeni müharibə başlayacağı təqdirdə "yeni əraziləri itirəcəyi" ilə hədələyən erməni faşizmini 44 gün ərzində biabırçı məğlubiyyətə uğradaraq ordusunu məhv etdi!**

44 gün ərzində təkcə hərb meydanında deyil, diplomatiya sahəsində, informasiya müharibəsində də çarpışaraq istədiyinə nail oldu!

Dövlət başçılarının, beynəlxalq qurum və təşkilat rəhbərlərinin xahiş, çağırış və təzyiq cəhdlərinə baxmayaraq irəli sürdüyü şərtə - düşmənin işğal ərazilərindən çıxarılması ilə bağlı qrafiki təqdim etməyənə, kapitulyasiya aktını imzalamayana qədər hərbi əməliyyatları dayandırmadı!

*Hər günü qələbə ilə başa vurdu, hər gün neçə-neçə kənd, qəsəbə və şəhər işğaldan azad olundu!*

*Düşmən qoşunu Azərbaycan Ordusu qarşısında fərarilər yığnağına çevrildi, qorxaqcasına qaçıb gizləndi!*

**İlham Əliyev informasiya müharibəsində təkbaşına vuruşaraq otuzdan çox dünya KİV-inə müsahibə verdi, jurnalistlərin bütün suallarını ustalıqla cavablandırdı, feyk xəbərləri ifşa etdi.**

Fürsətdən istifadə edərək Azərbaycan həqiqətlərini olduğu kimi dünyaya yaydı, erməni faşizminin əsl simasını açıq göstərdi, Azərbaycanın nəyə qadir olduğunu hünərlə nümayiş etdirdi.

Dünyaya ən müasir müharibə nümunəsi qoydu, bir sıra aparıcı dövlətləri belə Azərbaycan Ordusundan, onun yeni taktika və strategiyasından öyrənməyə, bəhrələnməyə sövq etdi.

**Qarabağ zəfəri, düşmənin işğal ərazilərindən qovularaq ərazi bütövlüyünün bərpası, əslində, Azərbaycanın ən çətin, ən ağrılı, ən böyük probleminin möhtəşəm həlli İlham Əliyevin Azərbaycanda Prezidentliyinin ən yüksək zirvəsi və uğurlu yekunu hesab olunur!**

**Müzəffər Ali Baş Komandan İlham Əliyev bu qələbəsi ilə Azərbaycanı qalib dövlətə, Azərbaycan xalqını qalib xalqa çevirdi, dövlətimizin və xalqımızın nüfuzunu, hörmətini dünya miqyasında qat-qat artırdı.**

*İndi hamı Azərbaycanı tanıyır, ona ehtiramla yanaşır, qələbəsini təqdir edir!*

*İlham Əliyev bu qələbəsi ilə ölkəmizin Cənubi Qafqazın ən güclüsü olduğunu təsdiq etməklə yanaşı, regionda yeni konfiqurasiya formalaşdırdı, sülhə, əməkdaşlığa yol açdı!*

*İlham Əliyevin bu qələbəsi dünyaya da yeni ab-hava gətirdi. İndi əraziləri işğalda olan dövlətlər Azərbaycandan öyrənməklə qətiyyətli addımlar atmaq barədə düşünürlər.*

**Bəli, İlham Əliyev Azərbaycanı dünyaya nümunə göstərməkdə davam edir!**

**İlham Əliyevin Azərbaycana 18 illik Prezidentliyi isə bütövlükdə dövlətə, xalqa, vətənə xidmətin ən parlaq nümunəsi sayılır!**

**Bəxtiyar SADIQOV**




## Tarixin ən qüdrətli Azərbaycanının və möhtəşəm Zəfərin müəllifi





*Əvvəli 1-ci səh.*



# BÖYÜK QAYIDIŞ EPOPEYASI

İtirilmiş coğrafi ərazilərin bərpa edilməsi, vətən torpaqlarının geri qaytarılması öz növbəsində ölkəmizin ərazi-inzibati bölgüsünün iqtisadi rayonlar üzrə müəyyən edilməsi məsələsinə yenidən baxılması zərurətini meydana çıxarmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 iyun 2021-ci il tarixli sərəncamı ilə ərazi bütövlüyü şəraitində ölkəmizin coğrafi ərazisində əvvəl mövcud olmuş 10 iqtisadi rayon əvəzinə işğaldan azad edilmiş rayonların əraziləri də nəzərə alınmaqla 14 iqtisadi rayonun yaradılması Vətən müharibəsindən sonra ölkədə yaranmış yeni reallığın obyektiv ifadəsidir. Yeni ərazi-inzibati bölgü əsasında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması Vətən müharibəsində qazanılmış tarixi Zəfərin meydana çıxardığı gerçəklikdən doğan addımlardır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müəyyən etdiyi Qarabağ iqtisadi rayonu erməni işğalından azad edilmiş tarixi ərazilərimizin əsl statusudur. Vaxtilə Sovet Rusiyasının 1923-cü ildə yaratdığı qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti heç bir hüquqi statusa malik olmayan qurum kimi təkcə Azərbaycan ərazisində çar Rusiyası tərəfindən köçürülmüş ermənilərə yox, həm də Ermənistana dəstək vermək üçün formalaşdırılmış süni inzibati qurum idi. Bolşevik Rusiyasının rəhbərləri Dağlıq Qarabağ Muxtar Vilayətini yaratmaqla gələcəkdə imkan yarandıqca bu ərazilərin Ermənistana verilməsini daha asan yolla təmin etmək məqsədini düşünmüşdülər. Buna görədir ki, Sovet hökumətinin XX əsrin səksəninci illərinin axırları və doxsanıncı illərin əvvəllərində ölkə üzrə yaratdığı millətlərarası münaqişələrin qızışdırılması siyasətini Dağlıq Qarabağda da tətbiq etməklə və Ermənistan tərəfinə hərbi dəstək verməklə Qarabağın işğal edilməsinə nail olması məhz yüz ildən çox davam etdirilmiş həmin məkrli siyasətin təzahürləri idi.

Bütün bunlara görə müstəqil Azərbaycan Respublikası Vətən müharibəsində Qarabağda işğal faktını aradan qaldırdıqdan sonra haqlı olaraq həmin qondarma muxtar qurumun bərpa edilməsinə heç cür razılıq verə bilməzdi. Artıq Dağlıq Qarabağdakı muxtariyyət beynəlxalq hüququn tələblərinə cavab verməyən, zorakılıq yolu ilə yaradılmış qeyri-qanuni inzibati vahid kimi tarixin arxivinə göndərilmişdir. Keçmiş qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti adlı süni qurumun əvəzinə yaradılmış Qarabağ iqtisadi rayonu işğaldan sonrakı Azərbaycanın tərkibində Qarabağın ən real statusunu müəyyən edir.

Qarabağ iqtisadi rayonu - ölkəmizin 14 iqtisadi rayonundan biri kimi bu regionu əhatə edən qədim Azərbaycan diyarında müstəqil dövlətimizin müəyyən etdiyi proqram əsasında, burada yaşayan bütün xalqların iştirakı ilə yenidən qurulub inkişaf etdiriləcək tarixi ərazimizdir. Regionun erməni əhalisi də respublikamızın digər bölgələrində yaşayan başqa azsaylı xalqlarla bərabər hüquqlar əldə edərək, onlar üçün yaradılmış multikultural mühitdə yaşayıb-yaratmaq imkanları qazana biləcəkdir.

Eyni zamanda, Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanın inzibati-ərazi bölgüsündə Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması da tarixi ədalətin bərpa edilməsi deməkdir. Bolşeviklər tərəfindən 1920-ci ildə Sovet Rusiyasının Azərbaycanın tarixi ərazisi olan Zəngəzurun işğal edilərək daşnak Ermənistanına verilməsi fürsət yarandıqda ətraf ərazilərin, xüsusən də Naxçıvan ərazisinin də nə vaxtsa Azərbaycandan qopardılıb Ermənistana birləşdirilməsi məqsədi daşımışdır. Çünki sovet-bolşevik Rusiyası Ermənistanın timsalında SSRİ-nin qərb sərhədlərində özünün hərbi bazasını qurmaq, forpostunu yaratmaq niyyətində olmuşdur. Məhz həmin niyyətlə Qərbi Zəngəzur işğal olunmuş və Ermənistana hədiyyə edilmişdir. Hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 iyun 2021-ci il tarixli sərəncamı ilə Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması vaxtilə işğal edilmiş Qərbi Zəngəzurun hüdudlarında müstəqil Azərbaycan dövlətinin sərhədlərinin daha da möhkəmləndirilməsinə və bu iqtisadi rayonun inkişafına xidmət edir.

Şərqi Zəngəzur iqtisadi rayonu həm də region dövlətlərinin hərtərəfli inkişafına geniş imkanlar yaradacaq Zəngəzur dəhlizinin yaradılmasına açılmış qapıdır. Məhz Zəngəzur dəhlizi vasitəsilə yaradılacaq dəmir yolu və avtomobil qovşaqları ilə Azərbaycanın iqtisadi rayonları ilə ölkəmizin ayrılmaz üzvi tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası arasında əlaqələrin yenidən bərpa olunması təmin olunacaqdır. Zəngəzur nəqliyyat dəhlizinin yaradılması eyni zamanda, regionda Türkiyə Cümhuriyyətinin və İran İslam Respublikasının da iqtisadi maraqlarına tam cavab verir.

Həmçinin Ermənistan tərəfinin blokadadan çıxması, region dövlətləri və Rusiya Federasiyası ilə əlaqələrinin yaradılması baxımından da Zəngəzurun nəqliyyat magistralları əlverişli imkanlar yaradacaqdır. Avropa ilə Asiyanı birləşdirən nəqliyyat qovşağı kimi də Zəngəzur dəhlizi iqtisadi inkişaf üçün geniş perspektivlər açacaqdır. Bütün bunlara görə Şərqi Zəngəzurun yeni iqtisadi rayon kimi təsis edilməsi və Zəngəzur nəqliyyat qovşağının yaradılması təşəbbüsləri Vətən müharibəsindən sonra meydana çıxmış Böyük Qayıdışın masştabını, geniş əhatə dairəsini real surətdə əks etdirir. Şərqi Zəngəzur iqtisadi rayonu və Zəngəzur nəqliyyat dəhlizi Böyük Qayıdışın Qarabağdan - dünya magistrallarına doğru inkişaf ritmlərini əks etdirir.

Göründüyü kimi, Vətən müharibəsindəki Zəfərin ardınca Qarabağa və ətraf bölgələrə yenidən qayıdış mühüm ictimai-siyasi və iqtisadi əhəmiyyətə malik olan bir prosesə çevrilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin elan etdiyi Böyük Qayıdış Azərbaycanın xəritəsinin Vətən müharibəsindəki Zəfərdən sonrakı tam mənzərəsinin yaradılmasına, regionda və onun ətrafında yeni nəqliyyat - logistika qovşaqlarının formalaşdırılmasına və iqtisadi-mədəni inkişafın təmin edilməsinə geniş üfüqlər açan hərəkat səviyyəsində mövcud olan dövlət əhəmiyyətli proqramdır. Qarabağa yenidən və əbədi dönüşlə üzvi surətdə əlaqədar olan və eyni zamanda üç dövlətin: Azərbaycan Respublikası, Ermənistan Respublikası və Rusiya Federasiyası rəhbərlərinin imzaladıqları 10 noyabr 2020-ci il tarixli Sazişin mühüm müddəalarından biri olaraq, Zəngəzur dəhlizinin açılması və regionda bütün kommunikasiyaların bərpa edilməsi kimi aktual məsələni də nəzərə alsaq, Böyük Qayıdışın dövlətlərarası münasibətlərlə əlaqədar beynəlxalq əhəmiyyətə malik mühüm bir hərəkat olduğunu təsəvvür edə bilərik. Buna görə də Böyük Qayıdış öz mahiyyəti etibarilə Azərbaycan üçün həm regional, həm də beynəlxalq hadisədir.

Sözün əsl mənasında:

*- Böyük Qayıdış - ilk növbədə Qarabağın işğaldan azad edilməsinin və Qarabağa yenidən dönüşün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Proqramıdır.*

*Böyük Qayıdış - Azərbaycanın ərazi bütövlüyünün tam təmin edilməsinin strategiyası və taktikasıdır.*

*Böyük Qayıdış - 30 il işğal altında qalmış və Ermənistan tərəfindən vəhşicəsinə dağıdılaraq xarabalıqlara çevrilmiş ərazilərin yenidən qurulması və həmin xarabalıqların üzərində yeni həyatın bərqərar edilməsi deməkdir.*

*Böyük Qayıdış - ölkəmizin coğrafi xəritəsində yenidən salınmış, adları özünə qaytarılmış çoxsaylı kəndlər və şəhərlər, yollar, körpülər, müasir tikililər deməkdir.*

*Böyük Qayıdış - 30 il işğal altında qalmış qədim Azərbaycan torpaqlarının istifadəyə verilməsi, əkilib-biçilməsidir.*

*Böyük Qayıdış - Azərbaycan Respublikasının hərbi cəhətdən müdafiə olunmasında və iqtisadi-mədəni baxımından inkişaf etdirilməsində böyük addımlardır.*

Məlumdur ki, artıq Azərbaycan Respublikasında Böyük Qayıdış hərəkatının icrasına başlanmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci ilin axır çərşənbə günü Şuşada - Cıdır düzündə alovlandırdığı Novruz tonqalı Qarabağa milli-mənəvi dəyərlərinin Əbədi Qayıdışının rəmzidir.

Müzəffər Prezidentimizin dünyanın ən qədim yaşayış məskənlərindən olan Azıx mağarasına işğaldan azad edildikdən sonra etdiyi ilk səfər tarixi keçmişimizə, soykökümüzə Qayıdışın əməli ifadəsidir.

Şuşa şəhərindəki Gövhər ağa məscidində və Ağdam şəhər məscidində uzun illərdən sonra ucalan ilk azan səsləri əxlaqi-dini dəyərlərimizə Qayıdışın əks-sədasıdır.

Prezident İlham Əliyevin Qarabağ ərazisindəki süni şəkildə erməniləşdirilmiş coğrafi adların - toponimlərin əsl azərbaycanlı adlarının bərpa edilməsi istiqamətində irəli sürdüyü təşəbbüslər, atdığı düşünülmüş addımlar tarixi ərazilərimizin xalqımıza mənsub olmasının özünütəsdiqidir. Qarabağda real Qayıdış istiqamətində addımlar atılmaqdadır.

Prezident İlham Əliyev artıq Şuşa və Ağdam şəhərlərində çoxmərtəbəli yaşayış binalarının, Zəngilan rayonunda "ağıllı" kəndin təməllərini atmış, Cəbrayıl şəhərinin bərpa edilməsinin, Hadrutda məscidin təməl daşını qoymuşdur. Rəsmi açıqlamalara görə, 2022-ci ilin əvvəllərindən etibarən Qarabağ ərazilərinə Böyük Qayıdışa başlanılacaq, regionun daimi sakinlərinin özlərinin ata-baba torpaqlarına dönüşünə start veriləcəkdir. Bu, müasir Azərbaycan tarixinin ən mühüm tarixi hadisəsidir. Bununla Azərbaycanda otuz il müddətində davam etmiş məşəqqətli qaçqınlıq həyatına, nəhayət ki, son qoyulması prosesi başa çatacaqdır.

Füzuli rayonu ərazisindən Şuşa şəhərinə çəkilmiş Zəfər Yolu Böyük Qayıdışın arteriyasıdır. Aran zonasından Şuşa şəhərinə qədər uzanan 90 kilometrlik Zəfər Yolu ətraf rayonların və Şuşa şəhərinin yenidən qurulmasına şərait yaradır, regiona yeni həyatın gətirilməsinə uğurla xidmət edir.

*Zəfər yolu - Böyük Qayıdışın Əməl yolu, İnkişaf yoludur.*

*Zəfər yolu - Haqq və Ədalət yoludur.*

*Zəfər yolu zəfərlərdən - zəfərlərə aparan böyük magistraldır.*

Hazırda Qarabağın və Şərqi Zəngəzurun ayrı-ayrı rayonlarını əhatə edən genişmiqyaslı yollar şəbəkəsi Böyük Qayıdışın və Böyük Quruculuq Hərəkatının mükəmməl yol xəritəsidir. Yüksək dünya standartlarına cavab verən bu yollar şəbəkəsi Qarabağın yenidən qurulmasını və daha da inkişaf etdirilməsini təmin edən, lazım gəldikdə hərbi-strateji vəzifələrin də həyata keçirilməsi üçün əlverişli imkanlar yaradan magistrallardır.

Regionda icrasına başlanmış genişmiqyaslı dəmir yolları və hava yolları şəbəkələri Qarabağın və Şərqi Zəngəzurun inkişaf etdirilməsi ilə bərabər, həm də qonşu dövlətlərlə əlaqələrin yenidən qurulmasına və turizmin inkişafına meydan açan möhtəşəm layihələrdir. Artıq Füzuli şəhərində salınmış Füzuli Beynəlxalq Hava Limanı Qarabağda yeni həyatın daha sürətlə qurulmasına xidmət edən böyük imkandır. Füzuli Beynəlxalq Hava Limanı Böyük Qayıdış Hərəkatının Qoşa qanadıdır. Füzuli Aeroportu həm Qarabağ regionunun inkişafına, həm də Azərbaycan Respublikasının digər ölkələrlə əlaqələrinin genişləndirilməsinə, regionda turizmin yenidən qurulmasına və inkişaf etdirilməsinə uğurla xidmət edir. Füzuli Beynəlxalq Hava Limanı həm də işğaldan sonra ən qısa müddətdə Qarabağ ərazisində salınmış ilk aeroport kimi də mühüm hadisədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şərqi Zəngəzurda, Laçında və Kəlbəcərdə, Qubadlıda, Zəngilanda və Cəbrayılda təməllərini atdığı hava limanları, yaşayış məskənləri, tunellər, yollar da regionun hərtərəfli inkişafına xidmət göstərəcəkdir. Ağdamda yaradılacaq Sənaye Parkı, Cəbrayılda inşasına başlanmış KamAZ Regional Xidmət Mərkəzi, Araz Vadisi İqtisadi Zonası, Kəlbəcərdə məskunlaşmış heyvandarlıq və arıçılıq təsərrüfatları Qarabağın müasir həyatının reallıqlarıdır. Bütün bunlar həm də yeni iş yerləri, daimi məşğulluq sahələridir. Cəbrayıl rayonunda akademik Mehdi Mehdizadə adına tam orta məktəbin və rayon mərkəzi xəstəxanasının təməlqoyma mərasimlərinin keçirilməsi regionda sosial sahənin də infrastrukturlarının yaradılmaqda olduğunu nəzərə çarpdırır. Bir sözlə, Prezident İlham Əliyevin hər səfəri ilə Qarabağda və Zəngəzurda yeni həyat ritmlərinin şəbəkəsi daha da genişlənir və inkişaf edir.

*Azərbaycanın tarixi Şuşa şəhəri Böyük Qayıdışın şah əsəridir.*

Xalqımızın tarixində və taleyində mühüm yer tutmuş Şuşa şəhəri Vətən müharibəsindəki Zəfərdən sonra artıq özünün yeni tarixi inkişaf mərhələsinə qədəm qoymuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Şuşa şəhərinə Azərbaycanın mədəniyyət paytaxtı statusu verilməsi bu qədim şəhərin yeni inkişafının hərəkətverici qüvvəsinə çevrilmişdir. Vətən müharibəsindəki tarixi Zəfərdən sonra Şuşada ölkəmizin yeni mədəniyyət paytaxtının salınması istiqamətində mühüm layihələrinin həyata keçirilməsi işi sürətlə davam etdirilir.

Erməni vandalları tərəfindən güllələnmiş heykəllər: Üzeyir Hacıbəyovun, Xurşidbanu Natəvanın və Bülbülün heykəlləri və Üzeyir Hacıbəylinin yeni hazırlanmış daha bir heykəli artıq Şuşa şəhərində ucaldılmışdır. Şuşa şəhərində artıq fəaliyyətə başlamış xalq artisti Bülbülün ev muzeyi Azərbaycan musiqi mədəniyyətinin tarixi ənənələri, görkəmli simaları və müasir inkişafı ilə əlaqədar tam təsəvvürün formalaşdırılmasına, böyük ifaçının dünyaya və yeni nəsillərə tanıdılmasına geniş imkan yaradır. Şuşadakı Xalça Muzeyində nadir Qarabağ xalçaları nümayiş etdirilir. Heydər Əliyev Fondu tərəfindən yeni yaradılmış sərgi salonunda Azərbaycanın reallıqlarını əks etdirən müxtəlif sərgilər təqdim olunur. Şuşa şəhərində salınmış müasir mehmanxana kompleksləri burada beynəlxalq və respublika səviyyəsində genişmiqyaslı tədbirlərin təşkil edilməsi üçün tam şərait yaradır.

Şuşa şəhərində yüksək səviyyədə keçirilmiş Beynəlxalq "Xarıbülbül" Musiqi Festivalı Azərbaycanın mədəniyyət paytaxtının ilk möhtəşəm musiqi tədbiri olaraq yeni dövrün mühüm sənət hadisəsinə çevrilmişdir.

İşğaldan azad edildikdən sonra Şuşa şəhərində - Cıdır düzündə Heydər Əliyev Fondu tərəfindən təşkil edilmiş Beynəlxalq "Xarıbülbül" Musiqi Festivalı Azərbaycan Respublikasının qazandığı tarixi Zəfərin təntənəsinə həsr olunmuş möhtəşəm qala-konsertdir.

*"Xarıbülbül" Musiqi Festivalı - Azərbaycan incəsənətinin nəhəng musiqi çələngidir.*

*"Xarıbülbül" Musiqi Festivalı - Qarabağda qazanılmış böyük Zəfərin atəşfəşanlığının əyani təcəssümüdür.*

*"Xarıbülbül" Festivalı - Qarabağın musiqi dünyasının müasir dövrdəki "Qarabağ şikəstəsi"dir.*

*"Xarıbülbül" Musiqi Festivalı - Qarabağın zəngin musiqi və ifaçılıq mədəniyyətinin ilk Böyük Qayıdışı hadisəsidir.*

Şuşa şəhərinin mədəniyyət paytaxtı kimi tanıdılmasında burada ermənilərin vəhşicəsinə dağıtdıqları görkəmli Azərbaycan şairi və dövlət xadimi Molla Pənah Vaqifin məqbərəsinin yenidən bərpa edilməsi və Vaqif Poeziya Günlərinin keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə bərpa edilərək əsaslı şəkildə yenidən qurulan Molla Pənah Vaqifin məqbərəsi azad Şuşanın möhtəşəm memarlıq abidəsidir. Prezident İlham Əliyevin 29-30 avqust 2021-ci il tarixlərində Molla Pənah Vaqifin məqbərəsinin açılışında və Vaqif Poeziya Günlərinin başlanğıc mərasimində iştirak etməsi və nitq söyləməsi bu tarixi-mədəni hadisələri müstəqil Azərbaycan dövlətinin mədəniyyət siyasətinin təntənəsinə çevirmişdir.

Vaqif Poeziya Günlərinin keçirilməsi özündə bir çox mənaları ifadə edir:

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vaqif Poeziya Günlərinin keçirilməsi ilə ilk növbədə vaxtilə Ulu Öndər Heydər Əliyevin başladığı sənətə və sənətkarlara ehtiram göstərilməsi ilə əlaqədar ədəbiyyat siyasətinin davam etdirilməsini və yaşadılmasını təmin etmişdir.

Vaqif Poeziya Günlərinin keçirilməsi ilə Şuşaya - Qarabağa müasir şəraitdə ədəbiyyat və mədəniyyət ab-havasının qaytarılması gerçəkləşdirilmişdir.

Geniş tərkibdə Azərbaycan ziyalıları, elm və mədəniyyət xadimləri ilə yanaşı, dövlət rəsmilərinin, millət vəkillərinin də iştirak etdiyi Vaqif Poeziya Günləri ədəbiyyat tədbirinin sədlərini aşaraq mühüm ictimai-mədəni hadisə səviyyəsinə yüksəlmişdir. Prezident İlham Əliyevin Vaqif Poeziya Günlərinin açılışı mərasimindəki dərin məzmunlu və parlaq nitqi Qarabağa Böyük Qayıdış hərəkatı ilə ölkəmizin ədəbiyyat və mədəniyyət siyasətinin üzvi vəhdətinin canlı təcəssümünün ifadəsidir.

Ədəbiyyat hadisəsi kimi də Vaqif Poeziya Günləri müstəqillik dövrü Azərbaycan ədəbiyyatının mübariz ruhunun təntənəsi kimi səslənmişdir. Azərbaycan ədəbiyyatının ağsaqqal nəsillərinin - Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anarın, Xalq yazıçısı Elçinin çıxışları və Xalq şairi Nəriman Həsənzadənin həyəcanla oxuduğu şeiri ədəbiyyatımızın müdriklik və müasirlik ruhunun mesajlarıdır. Gənc nəsil şairlərin Molla Pənah Vaqifin məqbərəsi qarşısında oxuduqları şeirlər Azərbaycan ədəbiyyatının yeni tarixi epoxadakı poetik monoloqlarıdır.

Vaqif Poeziya Günləri çərçivəsində keçirilmiş simpozium ölkəmizdə poeziya günləri ilə elmi fikrin əlaqələndirilməsinin ilk modelidir. Bu, böyük Məhəmməd Füzulinin vaxtilə dediyi "elmsiz şeir əsası yox divar olur" misrasındakı gerçəkliyin Şuşada həyata keçirilməsinin nümunəsidir. Fikrimizcə, bundan sonra başqa görkəmli şairlərimizin adı ilə əlaqədar keçirilmiş poeziya günlərində də paralel olaraq elmi konfransların keçirilməsi həm ədəbiyyatın, həm də elmin xeyrinə olar.

Nizami Gəncəvi ilində Vaqif Poeziya Günlərinin keçirilməsi ölkəmizdə ədəbiyyat və incəsənətin inkişafına dövlət səviyyəsində göstərilən böyük qayğının əməli ifadəsidir.

Molla Pənah Vaqifin Şuşa şəhərindəki məqbərəsi önündə təşkil olunmuş Poeziya Günləri Böyük Qayıdışın poetik manifestidir.

*Göründüyü kimi, artıq Azərbaycan Respublikasında Böyük Qayıdışın epopeyası yaranmaqdadır.*

Çar Rusiyasının erməniləri İrandan Qarabağa köçürməsi, bolşeviklər tərəfindən qondarma Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması, XX əsrin səksəninci illərinin sonlarında burada millətlərarası münaqişələrin qızışdırılması yolu ilə qanlı qarşıdurmaların törədilməsi, azərbaycanlıların öz dədə-baba torpaqlarından didərgin salınması Qarabağ epopeyasının faciəli tarixi səhifələridir.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində Qarabağın 30 illik işğaldan azad edilməsi və Zəfərin qazanılması Böyük Qayıdış epopeyasının möhtəşəm başlanğıcı, proloqudur.

Azərbaycan Ordusunun zərbələri nəticəsində ermənilərin Qarabağ ərazilərindən, döyüş mövqelərindən qaçaqaçı Böyük Qayıdış epopeyasının kütləvi səhnələrindəndir.

Qarabağın şəhərləri və kəndlərində yeni yaşayış məskənlərinin yaradılması, müasir təsərrüfat-sənaye obyektlərinin yaradılması və sosial infrastrukturun qurulması, regionda böyük magistralların salınması, iqtisadi-mədəni dirçəlişin formalaşdırılması Böyük Qayıdış epopeyasının parlaq fəsilləridir.

*Şuşa şəhərində Molla Pənah Vaqifin möhtəşəm məqbərəsinin ucaldılması Böyük Qayıdış epopeyasının poeziya əlavəsidir.*

*Böyük Qayıdış "uçurulan məscidlərin, yandırılan meşələrin, güllələnən heykəllərin, susdurulan muğamların" Əbədi Qayıdışıdır.*

*Füzuli rayonunda Beynəlxalq Hava Limanının istifadəyə verilməsi və ilk uçuşların həyata keçirilməsi Böyük Qayıdış epopeyasının kulminasiya-dönüş nöqtəsidir.*

*Qarabağda erməni vandalları tərəfindən vəhşicəsinə dağıdılmış kəndlərin və şəhərlərin bərpa edilməsi əsasında diyarda yenidən məskunlaşmanın başlanması, regiona öz sahiblərinin dönüşü Böyük Qayıdış epopeyasının davam etməkdə olan finalıdır.*

*Qarabağ Azərbaycandır. Nida! - Böyük Qayıdış epopeyasının əsas ideyasıdır.*

*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Böyük Qayıdış epopeyasının müəllifi və baş qəhrəmanıdır.*

*Böyük Qayıdış epopeyası - Qarabağın qurtuluş salnaməsidir.*

*Böyük Qayıdış epopeyası - Qarabağın dünəni, bu günü və işıqlı sabahlarıdır.*

*Böyük Qayıdış epopeyası - ərazi bütövlüyünü təmin etmiş Azərbaycanda yeni həyatın dastanıdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Milli Qurtuluş Günü - 15 iyun 2021-ci il tarixdə azad olunmuş Şuşa şəhərində imzaladıqları Şuşa Bəyannaməsi Böyük Qayıdış epopeyası ideyalarının gerçəkləşdiriləcəyinin möhkəm təminatıdır.*

*Azərbaycan-Türkiyə birliyi uzaqgörən görkəmli dövlət xadimi Heydər Əliyevin "Bir millət - iki dövlət" ideyasının beynəlxalq miqyasda və dövlətlərarası münasibətlərdə ən çətin sınaqlardan alnıaçıq səviyyədə çıxmış sarsılmaz həmrəyliyin əyani təcəssümüdür.*

*Qarabağın işğaldan azad olunması uğrunda Vətən müharibəsində Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın bəyanatları Azərbaycan Respublikasının Prezidenti, Qalib Ali Baş Komandan İlham Əliyevə və Azərbaycan xalqına qardaş ölkənin tam dəstək verməsinin canlı və ibrətamiz nümunəsidir.*

*Azərbaycan-Türkiyə-Pakistan müttəfiqliyi və həmrəyliyi Böyük Qayıdış epopeyasının alternativsiz dəstəyinin bariz ifadəsidir.*

*Böyük Qayıdış epopeyası - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanın hərtərəfli inkişafı naminə 2003-cü ildən başlayaraq uğurla davam edən yorulmaz fəaliyyətinin, ölkəmizin iqtisadi-mədəni inkişafı və ərazi bütövlüyü uğrunda apardığı qətiyyətli mübarizənin çoxcildlik külliyyatıdır.*

*Böyük Qayıdış epopeyası - Prezident İlham Əliyevin Böyük Quruculuq Hərəkatının bitib-tükənməz serialıdır.*

*Böyük Qayıdış epopeyası - ərazi bötövlüyünü qazanmış və sürətlə inkişaf etməkdə davam edən müstəqil Azərbaycan Respublikasının Böyük Gələcəyinin manifestidir.*

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın vitse-prezidenti,***
***Milli Məclisin deputatı, akademik***




# Tarixin ən qüdrətli Azərbaycanının və möhtəşəm Zəfərin müəllifi





# Azərbaycanı müzəffər edən KOMANDAN



*Əvvəli 1-ci səh.*

Şüurlu şəkildə özünü tanıdığı gündən bu məktəbin yetirməsi kimi formalaşıb və ona görə də Heydər Əliyev məktəbinin ən mükəmməl tələbəsi deyiləndə birmənalı şəkildə cənab İlham Əliyevin adı çəkilir.

## Diplomatik məharətin təntənəsi

Hələ Prezident seçilmədən əvvəl də cənab İlham Əliyevin Azərbaycanın ictimai-siyasi həyatındakı uğurlu fəaliyyəti kifayət qədər zəngin idi. Bir neçə misal gətirməklə bunu təsdiq etmiş olarıq.

1994-cü ildə Azərbaycanın gələcək inkişafının təməl daşı hesab edilən "Əsrin müqaviləsi"nin imzalanması ilə bağlı danışıqlar prosesi davam edirdi. Düzünü desək, danışıqlar dalana dirənmişdi, müqavilənin imzalanması çətinə düşmüşdü. Həmin zaman Dövlət Neft Şirkətinin vitse-prezidenti kimi fəaliyyət göstərən cənab İlham Əliyevin ABŞ-ın Hyuston şəhərində bir aya qədər aparılan danışıqlardakı fəallığı ilə proses uğurlu məcraya yönəldi. Müqavilənin imzalanması isə Azərbaycanı yeni inkişaf yoluna çıxardı.

Cənab İlham Əliyev 1995-2003-cü illərdə Milli Məclisin deputatı, 2001-2003-cü illərdə isə Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Respublikası nümayəndə heyətinin rəhbəri kimi fəaliyyət göstərərkən böyük nailiyyətlərə imza atmışdır. Azərbaycan həqiqətlərinin dünyaya tanıdılması, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində bir çox beynəlxalq təşkilatların Ermənistanın işğalçı siyasətini pisləyən qətnamələrinin qəbul edilməsində əvəzsiz xidmətlər göstərmişdir.

Avropa Şurası Parlament Assambleyası sədrinin müavini, AŞ PA-nın Büro üzvü seçilmiş, AŞ PA-nın fəaliyyətində fəal iştirakına və Avropa ideallarına sədaqətinə görə təşkilatın fəxri üzvü diplomu və AŞ PA medalı ilə təltif edilmişdir. Bu, əlbəttə ki, cənab İlham Əliyevin uğurlu diplomatik fəaliyyətinin bəhrəsi və Azərbaycanın nüfuzunun qat-qat yüksəlməsi demək idi.

Təbii ki, qədirbilən Azərbaycan xalqı bütün bu prosesləri izləyir və cənab İlham Əliyevə böyük rəğbət bəsləyirdi. Ona görə də 2003-cü il oktyabrın 1-də, prezident seçkiləri ərəfəsində Ulu Öndər Heydər Əliyev xalqa müraciət edib "mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək" fikrini söyləyəndə xalq tərəddüd etmədən bu çağırışa birmənalı olaraq qoşuldu. Bu fikirlər Heydər Əliyevin təkcə xalqa vəsiyyəti deyildi, həm də dahi liderin İlham Əliyevə olan ümidi, inamı idi. Bu inamın təntənəsi də cənab İlham Əliyevin 15 oktyabrda keçirilən prezident seçkilərindəki qələbəsi oldu.

15 oktyabr 2003-cü il... Bu təqvim müasir Azərbaycanın dövlətçilik tarixinin şanlı səhifələrindən biri kimi yaddaşlara yazılıb. Həmin gün ölkədə Prezident postuna azad, ədalətli və şəffaf şəkildə keçirilən 5-ci rəsmi seçkilərdə cənab İlham Əliyev seçicilərin 2 milyon 438 min 787 nəfərinin etimadını qazanaraq Azərbaycanın dövlət başçısı seçildi.

## Yeni əsrin praqmatik lideri

Tarix sübut edir ki, hər bir xalqın davamlı və sabit inkişafını hansısa taleyüklü mərhələdə ona rəhbərlik etmiş lider müəyyənləşdirir. 2003-cü ildən vətəndaşlarından etimad mandatı alan Prezident İlham Əliyev məhz xalqın sosial-rifah halının yaxşılaşdırılması, dövlətin qüdrətinin daha da artması istiqamətində həyata keçirdiyi inkişaf konsepsiyası ilə həm alternativsizliyini, həm də hər bir azərbaycanlının Prezidenti olduğunu sübut etdi.

Cənab İlham Əliyevin ötən müddətdə əldə etdiyi böyük siyasi-iqtisadi nailiyyətlər onun liderlik üçün zəruri keyfiyyətlərə malik olduğunu bir daha təsdiqləyir. O, yeni əsrin praqmatik lideri kimi ölkəyə rəhbərlik etdiyi bu müddətdə sübuta yetirdi ki, xalq öz taleyini ona etibar etməkdə qətiyyən yanılmayıb.

Belə bir şəxsiyyətin respublikamıza rəhbər seçilməsi dünyanın tərəqqipərvər, sabitlik, demokratiya, sülh, rifah, inteqrasiya şəraitində yaşamağa üstünlük verən bütün mütərəqqi qüvvələri tərəfindən həm Azərbaycanda, həm də regionda ictimai-siyasi proseslərin məntiqindən doğan labüd hadisə kimi qarşılandı.

Xalqdan etimad mandatı alan cənab İlham Əliyev andiçmə mərasimində Azərbaycanın daha güclü, qüdrətli dövlətə çevrilməsi üçün Ulu Öndər Heydər Əliyev siyasətinin davam etdirilməsinin gərəkliyini bildirmişdi. Son 18 ilin uğurları məhz bu vədin konkret əmələ əsaslandığını sübut edir.

Prezident İlham Əliyev ölkəmizin ötən dövrdə qazandığı uğurları diqqətə çatdıraraq bildirmişdir: "2003-cü ildə Azərbaycan xalqı mənə böyük etimad göstərərək Prezident vəzifəsinə seçdiyi gündən bu günə qədər bu siyasətə sadiqəm. Mən 2003-cü ildə bu barədə sözümü demişəm. Mən bu siyasətə sadiq qalacağam və 2003-cü ildən bu günə qədər Azərbaycanda gedən uğurlu inkişaf Heydər Əliyev siyasətinin təntənəsidir, müstəqil Azərbaycanın təntənəsidir".

18 ildə gerçəkləşdirilməsi inanılmaz görünən nailiyyətlər deməyə əsas verir ki, Heydər Əliyev mənəvi-siyasi irsinin ən layiqli davamçısının müəllifliyi ilə Azərbaycanın çağdaş tarixinin şanlı səhifələri yazılır.

Reallığı düzgün qiymətləndirmək bacarığı, praqmatikliyi, işgüzarlığı, səmimiliyi, xalqına, millətinə, Vətəninə sevgisi, qətiyyətliliyi, məqsədə doğru inamla irəliləməsi cənab İlham Əliyevə xalqın rəğbət hissini artıran ən mühüm mənəvi keyfiyyətlərdir. Prezident İlham Əliyevin yüksək intellekti, istedadı, şəxsiyyəti, dövlətçilik məharəti ümumi vəhdət təşkil edir. İntellektlə istedadın, ənənə ilə novatorluğun, keçmişlə gələcəyin üzvi vəhdətinə, yaradıcı sintezinə nail olmaq qabiliyyəti, Azərbaycanın dünəninə, bugününə və sabahına sonsuz, sarsılmaz sədaqət - bunlar cənab İlham Əliyev şəxsiyyətini hər kəsə sevdirən cəhətlərdir. Liderlik xüsusiyyətlərinin əksəriyyət tərəfindən qəbul edilmək, geniş siyasi spektrin inamını qazanmaq və elektoral dəstəyə malik olmaq kimi politoloji bir mənanı ehtiva etdiyini nəzərə alsaq, bu termini bütün kateqoriyalar üzrə cənab İlham Əliyevə şamil etmək olar.

## Ulu Öndərin arzularını reallaşdıran islahatçı Prezident

Müstəqil Azərbaycanın məhz Prezident İlham Əliyevin rəhbərliyi altında ciddi uğurlara imza atması, sürətli iqtisadi inkişafı ilə dünyada lider mövqeyini qoruyub saxlaması dövlət idarəçiliyinin uzun illər ərzində formalaşmış, təcrübədən uğurla çıxmış təkmil mexanizmlər əsasında həyata keçirilməsi nəticəsində mümkün olub.

Ümummilli Liderin ciddi elmi təməllərə söykənən inkişaf strategiyasını inamla davam etdirən cənab İlham Əliyev qısa müddətdə Azərbaycanı Cənubi Qafqaz regionunun ən sürətlə inkişaf edən, sabit və qüdrətli dövlətinə çevirdi. Prezident özünü azərbaycanlı sayan və bu mənsubiyyətdən qürur duyan hər kəsi Ulu Öndərin yarımçıq qalmış arzularının, ideyalarının həyata keçirilməsi istiqamətində səfərbər etdi. Hər bir azərbaycanlı dərk etdi ki, bu ideyalar yaşayır və bizi xəyallarımızda yaşatdığımız demokratik, qüdrətli Azərbaycanın qurulması üçün Prezident İlham Əliyevin liderliyi altında hələ çox uğurlar gözləyir.

Cənab İlham Əliyev hər zaman söyləyirdi ki, iqtisadi cəhətdən geridə qalmış dövlətlərdə demokratik proseslər də geridə qalır. O ölkələr ki, onlar iqtisadi cəhətdən güclüdürlər, həmin ölkələrdə demokratiyanın inkişafı da çox yüksək zirvədədir. Məhz bu prinsipi əsas tutaraq Azərbaycan Prezidenti ölkə iqtisadiyyatının inkişafı, xüsusilə də regionların sosial-iqtisadi inkişafı istiqamətində yüksəliş planları, layihələr və islahatlar həyata keçirməyə başladı.

2004-cü ildə regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrasına başlayarkən Azərbaycan cəmi 1,8 milyard dollar valyuta ehtiyatlarına sahib idi. Bu gün isə həmin rəqəm 52 milyard dollara yüksəlib. Azərbaycan iqtisadiyyatına müstəqillik illərində 260 milyard dollardan çox investisiya yatırılıb. Bunun böyük hissəsi xarici sərmayədir. Bu da bir daha təsdiq edir ki, cənab İlham Əliyevin Azərbaycanda yaratdığı biznes və investisiya mühiti xarici sərmayədarların ölkəmizə investisiya yatırması prosesinə də müsbət təsir göstərib.

Bu dövrdə Azərbaycanın iqtisadi uğurları daha da böyüdü. İqtisadi nailiyyətləri ilə hər zaman diqqət mərkəzində olan ölkəmizin valyuta ehtiyatları, o cümlədən Azərbaycana qoyulan sərmayələrin həcmi artdı, güclü sahibkarlıq sinfi yarandı.

Ölkədə qeyri-neft sektorunun inkişafı yeni neft strategiyasının məntiqi davamı oldu. Güclü iqtisadiyyatın hər bir ölkənin inkişafında mühüm amil olduğunu bəyan edən Prezident İlham Əliyev ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisinin artırılması ilə bağlı mühüm tədbirlər gördü. Yüzlərlə səhiyyə ocağının, müalicə-diaqnostika mərkəzlərinin inşası səhiyyə sisteminin inkişafını sürətləndirdi. Ölkədə yüzlərlə məktəb tikildi, təhsil müəssisələrinin maddi-texniki bazası gücləndirildi. Azərbaycanda nəqliyyat sisteminin yenidən qurulması ölkəmizin dünyaya çıxışını təmin etdi. Bütün bunların təməlində isə uğurlu enerji siyasəti dayandı. Bakı-Tbilisi-Qars dəmir yolu, "Cənub qaz dəhlizi", Bakı Beynəlxalq Dəniz Ticarət Limanının fəaliyyətə başlaması, "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizləri, ümumiyyətlə, nəhəng infrastruktur layihələrinin icrası Azərbaycanı regionun nəqliyyat-tranzit, eləcə də logistik mərkəzinə çevirdi.

Dövlət başçısının düşünülmüş, məqsədyönlü və ən əsası, tam müstəqil siyasəti Azərbaycanın regional və beynəlxalq miqyasda nüfuzunun daha da artmasına gətirib çıxardı. Bu siyasət həm də Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsini, kosmik klubun üzvünə və beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilməsini təmin etdi.

Müasir qloballaşma dövründə istənilən məsələ üzrə Azərbaycanın milli maraqlarının sadiq təminatçısı kimi çıxış edən Prezident İlham Əliyev beynəlxalq miqyasda da əsl lider olaraq ehtiramla qarşılandı. Bu mənada fəxarət doğuran məqamlardan biri də cənab İlham Əliyevin dünyada dərin analitik təfəkkürə və məqsədyönlü, düşünülmüş siyasi iradəyə malik lider kimi qəbul olunmasıdır. Qətiyyəti, diplomatik məharəti onu dünyanın nüfuzlu siyasi rəhbərləri cərgəsinə çıxarıb. Ona görə Azərbaycan Prezidentinin şəxsiyyəti bu gün beynəlxalq səviyyədə ehtiramla qəbul olunur. Təsadüfi deyil ki, dövlət başçısının hadisələrə baxışı, münasibəti hər bir beynəlxalq tədbirin diqqətlə izlənilən məqamlarındandır.

Prezidentin güclü siyasi iradəsi və davamlı dəstəyi sayəsində ölkədə aparılan kompleks islahatlar Azərbaycanın hər il yeni rekorda imza atmasına imkan yaratdı. Dünyada ən vacib və etibarlı reytinq göstəricisi hesab olunan Dünya Bankının "Doing Business-2019" hesabatı İlham Əliyevi ən islahatçı Prezident kimi dəyərləndirdi. Hesabata əsasən Azərbaycan dünyanın 10 islahatçı dövləti siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. Cənab İlham Əliyevin apardığı kompleks islahatlar ölkəmizə "dünyada ən islahatçı ölkə" imici qazandırmaqla yanaşı, davamlı və tarazlaşdırılmış iqtisadi inkişafı təmin edib.

## Sadiq silahdaşı ilə hər zaman xalqın yanında

Dövlət idarəçiliyi sisteminə müasirlik çalarları gətirmiş cənab İlham Əliyev hökumətin mütəmadi olaraq xalq qarşısında hesabat verməsini sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərin mühüm şərti hesab etməklə yanaşı, son 18 ildə müstəqil Azərbaycanın davamlı, dönməz inkişaf yoluna çevrilmiş demokratikləşmə və vətəndaş cəmiyyəti quruculuğu prosesinin keyfiyyətcə yeni mərhələsi kimi dəyərləndirir.

Siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanan Prezident bütün dövrlərdə xalqla birbaşa təmasa üstünlük verərək yerlərdə sıravi vətəndaşlarla daim görüşür, onlarla səmimi söhbətlər edərək problemlərinin həlli istiqamətində çevik qərarlar qəbul edir. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları qəbul edilməzdən öncə də ictimaiyyət nümayəndələri ilə mütəmadi görüşən Prezident problemləri, çatışmazlıqları dərindən öyrəndikdən sonra qərar qəbul edir, layihələri təsdiqləyir.

Şad gündə də, dar gündə də ən yaxın silahdaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə xalqın yanında olan dövlət başçısı bu xüsusiyyətinə görə də hər kəsin qəlbinə yol tapıb.

Ümumiyyətlə, cənab İlham Əliyevin fəaliyyətinin uğurlarını təmin edən bir neçə mühüm faktor var. Bunlar Prezidentin şəxsi bacarığı, qabiliyyəti və eyni zamanda ən yaxın silahdaşı, çiyindaşı Mehriban xanım Əliyevanın xidmətləri ilə bağlıdır. Birinci vitse-prezidentin yürütdüyü siyasət cənab İlham Əliyevin fəaliyyətinə böyük dəstəkdir. Bu gün Mehriban xanımın həyata keçirdiyi layihələr həm dövlət quruculuğu prosesinə dəstəkdir, həm də Prezidentin fəaliyyətinə xalq inamını möhkəmləndirən vasitədir.

Etiraf etməliyik ki, dünyanı ağuşuna alan qlobal pandemiya bütün dövlətlər kimi, Azərbaycan iqtisadiyyatına da təsirsiz ötüşmədi. Amma cənab İlham Əliyevin gördüyü qabaqlayıcı tədbirlərlə dövlət bu prosesdən az itki ilə çıxmağa nail oldu. Məhz belə bir çətin dönəmdə Prezident ən böyük sosial dəstək proqramları qəbul etdi. İşsiz qalan vətəndaşların maaşları dövlət tərəfindən qarşılandı.

Sosial məsələlərlə bağlı Prezidentin imzaladığı bütün sərəncamlar, fərmanlar göstərdi ki, həyata keçirilən siyasətin mərkəzində vətəndaşların yüksək rifah halının təmin olunması dayanır.

Göründüyü kimi, cənab İlham Əliyevin xarakter etibarilə səmimi, praktik siyasətçi olması onun sıravi vətəndaşlarla təmaslarında daha qabarıq şəkildə üzə çıxır. Dövlət başçısı bütün müdrik dövlət adamlarına xas olan qabiliyyətlə hər kəslə dil tapmağı, Prezident-vətəndaş arasındakı psixoloji səddi aradan götürməyi bacarır. Bütün bunlar isə dövlət rəhbərinə xalqın böyük rəğbətini, inamını qazandırıb.

## Hücum diplomatiyası, modern ordu quruculuğu

Torpaqlarımız işğal altında idi və bu, Prezident İlham Əliyevi daim narahat edən ən mühüm məsələ olaraq qalırdı. Bu səbəbdən də dövlət başçısı hücum diplomatiyası yürütməklə bərabər, ordu quruculuğu prosesinə də xüsusi diqqət ayırırdı.

Bütün dövrlərdə hücum diplomatiyası ilə işğalçı Ermənistanın terrorçu hakimiyyətini ifşa etdi, bir çox ölkələrin, təşkilatların bu istiqamətdə qətnamələr qəbul etməsinə nail oldu. Qəbul edilən bütün sənədlərdə Ermənistan işğalçı dövlət kimi tanındı. Lakin dünyada mövcud olan ikili standartlar prinsipi Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tənzimlənməsinə imkan vermədi. Ermənistana qarşı heç bir sanksiya tətbiq edilmədi və bu da işğalçının "əl-qolunu" bir qədər də uzatdı. Cəzasızlıq mühitindən yararlanan Ermənistan sülh danışıqları prosesindən dəfələrlə yayındı.

Ali Baş Komandan kimi ordu quruculuğu prosesini davamlı gücləndirən cənab İlham Əliyevin Silahlı Qüvvələrdə həyata keçirdiyi islahatlarla ordumuz yeni inkişaf mərhələsinə qədəm qoydu. Müasir hərbi texnikalar, silah-sursatlar, maddi-texniki təminat getdikcə daha da modernləşdi.

2005-ci ildən Azərbaycan özü silah-sursat istehsalına başladı. Ən müasir hərbi texnika, silah-sursat istehsal olunması ilə bərabər, eyni zamanda xarici dövlətlərdən də silahlar almağa başladı. Bununla yanaşı, müasir standartlara uyğun hərbi hissələr qurulmağa başlanıldı, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılması, ordumuzun müasir silahlarla təminatı istiqamətində mühüm işlər görüldü.

İşğalçı Ermənistanın dövlət büdcəsindən daha çox olan hərbi büdcəmiz imkan verirdi ki, Azərbaycan öz ordusunun arsenalını ən müasir döyüş texnikaları ilə zənginləşdirsin.

İllər keçdikcə Silahlı Qüvvələrimizin maddi-texniki bazası gücləndi. Ali Baş Komandanın ordu quruculuğu siyasəti mükəmməl nəticələr verdi. Həm hərbi texnikalarımız, həm də silah-sursatlarımız mütəmadi olaraq yeniləndi.

Bunun nəticəsi isə 2016-cı ilin Aprel, 2018-ci ilin Günnüt döyüşlərində özünü göstərdi. Ordumuzun zəfəri ilə bitən hər iki döyüşdə hərbi qulluqçularımızın qəhrəmanlığı, mərdliyi düşmənə gücümüzü göstərdi. Bu döyüşlər Azərbaycan Ordusunun istənilən tapşırığı yerinə yetirməyə qadir olduğunu bir daha təsdiqlədi.

## Şanlı Zəfərin memarı

Azərbaycan Prezidenti son 18 ildə yürütdüyü siyasətlə sülh tərəfdarı olduğunu dünyaya dəfələrlə nümayiş etdirdi. Amma işğalçı Ermənistanın terrorçu rəhbərliyi öz çirkin əməllərindən əl çəkmir, hətta Azərbaycanı təxribatlara çəkən oyunlarla oynayırdı.

Hakimiyyət dəyişikliyindən sonra baş nazir postuna oturan Nikol Paşinyan isə öncə Dağlıq Qarabağ münaqişəsinin sülhlə həlli istiqamətində addımlar atacağı ilə bağlı fikirlər səsləndirsə də, bir müddət sonra Koçaryan-Sarkisyan rejiminin "siyasi xəttini" davam etdirməyə başladı. Hətta "Qarabağ Ermənistandır" sərsəm fikrini səsləndirib, qədim qalamız olan Şuşada Azərbaycan xalqını təhqir edən hərəkətlərlə səbir kasamızı daşdırdı.

Sentyabrın 27-də Ermənistan silahlı birləşmələri bütün cəbhəboyu ərazilərdə yenidən təxribata əl atdı. Ali Baş Komandan isə illərlə gözlənilən hücum əmrini verdi və Vətən savaşı başladı.

Xalqa müraciətində Ali Baş Komandan bəyan etdi ki, biz öz torpaqlarımızda vuruşuruq, erməni əsgəri Azərbaycan torpaqlarını tərk etməyincə əməliyyatlar dayanmayacaq. Sülh danışıqları isə o zaman başlaya bilər ki, Ermənistan rəhbərliyi ordusunun torpaqlarımızdan nə zaman çıxması ilə bağlı Azərbaycana təqvim planı təqdim etsin. Əks təqdirdə düşmən məhv ediləcək.

Ali Baş Komandanın xalqa müraciətindəki mətinlik, qətiyyət onu göstərdi ki, cənab İlham Əliyev güclü ordusuna və arxasında dayanan Azərbaycan xalqına güvənir. Xalq isə hər zaman olduğu kimi, öz liderinə arxalanır və qələbə müjdəsini səbirsizliklə gözləyirdi ki, bu da çox çəkmədi.

Müzəffər Komandanın "dəmir yumruq" əməliyyatını uğurla icra edən Azərbaycan Ordusu cəmi 44 günə düşməni diz çökdürdü. Azərbaycan Ordusunun hər döyüşü qəhrəmanlıq dastanına çevrildi. İgid Azərbaycan oğulları şərəfləri ilə ən böyük tariximizi yazdılar, qanları, canları bahasına, heç nədən qorxmadan, çəkinmədən, ölümün gözünə dik baxaraq xalqın 30 illik həsrətinə son qoydular.

Hər bir xalqın tarixində xilaskar rolunu oynayan Lider var. O Lider xalqının taleyüklü məsələsinin həllində xilaskarlıq missiyasını üzərinə götürüb cəsarət nümayiş etdirir və adını əbədi olaraq dövlətinin şanlı tarixinə yazdırır. Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, xalqın 30 illik həsrətinə son qoyan Ali Baş Komandan İlham Əliyev məhz həmin liderlərdən biridir. Çünki məhz İlham Əliyevin Sərkərdəliyi ilə çoxlarının qeyri-mümkün hesab etdiyi Qarabağ münaqişəsi cəmi 44 günə həll olundu. Uzun illər dünya dövlətlərinin əksəriyyətinin himayə etdiyi işğalçı Ermənistan İlham Əliyevin hərbi-siyasi diplomatiyası qarşısında diz çökdü.

Məhz cənab İlham Əliyevin diplomatik məharətinin nəticəsində Ermənistan illərlə möhkəmləndiyi, "keçilməz" istehkamlar qurduğu Ağdamı, Laçını, Kəlbəcəri bir güllə atılmadan Azərbaycana qaytardı. Bu, Ali Baş Komandan və qətiyyətli Lider prinsipiallığının, cəsarətinin təntənəsi idi.

Şanlı Zəfərlə cənab İlham Əliyev hər bir azərbaycanlının qəlbində əbədi heykəlini ucaltdı və bir daha alternativsiz Lider olduğunu isbatladı.

Qarabağı "dəmir yumruq"la azad edən Ali Baş Komandan bu gün dəmir iradə ilə qədim yurdumuzu yenidən qurur. Bütün şəhər və qəsəbələrin, rayonların, kəndlərin baş planını təsdiq edir və aparılan tikinti-quruculuq işləri ilə şəxsən maraqlanır. İşğaldan azad edilən ərazilərimizə Qalib Sərkərdə kimi səfər edərək düşmənə gözdağı verir.

Bu gün Azərbaycan xalqı ona görə xoşbəxtdir ki, dahi şəxsiyyət Heydər Əliyev özünün qurub-yaratdığı şah əsəri olan müstəqil respublikamızın taleyini öz məktəbinin layiqli davamçısı cənab İlham Əliyevə əmanət edib. Heydər Əliyev dühasından bəhrələnərək onun siyasi kursunu 18 ildir ki, ləyaqətlə davam etdirən Prezident İlham Əliyevin dövlətçilik bacarığı və rəhbərlik qabiliyyəti sayəsində bu gün müstəqil Azərbaycan daha möhtəşəm gələcəyə doğru addımlayır.

*Üç gündən sonra Azərbaycan dövləti müstəqilliyinin bərpasının 30-cu ildönümünü qeyd edəcək. İlk dəfə olaraq bu bayramı alnımız açıq, başımız dik, iftixarla yaşayacağıq. Çünki müstəqilliyimiz tarixində heç vaxt indiki kimi güclü, qüdrətli və istiqrarlı olmamışıq.*

***Səttar MÖHBALIYEV,***
***Milli Məclisin deputatı,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***




# Tarixin ən qüdrətli Azərbaycanının və möhtəşəm Zəfərin müəllifi





# Azərbaycanı qüdrətli və qalib dövlətə çevirən Lider



Bu gün İlham Əliyevin ilk dəfə prezident seçkilərində qələbə qazanmasından 18 il ötür. 2003-cü ilin 15 oktyabrında keçirilən seçkilərdə xalqımız İlham Əliyevə birmənalı etimad göstərməklə, Azərbaycanı uğurlara aparan inkişaf siyasətinə, Heydər Əliyev ideyalarının davamına səs verdi.

Milli Məclisin deputatlarının fikirləri də bu barədədir.

## Yüksəliş və zəfərimizin müəllifi

**Novruzəli ASLANOV,**
*Milli Məclisin deputatı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti:*

- Dövlət müstəqilliyimizin bərpasının 30-cu ildönümünün astanasındayıq. 30 ildə Azərbaycan xalqı bir çox tarixi hadisələrlə üzləşdi, bu günümüzə gələn yolda enişlərdən, yoxuşlardan keçməli oldu. Hətta tale elə gətirdi ki, müstəqilliyimizin ilkin çağlarında onu itirmək təhlükəsi qarşısında qalmışdıq. Lakin bu gün dönüb geri baxanda görürük ki, 30 ildə qazandığımız uğurlar və keçdiyimiz yüksəliş yolu, habelə müstəqilliyimizin ilk illərində yaranmış təbəddülatlardan xilas olmaq üçün göstərdiyimiz milli mücadilə də tariximizin qürur doğuran səhifələridir.

1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi hər birimizi sevindirmiş, qürurlandırmışdı. Çünki artıq bir xalq olaraq müstəqil dövlətimizə sahib olmuşduq, azadlığımızı əldə etmişdik. Bununla belə ilk illərdə respublikamızda baş verən hadisələr, siyasi hərc-mərclik, hərbi-siyasi qarşıdurmanın pik həddə çatması və bunun nəticəsi olaraq separatizmin güclənməsi nəinki müstəqilliyimizin yaşamasını, hətta dövlətçiliyimizin mövcudluğunu sual qarşısında qoymuşdu. Yalnız 1993-cü ilin iyun ayında təcrübəli siyasətçi, bacarıqlı dövlət xadimi Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ilə ölkədəki hərc-mərcliyə, vətəndaş qarşıdurmasına son qoyuldu, müstəqilliyimiz qorundu. Ulu Öndər çox böyük real təhlükələrin qarşısını alaraq qurtuluş missiyasını cəsarətlə öz üzərinə götürdü və dövlətini real yox olmaq təhlükəsindən xilas etdi.

Dövlətçiliyimizin və müstəqilliyimizin ağır sınaq dövrü olan 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqımızın istək və tələbi ilə hakimiyyətə gəlişindən sonra baş verən dəyişikliklər mahiyyətcə Azərbaycanın tarixində tamamilə yeni mərhələnin başlanması idi. Bu mərhələdə artıq müstəqilliyimizə və respublikamızın parçalanmasına yaranmış təhdidlər geridə qaldı, hüquqi və demokratik dövlət quruculuğunun təməli qoyuldu. Heydər Əliyevin başlatdığı yeni siyasi kurs qısa zamanda yaranmış bütün təhlükələri aradan qaldırmaqla müstəqilliyimizin əbədi olmasını, Azərbaycanın beynəlxalq münasibətlər sistemində özünə layiqli yer tutmasını, sosial-iqtisadi tənəzzülə son qoyulmasını və inkişafı təmin etdi. Və həm də təsdiq olundu ki, müstəqilliyi qoruyub saxlamaq onu bərpa etməkdən qat-qat çətindir.

Heydər Əliyev şəxsiyyətinin böyüklüyü həm də onda idi ki, o, dövlət quruculuğu prosesinin ardıcıllığını təmin edəcək əsasları da formalaşdırdı. Ulu Öndər cənab İlham Əliyevin şəxsində Azərbaycanın yüksəlişinin daimiliyini, dönməzliyini təmin edəcək layiqli davamçısını müəyyənləşdirdi. Cənab İlham Əliyevin ilk dəfə Azərbaycan Prezidenti seçilməsinin və bütövlükdə dövlətimizə rəhbərliyinin 18-ci ili tamam olur.

Xalqımız hər zaman sabitliyə tərəfdar olub, inkişafa, yüksək sosial rifaha və güclü dövlətçiliyə xidmət edən Heydər Əliyev siyasətini dəstəkləyib. Bütün bunlar isə Ulu Öndərin siyasi kursunun ən layiqli davamçısı olan cənab İlham Əliyevin həyata keçirdiyi prezidentlik fəaliyyətinin əsas prioritetləri kimi hər zaman özünü göstərib. Azərbaycan İlham Əliyevin rəhbərliyi altında 18 ildə yüksəliş dövrünü yaşayıb, daha da güclənib, qüdrətlənib, nüfuzunu artırıb. Heydər Əliyev siyasətini uğurla, yaradıcılıqla davam etdirən Prezident İlham Əliyev Azərbaycanın müstəqilliyini daha da sarsılmaz edib, milli mənafelərimizi qətiyyətlə qoruyub. Reallıq ondan ibarətdir ki, 2003-cü ilin oktyabrından ötən dövr Prezident İlham Əliyevin xalqımıza verdiyi uğur hesabatıdır. Bu hesabatın hər bir səhifəsi məhz xalqımızın görmək istədiyi nailiyyətlərlə əlamətdardır.

Ötən 18 ilin əsas uğurlarından biri ölkəmizin sosial-iqtisadi yüksəlişi, bölgələrin inkişafının təmin edilməsidir. Bu dövrün təhlili göstərir ki, qarşıya qoyulmuş vəzifələrin icrası nəticəsində Azərbaycan iqtisadiyyatının, xüsusən qeyri-neft sektorunun inkişafı təmin edilib, ölkəmiz regional əhəmiyyətli iqtisadi güc mərkəzinə çevrilib. İslahatların, dövlət proqramlarının real nəticəsi olaraq Azərbaycanın dörd bir yerində iqtisadiyyatın bir vaxtlar hətta əlçatmaz görünən tərəfləri inkişaf edib.

Möhtərəm İlham Əliyevin yürütdüyü siyasətin nəticəsi olaraq Azərbaycan beynəlxalq mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirib. Regionda lider olan dövlətimiz həm də beynəlxalq enerji təhlükəsizliyinin və qlobal logistik rəqabətin söz sahiblərindən biridir. Cənab İlham Əliyev həm də Azərbaycanı kosmik kluba üzv edib.

Dövlət başçısı tamamilə müstəqil və eyni zamanda qətiyyətli siyasət yürüdür. Məhz bu siyasətin nəticəsidir ki, Azərbaycan bir neçə il əvvəl BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi fəaliyyət göstərib, bu gün isə dünyanın ikinci ən böyük beynəlxalq təşkilatı olan Qoşulmama Hərəkatına sədrlik edir. Eyni zamanda Xəzərin neft-qaz ehtiyatlarının tarixdə ilk dəfə olaraq alternativ marşrutlarla dünya bazarlarına çıxarılması, Bakıdan Avropaya qədər enerji dəhlizinin yaradılması möhtərəm İlham Əliyevin müstəqil və qətiyyətli siyasətinin təcəssümüdür.

Əlbəttə, cənab İlham Əliyevin prezidentlik fəaliyyətinin ən mühüm hadisəsi işğal altında olan torpaqlarımızın azad edilməsi oldu. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı kimi İlham Əliyevin bu sahədəki fəaliyyətində diqqəti çəkən odur ki, dövlət başçısı ilk gündən Azərbaycanın milli maraqlarını qətiyyətlə təmin etdi. İlham Əliyev açıq siyasət yürüdən dövlət xadimidir və təsadüfi deyil ki, prezidentlik fəaliyyətinin ilk günündən Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin qurulmayacağını bəyan etdi. İlham Əliyev heç vaxt gizlətmədi ki, sülh danışıqları baş tutmayacağı təqdirdə Azərbaycan güc yolu ilə torpaqlarını azad edəcək və bu məqsədlə ordumuzun modernləşdirilməsi, döyüş qabiliyyətinin artırılması istiqamətində kompleks tədbirlərin görülməsinə nail oldu. Azərbaycan xalqı da əmin idi və inanırdı ki, verdiyi bütün vədləri layiqincə yerinə yetirən Prezident İlham Əliyev torpaqlarımızı da hansı yolla olursa-olsun işğaldan azad edəcək. Bu əminliyi və inamı daha da artıran Prezident İlham Əliyevin qətiyyətli siyasəti və dövlətimizin yüksəlişi idi.

Beləliklə, ötən ilin Vətən müharibəsində qazanılan tarixi Zəfər möhtərəm İlham Əliyevin prezidentlik fəaliyyətinin və bütövlükdə müstəqilliyimizin əsas uğur salnaməsinə çevrildi. Bu Qələbə İlham Əliyevin müdrik siyasi kursunun və Ali Baş Komandan kimi qətiyyətinin təntənəsi oldu. Cəmi 44 günə 30 ilə yaxın davam edən işğala son qoymaqla İlham Əliyev böyük bir tarixi missiyanı layiqincə yerinə yetirdi, məğlubiyyət damğasını üzərimizdən götürdü.

İndi Qarabağ və Şərqi Zəngəzur tikinti meydanını xatırladır. Bu torpaqları xilas edən İlham Əliyev onları yenidən həyata qaytarır və keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdacaqları gün uzaqda deyil. Dövlətimizi isə qarşıda yeni uğurlar gözləyir və bu yolda bütün xalqımız öz rəhbərinin ətrafında sıx səfərbər olub.

## Güclü dövlətçiliyimizin və etibarlı gələcəyimizin alternativsiz təminatçısı

**Könül NURULLAYEVA,**
*Milli Məclisin deputatı:*

- Dövlətlərin və xalqların taleyində güclü lider amili bütün bəşər tarixi boyu əsas siyasi faktor kimi çıxış edib. Quruluşundan, idarəetməsindən, coğrafi yerləşməsindən, milli və dini kimliyindən asılı olmayaraq hər bir dövlətin yaranmasında, yüksəlişində, habelə dövlətçiliyin və onun ənənələrinin formalaşmasında liderlərin tarixi rolu həmişə özünü göstərib. Müstəqilliyinin bərpasının 30-cu ildönümünü yaşayan respublikamızın 1993-cü ildən sonra yazılan tarixi də bunu təsdiq edir.

Görkəmli dövlət xadimi, dahi siyasətçi və böyük şəxsiyyət kimi Heydər Əliyev 1993-cü ildə müstəqilliyimizi itirilmək təhlükəsindən xilas etdi, Azərbaycanı inkişaf yoluna çıxardı. Ədalətsizliyin baş alıb getdiyi, gücün və hegemonluğun rol oynadığı müasir dünya nizamında Ulu Öndər dövlətçiliyimizi qorudu, möhkəmləndirdi, Azərbaycanı beynəlxalq münasibətlərin bərabərhüquqlu üzvünə çevirdi, xalqımızın rifahını və respublikamızın yüksəlişini təmin etdi.

2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına müraciət edən Ümummilli Lider Heydər Əliyev deyirdi: *"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".*

Ulu Öndərin ruhu bu gün şaddır. Çünki onun ideyalarının davamçısı və layiqli siyasi varisi kimi Prezident İlham Əliyev nəinki Azərbaycanı tarixdə görünməmiş yüksəliş mərhələsinə çıxarıb, hətta xalqımızın taleyüklü məsələlərini lider qətiyyəti ilə yoluna qoyub.

Bu gün cənab İlham Əliyevin ilk dəfə Azərbaycan Prezidenti seçilməsinin 18-ci ili tamam olur. Ötən 18 il dövlətimiz və xalqımız üçün olduqca möhtəşəm uğurlarla zəngindir. Bu baxımdan ötən 18 ilin ən böyük tarixi həqiqəti ondan ibarətdir ki, 2003-cü ilin oktyabr ayının 15-də xalqımız Heydər Əliyev ideyalarının davamına səs verməklə özünün müdrik seçimini etmiş, Azərbaycanın inkişafına və daha qüdrətli dövlətə çevrilməsinə xidmət edən siyasi kursa etimad göstərmişdir.

Azərbaycanın sosial-iqtisadi nailiyyətləri, dünyanı bürüyən iqtisadi böhranlardan uğurla çıxması, qlobal enerji təhlükəsizliyi məsələlərində aparıcı mövqe əldə etməsi, beynəlxalq tranzit qovşağına çevrilməsi, Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin ardınca Bakı-Tbilisi-Qars və "Cənub qaz dəhlizi" layihələrinin reallaşması, fəzaya 3 peykin göndərilməsi, habelə respublikamızın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, Bakının beynəlxalq tədbirlər məkanına çevrilməsi, "Avroviziya" musiqi, I Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunları kimi mötəbər idman yarışlarına evsahibliyi, ölkəmizin Qoşulmama Hərəkatına hazırda davam edən sədrliyi Prezident İlham Əliyevin rəhbərliyinin geridə qalan 18 ilinin mühüm beynəlxalq uğurlarıdır. Dünyanın ən nüfuzlu siyasi liderləri ilə birgə adı çəkilən Prezident İlham Əliyevin siyasi kursu Azərbaycanın qüdrətli dövlətə, regionda və dünyada söz sahibinə çevrilməsini təmin edib.

Ötən 18 ilin ən böyük reallığı və tarixi hadisəsi isə əlbəttə ki, 30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad edilməsi oldu. Bu illər ərzində cənab İlham Əliyevin həyata keçirdiyi inkişaf siyasəti və mütərəqqi idarəçiliyi torpaqlarımızın azadlığına aparan tarixi yola çevrildi. Bu yol Ermənistanın işğal siyasətinə son qoymaq üçün tarixi şəraiti yetişdirdi. Ötən il sentyabrın 27-dən noyabrın 10-dək davam edən 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi ilə Prezident, Ali Baş Komandan İlham Əliyev həm də dövlətimiz və xalqımız üçün olduqca mühüm və tarixi vəzifəni qətiyyətlə, şərəflə, layiqincə yerinə yetirdi. Möhtərəm İlham Əliyevin təmin etdiyi bu qələbəyə görə indi dövlətimizin başı uca, xalqımızın alnı açıqdır.

Bütövlükdə, ötən 18 ildə cəmiyyət həyatında baş verən hər bir keyfiyyət dəyişikliyi, nail olduğumuz hər bir uğur göstərir ki, Prezident İlham Əliyevin dövlət rəhbəri kimi missiyası yalnız və yalnız dövlətə və xalqa xidmət məramı üzərində formalaşıb. Vətənpərvərlik və dövlətçilik prinsiplərinə köklənmiş bu missiyanın nəticəsidir ki, Azərbaycan bir dövlət olaraq tarixinin ən qüdrətli dövrünü yaşayır. Xalqımız bundan sonra da dövlətimizə yüksəliş nəsib edən və zəfər yaşadan bu siyasətə etimad göstərəcək, cənab İlham Əliyevin ətrafında daha sıx birləşərək sarsılmaz milli həmrəylik nümayiş etdirəcək. Çünki Heydər Əliyev yolu və İlham Əliyev siyasi kursu güclü dövlətçiliyimizin və etibarlı gələcəyimizin alternativsiz təminatçısıdır.

## Azərbaycanı ucaldan Lider

**Müşfiq MƏMMƏDLİ,**
*Milli Məclisin deputatı:*

- Bu gün cənab İlham Əliyevin ilk dəfə Azərbaycan Prezidenti seçilməsindən 18 il ötür. 2003-cü ilin bu tarixində keçirilən seçkilərdə xalqımız öz müdrik seçimini edərək dövlətçiliyimizin xilasını, müstəqilliyimizin möhkəmləndirilməsini və respublikamızın yüksəlişini təmin edən siyasi kursa, Heydər Əliyevin ideyalarının davamına səs verdi.

Ölkə rəhbərliyinə başladığı ilk gündən sözlə əməlin vəhdət nümunəsini yaradan Prezident İlham Əliyev bütün fəaliyyətini yalnız və yalnız respublikamızın yüksəlişinə, beynəlxalq birlikdə öz mövqelərini möhkəmləndirməsinə, iqtisadi və hərbi cəhətdən qüdrətlənməsinə, əhalinin sosial rifahının yüksəldilməsinə həsr etməkdədir. Bu baxımdan ötən 18 ilin reallıqları göstərir ki, cənab İlham Əliyev xalqımızın Ümummilli Lideri Heydər Əliyevin memarı və qurucusu olduğu dövlətimizi daha da ucaldan bir rəhbər kimi prezidentlik missiyasını layiqincə həyata keçirir.

Ötən 18 il ən möhtəşəm uğurlarla zəngindir. Qürur hissi ilə qeyd edəcəyimiz uğurlarımızdan biri bu günlərdə bərpasının 30-cu ili tamam olacaq dövlət müstəqilliyimizin və onun əsaslarının daha da güclənmdirilməsidir. İlham Əliyevin yürütdüyü uzaqgörən və düşünülmüş siyasət, qlobal enerji təhlükəsizliyi ilə bağlı ortaya qoyulan qətiyyətli və aydın mövqe, enerji və nəqliyyat layihələrinin uğurla reallaşması və iqtisadi yüksəlişimiz bütün məziyyətləri ilə yanaşı, həm də müstəqilliyimizin əsaslarını daha da möhkəmləndirib.

2020-ci ildə İkinci Qarabağ müharibəsində Ermənistanın üzərində qazanılan hərbi və diplomatik Qələbə isə həm İlham Əliyevin prezidentlik fəaliyyətinin, həm də müstəqilliyimizin ən möhtəşəm hadisəsidir. Ona görə də bu qələbə cənab İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətinin şərəf salnaməsi olmaqla yanaşı, müstəqilliyimizin və bütövlükdə dövlətçilik tariximizin yeni qəhrəmanlıq səhifəsinə çevrildi.

Bu Qələbədən sonra gördük ki, Prezident İlham Əliyev dövlət başçısı kimi fəaliyyətinin ilk günündən torpaqlarımızı işğaldan azad etmək üçün kompleks şəkildə fəaliyyət nümunəsi ortaya qoyub. Uğurlu enerji siyasəti nəticəsində respublikamızın artan maliyyə imkanları səmərəli şəkildə bütün sahələrin inkişafına, o cümlədən böyük uzaqgörənliklə ordumuzun gücləndirilməsinə yönəldildi. Vətən müharibəsində Azərbaycan Ordusunun nümayiş etdirdiyi üstünlük və modern döyüş taktikası Prezident İlham Əliyevin hərbi quruculuq xəttinin təcəssümü oldu. Onu da qeyd edim ki, bu müharibədə dövlətimiz döyüşlərdə yaralanan hərbçilərimizin müalicəsi baxımından heç bir problem yaşamadı. Çünki 18 ildə ölkəmizin tibb sistemi ən müasir standartlar səviyyəsinə çatdırılıb, səhiyyənin maddi-texniki bazası möhkəmləndirilib, bilikli, bacarıqlı həkim korpusu formalaşıb.

Prezident İlham Əliyevin siyasi kursunun ən böyük özəlliklərindən biri milli birliyimizin daha da möhkəmləndirilməsi və xalqımızın öz rəhbəri ətrafında sıx birləşməsidir. Bütün prezident seçkilərinin nəticələri də bunu təsdiq edir. Bu həmrəylik və xalqımızın öz rəhbərinə inamı Vətən müharibəsi günlərində də təsdiqini tapdı. Beləliklə, İlham Əliyevin prezidentlik fəaliyyətinin bütün uğurları Vətən müharibəsində qazandığımız tarixi Zəfərin əsasını təşkil etdi.

Cənab İlham Əliyevin prezidentlik fəaliyyətinin 18-ci ilinin tamamında regionumuzda tamamilə fərqli geosiyasi və geostrateji reallıqlar hökm sürür. Yəni artıq torpaqlarımız işğaldan azaddır və Azərbaycan Cənubi Qafqazın şəriksiz lideri kimi öz mövqelərini daha da möhkəmləndirib. Odur ki, müstəqilliyimizin bərpasının 30-cu ildönümünü də tamamilə başqa, olduqca yüksək ab-havada qarşılayırıq. Bu reallıqların və qələbəmizin yaratdığı məğrur əhvali-ruhiyyəmizin müəllifi isə Prezident İlham Əliyevdir. Tanrı Prezidentimizi, dövlətimizi və xalqımızı hifz etsin!

## Qalib Azərbaycanın Müzəffər Sərkərdəsi

**Səbinə XASAYEVA,**
*Milli Məclisin deputatı:*

- Ulu Öndər Heydər Əliyev 2003-cü il 1 oktyabr müraciətində xalqımızı siyasi varisi İlham Əliyevi dəstəkləməyə çağıraraq demişdi: "Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Xalq bu etimadı böyük sevgiylə qarşıladı. Ulu Öndərin inamı xalqın inamı oldu. 2003-cü ilin 15 oktyabrında keçirilən Prezident seçkilərində seçicilərin 76 faizdən çoxu İlham Əliyevə səs verdi. Cənab İlham Əliyevə səs verən xalq əmin idi ki, bu səs Azərbaycan dövlətçiliyinə verilir, Azərbaycanın sabahlarına verilir. Xalqın bu münasibəti həm də Ümummilli Liderə sevgisinin təzahürü idi.

Prezident İlham Əliyev ilk gündən respublikamızın iqtisadiyyatında qeyri-neft sektorunun çəkisinin artırılması ilə bağlı davamlı tədbirlər gördü. Nəhəng infrastruktur layihələri həyata keçirildi. Azərbaycanda nəqliyyat sisteminin yenidən qurulması ölkəmizin dünyaya çıxışını təmin etdi. Olimpiya idman komplekslərinin inşası gənc nəslin sağlamlığının təmin edilməsinə, yüzlərlə səhiyyə ocağının, müalicə-diaqnostika mərkəzinin inşası səhiyyə sisteminin inkişafına, minlərlə məktəb tikilməsi, təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi təhsilin daha yüksək səviyyədə qurulmasına mühüm töhfələr verdi.

Prezident İlham Əliyev həmişə qətiyyətlə bildirirdi ki, Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verilməyəcək. Dövlət başçısının "Qarabağ Azərbaycandır!" qətiyyəti beynəlxalq miqyasda strateji mesaja çevrilmişdi. Həmişə bəyan olunurdu ki, istənilən yolla torpaqlarımız işğaldan azad olunacaq. Ona görə Azərbaycanda ordu quruculuğu həmişə prioritet olub. Müxtəlif təyinatlı və miqyaslı təlimlər ordunun şəxsi heyətinin döyüş hazırlığını, müxtəlif istiqamətli tədbirlər onun döyüş qabiliyyətini daha da artırıb.

Azərbaycan Ordusu Vətən müharibəsindən əvvəl dünyanın ən güclü 50 ordusu sırasındadır. Bu səviyyəyə Azərbaycan dövlətçiliyi ilə Azərbaycanda ordu quruculuğu arasında yaradılmış üzvi, ayrılmaz bağlılıqla, cənab İlham Əliyevin apardığı daxili siyasətlə, Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində ardıcıl tədbirlərin görülməsi ilə nail olunub.

Ermənistanın silahlı birləşmələri 2020-ci il sentyabrın 27-də müxtəlif istiqamətlərdən hücuma başladı. Azərbaycan Ordusunun hissələri hücumun qarşısını qətiyyətlə aldı. İşğalçıya, işğalçılığa qarşı əks-hücum əməliyyatı həyata keçirdi. Prezident İlham Əliyev Vətən müharibəsinin mahiyyətini dünyanın diqqətinə çatdırdı: "Bizim davamız ədalətli davadır və əminəm ki, bu müharibədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək".

Ali Baş Komandanın sərkərdəliyi ilə Vətən müharibəsi azərbaycançılığın erməniliklə müharibəsi idi. Azərbaycan Ordusu düşmənin illərlə yaratdığı, möhkəmlətdiyi, yeniləşdirdiyi güclü müdafiə sistemini, sədləri qısa müddətdə darmadağın etdi. Qazanılan ilkin qələbələr təsdiqlədi ki, Azərbaycan Ordusu Ali Baş Komandanın sərkərdəliyi ilə işğalı sona çatdıracaq, torpaqlarımızı azad edəcək.

Vətən müharibəsində xalq Prezidentin ətrafında sıx birləşdi. Bu, xalqın Prezidentinə, Vətənə, dövlətə, dövlətçiliyə sevgisinin nəticəsi idi. Cəmi 44 günə torpaqlarımız işğaldan azad edildi. Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciətində dedi: "...Deyirdim ki, əgər bu, danışıqlar yolu ilə mümkün olmayacaqsa, məsələni hərbi yolla həll edəcəyik. Belə də oldu. Uzun illər davam edən danışıqlar heç bir nəticə vermədi və Azərbaycan öz ərazi bütövlüyünü, tarixi ədaləti, beynəlxalq hüququ döyüş meydanında təmin etmişdir..."

Ordu quruculuğu məsələlərinin dövlət siyasətinin prioriteti kimi müəyyən olunması illər sonra öz müsbət nəticəsini göstərdi və Azərbaycan xalqı tarixi ədaləti bərpa etdi. 2003-cü ildən etibarən Azərbaycanda ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, Silahlı Qüvvələrin hərbi hazırlıq səviyyəsinin artırılması ilə bağlı görülən işlər Qarabağ münaqişəsinin həlli istiqamətində bu və ya digər beynəlxalq təşkilatda yaranan təəssüratları darmadağın etdi. Azərbaycan Vətən müharibəsində qazanılan Zəfərlə qalib dövlət oldu.

Cənab İlham Əliyevin sərəncamları, dövlətimizin və xalqımızın gücü ilə işğaldan azad edilmiş ərazilərdə quruculuq işləri başlayıb. 11 ay ərzində görülən işlər hər birimizdə qürur hissi doğurur. Qarabağa və Şərqi Zəngəzura qayıdış Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə azərbaycançılığın ermənilik üzərində qəti qələbəsi olacaq!

***"Azərbaycan"***




## Tarixin ən qüdrətli Azərbaycanının və möhtəşəm Zəfərin müəllifi







# Lider dövlətin Lideri

Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixinin ən parlaq səhifələri və həlledici məqamları məhz lider fenomeni və liderlik amili ilə əlaqədardır. XX əsrdə ikinci dəfə müstəqillik əldə edən Azərbaycan dövləti xalqımızın Ümummilli Lideri Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi sayəsində xaos və tənəzzüldən xilas olaraq tərəqqi yoluna qədəm qoyub.

Ulu Öndərin xalqımız qarşısında müstəsna xidmətlərindən biri isə siyasi varisliyin təmin edilməsidir. 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına ünvanladığı tarixi müraciətdə *"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm"* deyən Ümummilli Lider Heydər Əliyevin inamı özünü doğrultdu, 15 oktyabr 2003-cü il tarixində xalqın cənab İlham Əliyevə böyük etimadı nəticəsində dövlətçilik tariximizin yeni və möhtəşəm mərhələsinin əsası qoyuldu.

## Bütün vədlərinə sadiq olan və xalqın etimadını doğruldan Lider

Cənab İlham Əliyev 31 oktyabr 2003-cü il tarixdə keçirilən andiçmə mərasimindəki nitqində *"Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır"*, - deyə bildirmişdi. İlham Əliyev 2003-cü ildə prezident seçildikdən sonra verdiyi bütün vədlərə əməl edib, Azərbaycanı güclü və qüdrətli dövlətə çevirib.

Bu isə xalqın Prezident İlham Əliyevə inamını və güvənini daha da artırıb. Azərbaycan xalqı həm də onunla qürur duyur ki, dünya miqyasında nüfuzlu siyasətçi olan cənab İlham Əliyev öz fəaliyyəti ilə Azərbaycanın təkcə sürətli inkişafını təmin etməyib. Onun ideyaları, əməli fəaliyyəti həm də bəşəriyyətin inkişafına vacib töhfələr verib. Bu gün Prezident İlham Əliyevin rəhbərlik etdiyi qüdrətli Azərbaycan beynəlxalq əməkdaşlığın inkişafında, dünya miqyasında təhlükəsizliyin təmin olunmasında çox əhəmiyyətli rol oynayır. Xüsusi vurğulamaq gərəkdir ki, cənab İlham Əliyevin həyata keçirdiyi siyasət ölkəmizin müasirləşməsini, respublikamızın simasının əsaslı dərəcədə dəyişməsini, dünya birliyinin layiqli üzvünə çevrilməsini təmin edib.

Bu gün Azərbaycanın müxtəlif sahələrdə təcrübəsi hətta inkişaf etmiş ölkələr üçün nümunə göstərilir. Genişmiqyaslı islahatların aparılması, idarəetmənin səmərəliliyinin artırılması və digər mühüm addımlar Azərbaycanın uzunmüddətli inkişafını təmin edir. Beləliklə, Azərbaycan ötən 18 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük inkişaf yolu keçib, bütün sahələrdə yüksək nailiyyətlər əldə edilib. Azərbaycan inkişafın milli modelini yaradıb.

## Çoxəsrlik dövlətçilik tarixinin ən qüdrətli Azərbaycanı

Dövlət başçısının bütün sahələri əhatə edən uğurlu strateji fəaliyyətinin nəticələri ilə əlaqədar bir sıra məqamlara xüsusi diqqət yetirmək lazımdır. Bunlardan biri Azərbaycanın sabitlik adasına və təhlükəsizlik məkanına çevrilməsidir. Nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycandakı təhlükəsizlik mühitini çox yüksək qiymətləndirirlər. Ölkəmizdə müxtəlif xalqların nümayəndələri sülh, əmin-amanlıq şəraitində mehriban birgəyaşayışa malikdirlər. Digər məsələ milli maraqlara əsaslanan praqmatik və çoxverktorlu xarici siyasətin həyata keçirilməsi, Azərbaycanın qlobal siyasi arenada mövqeyinin möhkəmlənməsinə nail olmaqdır.

Bu gün Azərbaycan dünyada etibarlı tərəfdaş, nüfuzlu dövlət kimi tanınır. Azərbaycan 155 ölkənin dəstəyi ilə 2011-ci ildə BMT Təhlükəsizlik Şurasına üzv seçilib, 2014-cü ildə Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik edib, Qoşulmama Hərəkatına sədrliyi uğurla davam etdirir. Bununla yanaşı, Azərbaycanın həmrəyliyə və əməkdaşlığa xidmət edən təşəbbüslərinin beynəlxalq arenada yüksək qiymətləndirilməsi ölkəmizə, şəxsən Prezident İlham Əliyevə olan etimadın bariz nümunəsidir.

Ən mühüm məqam - zirvə hadisəsi isə Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olması, öz ərazi bütövlüyünü, tarixi ədaləti bərpa etməsidir. Bu, dövlətçilik tariximizin ən böyük uğurlarından və ən parlaq səhifələrindəndir. 31 oktyabr 2003-cü il tarixdə keçirilən andiçmə mərasimindəki nitqində *"Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcəkdir"* deyən cənab İlham Əliyevin rəhbərliyi ilə xalqımızın və dövlətimizin yeni şanlı tarixinin yazılması, torpaqlarımızın işğaldan azad edilməsi, ölkəmizin ərazi bütövlüyü və tarixi ədalətin bərpa olunması milli qürur mənbəyimizdir.

## Dünya azərbaycanlıları öz Liderinin ətrafında sıx birləşib

Bu gün müstəqil və qalib Azərbaycan Ulu Öndərin görmək istədiyi kimi güclüdür, əzəmətlidir və dünyada böyük nüfuz sahibidir. Prezident İlham Əliyevin siyasətinin nəticəsidir ki, çoxəsrlik tarixində heç vaxt indiki qədər qüdrətli olmayan Azərbaycan öz strateji hədəflərini ardıcıl olaraq reallaşdırır, dövlətimizin qüdrəti mütəmadi olaraq artır. Ona görə ki, Azərbaycan xalqı Prezident İlham Əliyevin ətrafında sıx birləşib. Dünya azərbaycanlıları Azərbaycanın gələcək inkişafının məhz Prezident İlham Əliyevin adı ilə bağlı olduğunu əminliklə vurğulayırlar. Xalq-iqtidar birliyi, güclü milli həmrəylik isə ölkəmizin bundan sonra da Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edəcəyini əminliklə söyləməyə imkan verir.

**_Siyavuş NOVRUZOV,_**
**_Milli Məclisin Regional məsələlər komitəsinin sədri_**

# Tarix yaradan şəxsiyyət

15 oktyabr Azərbaycanda 2003-cü il prezident seckiləri keçirilirdi. Müstəqilliyini möhkəmləndirən, iqtisadiyyatını qaldırmağa çalışan, eyni zamanda 20 faiz torpaqları işğal olunmuş, 1 milyondan çox vətəndaşı doğma yurd-yuvasından didərgin düşmüş, köksündə Qarabağ dağı gəzdirən bir xalq, beynəlxalq ədalətsizliklə üzləşmiş bir ölkə. Məhz belə bir məsuliyyətli dönəmdə Azərbaycan xalqı səhv edə bilməzdi və xalq doğru seçimini etdi - İlham Əliyev yekdilliklə Azərbaycan Prezidenti seçildi. Sonradan tarix yazacaq liderin vətən yüklü missiyası məhz həmin gün rəsmiləşdi.

## Heydər Əliyev: "Mən ona özüm kimi inanıram"

Milyonların səsini qazanan İlham Əliyev gərgin siyasi mübarizədə qalib gəldi, seçkilərin nəticələri beynəlxalq birlik tərəfindən tanındı. Xalqdan aldığı bu dəstək sonralar gənc liderin bütün uğurlu gedişlərinin əsasında dayanacaq, məhz xalqa arxalanan, xalq sevgisindən güc alan İlham Əliyev yaxın tarixin ən güclü və uğurlu lideri kimi yaddaşlara həkk olunacaq. O, hər liderə nəsib olmayan bir şücaət göstərib hərb salnaməsini yaratdı - döyüş meydanında düşməni məğlub etdi və qələbə qazandı. İlham Əliyevin prezidentlik dövrünü müxtəlif prizmalardan təhlil etmək olar, lakin Müzəffər Lider statusu onun qazandığı ən ali addır və şəxsiyyətin istənilən təsnifatı bu çərçivəyə sığmır.

Prezident İlham Əliyev böyük siyasətçinin ailəsində tərbiyə alıb, Ulu Öndər Heydər Əliyevin. Heydər Əliyev dühasının əzəməti təkcə dövrünün mahir siyasətçisi anlamı ilə bitmir. O, bütün varlığı ilə xalqa, dövlətə bağlı azərbaycanlı idi. İlham Əliyev kimi siyasətçini yetişdirməsi də onun xalq və dövlət qarşısında misilsiz xidmətidir. Qarabağ münaqişəsinin həlli İlham Əliyevin siyasi məharəti, dərin bilikləri, təcrübəsi, diplomatiyasının təntənəsi idi. Tarix üçün qısa zaman kəsiyində belə mürəkkəb problemi çözə bilməsi heyrət doğurur, bəziləri üçün mif qədər əlçatmaz olan bu uğurlu həll əslində İlham Əliyev şəxsiyyətinin siyasi istedadının sərhədsizliyini göstərir.

2003-cü il oktyabrın 1-də Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına müraciət edərək prezidentliyə namizədliyini siyasi varisi İlham Əliyevin xeyrinə geri götürdüyünü bildirdi: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Bu tarixi müraciət xalqın gələcək seçimini müəyyən etdi. 2003-cü ilin 15 oktyabr tarixində keçirilmiş seçkilərdə seçicilərin 76 faizdən çoxu İlham Əliyevə səs verdi. Heydər Əliyevin siyasi kursuna dəstəyin ifadəsi olan bu nəticə əslində Heydər Əliyev ideyalarının və siyasətinin davam etdirilməsinə, ölkədə sabitliyin qorunmasına və təhlükəsizliyin təmin olunmasına əminliyin göstəricisi idi. Azərbaycan xalqı sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi, ölkədə bu siyasətə alternativin olmadığını göstərdi.

2003-cü il 15 oktyabr Azərbaycan tarixində yeni siyasi eranın başlanğıcıdır. Prezident İlham Əliyev Azərbaycan dövlət idarəetmə sisteminə yeni davranış modeli, mütərəqqi, milli məqsədlərə xidmət edən, siyasi realizmə söykənən siyasi fəaliyyət nümunəsi gətirdi. İlham Əliyev öz fəaliyyəti və davranışı ilə siyasi münasibətlər sistemində, eləcə də cəmiyyətdə təkmil siyasi mədəniyyət, milli mənəviyyatımıza uyğun siyasi əxlaq normaları, siyasi etika nümunəsi təqdim etdi. Aparılan dövlət siyasətinin məntiqi nəticəsi olaraq Azərbaycanda müsbət mənada fərqli, özünəməxsus milli mədəniyyətimiz və mentalitetimizlə uyğunlaşan dəyər və yaşam tərzi formalaşıb. Məhz bu yanaşma sayəsində ölkəmizdə demokratiya siyasi istismar vasitəsi kimi deyil, cəmiyyətin harmoniyalı və bərabər inkişafına xidmət edən faktor kimi cıxış edir. Bu kontekstdə demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda əldə olunan nailiyyətlər xüsusilə diqqətəlayiqdir.

İnsan hüquq və azadlıqlarının təmin olunması istiqamətində görülən tədbirlər, siyasi plüralizm və çoxpartiyalı siyasi sistemin inkişafı demokratik cəmiyyətin formalaşması üçün möhkəm təməl yaradıb.

## İqtisadi, sosial, humanitar intibah

Son 18 il Azərbaycanın müstəqillik tarixində tərəqqi, yüksəliş, sürətlə müasirləşmə dövrü kimi yadda qalıb. Bu dövrdə ölkəmizin hərtərəfli inkişafı təmin edilib, bütün sektorlar üzrə qeydə alınan dinamika planlı iqtisadi, sosial, humanitar strategiyanın düzgün icrasının məntiqi nəticəsidir. Müxtəlif sektorlar üzrə əldə olunan bərabər yüksəliş iqtisadi möcüzənin və insan inkişafının əsas faktoru kimi cıxış edir. Son 18 il ərzində Azərbaycanda ümumi daxili məhsul 3 dəfə artıb. Bununla yanaşı, ölkəmizdə yoxsulluq son 18 il ərzində 49 faizdən 5 faizə enib. Qeyd olunan müddət ərzində Azərbaycanın iqtisadiyyatına 260 milyard dollardan çox sərmayə yatırılıb. Hazırda Azərbaycan iqtisadiyyatı Cənubi Qafqazın ümumi iqtisadiyyatının 70 faizini təşkil edir.

Azərbaycan Prezidentinin siyasətini səciyyələndirən əsas parametrlərdən biri də onun sosialyönümlü olmasıdır. Əhalinin bütün sosial qruplarına göstərilən diqqət və qayğı son nəticədə cəmiyyətdə məmnuniyyət yaradır, dövlət və vətəndaş münasibətlərində harmoniyanı təmin edir. Bu gün Azərbaycan vətəndaşı öz seçdiyi Prezidentinə inanır və daim onun dəstəyini hiss edir.

Azərbaycanın uğurlu xarici siyasət kursu əminliklə söyləməyə imkan verir ki, ölkəmiz dünyanın siyasi xəritəsində böyük nüfuz sahibidir. "Mənim sözüm imzam qədər qüvvətlidir" bəyan edən Prezident İlham Əliyev həm beynəlxalq siyasi müstəvidə, həm də iqtisadi sahədə öz qətiyyəti sayəsində bir sıra mühüm və həlli mürəkkəb layihələrin icrasına nail olub. Regional əhəmiyyətli təşəbbuslər qısa zaman kəsiyində beynəlxalq birliyin dəstəyini qazanaraq, coğrafiyasını genişləndirib. Bunların sırasında Bakı-Tbilisi-Qars dəmir yolu xətti, "Cənub qaz dəhlizi", "Şimal-Cənub" layihəsi xüsusi yer tutur. Uzun illər gündəmdə olan Qarabağ məsələsi üzrə dövlət diplomatiyasının uğurlu nəticəsi 21-ci əsrin tarixi zəfərinin qazanılmasında hüquqi təminat yaratdı.

Azərbaycana dost olan ölkələrin sayının durmadan artması, mövqeyimizin çoxluq tərəfindən dəstəklənməsi siyasi nüfüzumuzun artmasının göstəricisi olmaqla yanaşı, Prezident İlham Əliyevin siyasi addımlarının dəqiq və hədəfli olmasını da sərgiləyir.

COVID-19 pandemiyası ilə bağlı beynəlxalq tədbirlərin təşəbbüskarı kimi cıxış edən Azərbaycan Prezidenti 21-ci əsrin müasir liderlik modelini ortaya qoydu.

## Gənclər siyasəti dövlət siyasətinin prioritetlərindən biridir

Gənclər siyasəti Prezident İlham Əliyevin dövlət siyasətinin prioritetlərindən biridir. Cəmiyyətin hərəkətverici qüvvəsi olan gənclərin vətənpərvər ruhda tərbiyə olunması Azərbaycan liderinin dövlət idarəetmə kursunun uğurudur. Milli-mənəvi dəyərlərimizin layiqli daşıyıcısı olan gənclər Azərbaycan dövlətinin dinamik inkişafına mühüm töhfə verməkdədirlər. Prezident İlham Əliyevin arxasınca apardığı gənclik müasir, təhsilli, sağlam, dünyəvi düşüncəli, eyni zamanda mental köklərə bağlıdır. Gələcəyə inam və Vətənə məhəbbət hissi ilə tərbiyə almış Azərbaycan gəncləri dövlətin diqqət və qayğısı nəticəsində ölkənin ictimai-siyasi həyatında böyük rol oynayırlar. Gənclərin potensialının gerçəkləşməsinə, onların vətənpərvər, savadlı kadr kimi yetişməsinə istiqamətlənmiş addımlar dövlətin uzaqgörən siyasətinin göstəricisi kimi qiymətləndirilməlidir.

## Dünyanın 50 ən güclü ordusundan biri

Ərazisinin 20 faizi düşmən işğalı altında olan bir ölkənin lideri üçün müdafiə və təhlükəsizliyin təmin olunması ən ümdə vəzifədir, güclü orduya sahib olmaq isə hər liderin məqsədidir. Qarabağ kimi ağrılı problemi olan Azərbaycan hər an döyüşə hazır olmalı idi və güclü ordu tarixi ədalətin bərpa olunması və beynəlxalq hüququn təminatı üçün həyati əhəmiyyət kəsb edirdi. 2003-cü ildən etibarən ordu quruculuğu sahəsində görülmüş işlər sayəsində Azərbaycanda peşəkar silahlı qüvvələr formalaşdırıldı.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ordu quruculuğu sahəsində mükəmməl standartların tətbiqi, genişmiqyaslı və planlı addımlar, köklü islahatlar və yenidənqurma işləri nəticəsində Silahlı Qüvvələrimiz dünyanın ən güclü orduları sırasına daxil oldu. Azərbaycan Ordusu Cənubi Qafqaz regionunda ən güclü ordu olmaqla bərabər, dünyanın 50 ən güclü ordusundan da biridir.

Azərbaycan Silahlı Qüvvələri öz tarixi missiyasını şərəflə yerinə yetirərək 30 il Ermənistan tərəfindən işğal altında saxlanılan ərazilərimizi 44 gün ərzində düşməndən azad etdi.

Ulu Öndər Heydər Əliyev tərəfindən möhkəmləndirilən müstəqilliyimiz Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında əbədiyyətə çevrildi. Bu gün biz ən qürurlu tariximizi yaşayır, yaradırıq. İşğaldan azad edilən torpaqlarla Azərbaycan bütövləşdi, üçrəngli bayrağımız vətən torpağının hər qarışında qürurla dalğalandı.

Müstəqil Azərbaycanın zəfər salnaməsini yaratmış müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında dövlətimiz tarixin bütün sınaqlarından alnıaçıq çıxaraq işıqlı gələcəyini təmin edib. Xalqımız yeni üfüqlərin astanasındadir. Prezident İlham Əliyevin qətiyyəti, praqmatizmi, dövlət idarəçiliyi istedadı ilə qət edəcəyimiz yüksəkliklər bundan sonra da firavan gələcəyimizi təmin edəcək.

**_Sevil MİKAYILOVA,_**
**_Milli Məclisin deputatı_**




# Tarixin ən qüdrətli Azərbaycanının və möhtəşəm Zəfərin müəllifi





# Zəfərin rəmzi



*Əvvəli 1-ci səh.*

Azərbaycanı müstəqilliyinin yenidən bərpasından sonra ilk illərdə ölkəyə rəhbərlik edən şəxslərin idarəçilik qabiliyyətinin yoxluğu, siyasi savadsızlığı ucbatından yaşadığı faciələrdən, müstəqilliyini itirmək, bir dövlət olaraq dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən xilas edən Ulu Öndər Heydər Əliyevin hədəfləri açıqlayarkən təqdim etdiyi Azərbaycanın inkişaf modeli məhz hazırkı Azərbaycan idi. Bugünkü müstəqil Azərbaycan hazırda bütün sahələrdə təcrübəsi nümunə göstərilən, ən əsası, inkişaf modeli təqdir edilən Azərbaycandır.

Ümummilli Liderin həyata keçirdiyi dövlət quruculuğu siyasəti və inkişaf strategiyasının sayəsində təkmil siyasi sistemin, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin, siyasi mədəniyyətin əsası qoyulmuş, davamlı siyasi-hüquqi islahatlar reallaşdırılmış, milli həmrəyliyi və birliyi təmin edən ideologiya yaradılmışdır. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi, çoxpartiyalı sistemin təşəkkül tapması, ölkədə prezident, parlament, bələdiyyə seçkilərinin, ümumxalq səsverməsinin beynəlxalq standartlara uyğun keçirilməsi üçün Seçki Məcəlləsinin qəbul olunması, demokratik cəmiyyətin və hüquqi dövlətin əsas göstəricilərindən olan mətbuatın azadlığının təmin edilməsi məhz həmin dövrün reallıqları idi.

Ulu Öndər Heydər Əliyevin mudrik dövlətçilik siyasəti, təməlini qoyduğu demokratikləşmə prosesi 2003-cü ildən etibarən Prezident İlham Əliyevin rəhbərliyi altında dövrün, zamanın tələblərinə uyğun şəkildə təkmil islahatlar yolu ilə davam etdirilir. Cənab İlham Əliyevin 18 illik Prezidentlik dövrünə qısa nəzər salsaq görərik ki, dövlət quruculuğu yolunda ən mühüm amil olan ölkəmizin müasirliyi və qlobal təhlükələrdən qorunması təmin olundu. Azərbaycan sabitləşdirici faktor kimi beynəlxalq arenada mövqeyini möhkəmləndirdi. Belə ki, dünyada tolerant, multikultural dəyərlərin inkişafına böyük töhfələr verən Azərbaycan multikulturalizmi həyat tərzinə çevirərək beynəlxalq ictimaiyyətə birlik, həmrəylik, sülh, əməkdaşlıq mesajlarını ünvanladı. Dövlət başçısı İlham Əliyevin sərəncamları əsasında 2016-cı ilin “Multikulturalizm ili”, 2017-ci ilin “İslam Həmrəyliyi ili” elan edilməsi, 2015-ci ildə Bakıda ilk Avropa Oyunlarının, 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarının keçirilməsi də bunun bariz nümunəsidir.

Prezident İlham Əliyev beynəlxalq münasibətləri nəzəri səviyyədə dərindən bildiyi üçün islamofob dairələrin və anti-Azərbaycan mərkəzlərin ölkəmizdə yaratmaq istədikləri “idarə olunan xaos” planını məharətlə alt-üst etdi, xalqımızı etnik, siyasi və ideoloji qarşıdurmalardan qorudu. Dövlət başçısı islamofob qüvvələrin müsəlman Şərqində uğurla reallaşdırdıqları “lidersizləşdirmə, ideologiyasızlaşdırma və dövlətsizləşdirmə” siyasətinin ölkəmizdə həyata keçirilməsinin qarşısını aldı. Bu hücumun qarşısına böyük məharətlə dəqiq və olduqca düşünülmüş milli vətənpərvərlik, milli birlik sipərini çəkdi.

Son 18 ildə dövlət quruculuğu sahəsində həyata keçirilən islahatların tərkib hissəsi kimi Prezident İlham Əliyevin “Neft kapitalını insan kapitalına çevirək!” şüarı ilə kreativ gəncliyin yetişdirilməsini və onların dövlət idarəçiliyində irəli çəkilməsini xüsusi qeyd etməliyik. Bu məsələlərdən bəhs edərkən təkcə son illərdə həyata keçirilən islahatlara diqqət yetirmək kifayətdir. Prezident İlham Əliyev 2018-ci ildə keçirilmiş prezident seçkilərində xalqın etimadını qazanaraq qələbəsini təmin etdikdən sonra andiçmə mərasimində qarşıdakı dövrdə reallaşdırılacaq islahatların anonsunu təqdim etdi. Bildirdi ki, islahatlar labüddür, qaçılmazdır. Çünki zaman dəyişir, qarşıya yeni vəzifələr çıxır və onların uğurla həyata keçirilməsi təkmilləşməni, yeniləşməni, müasirləşməni bir tələb kimi qarşıya qoyur. Dövlət başçısı İlham Əliyev kadr islahatlarının prioritetliyini önə çəkərək gənclərin dinamizmi ilə yaşlı nəslin təcrübəsi arasında vəhdətin yaradılmasını qarşıya prioritet vəzifə kimi qoydu. Bununla da Azərbaycanın gələcək inkişafını təmin etdi. Bu gün böyük fəxr və inam hissi ilə qeyd edirik ki, Azərbaycanın inkişaf modeli beynəlxalq səviyyədə təqdir olunmaqla yanaşı, öyrənilməsi vacib tələb kimi irəli sürülür. Bu fikir Azərbaycanın evsahibliyi etdiyi beynəlxalq səviyyəli tədbirlərdə də xüsusi qeyd olunur ki, kasıb deyil, yaxşı idarə olunmayan ölkə var. Bu problemin həlli üçün Azərbaycanın idarəçilik sahəsində qazandığı uğurlar nümunə göstərilir və dünyaya səs salan layihələri tətbiq olunur.

### Ölkəmizdə təkmil siyasi sistem bərqərar olunub

Azərbaycanın siyasi islahatlar sahəsində qazandığı uğurlardan bəhs edərkən demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda əldə olunan nailiyyətlərimiz xüsusi vurğulanmalıdır. Demokratik inkişaf yolunda həyata keçirilən tədbirlərin qanunauyğun nəticəsi kimi Azərbaycanda təkmil siyasi sistem bərqərar olunub. Qanunvericilik bazasının təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının təmin olunması istiqamətində görülən tədbirlər, siyasi plürializmin dəstəklənməsi, çoxpartiyalı sistemin inkişafı və digər istiqamətlər üzrə prioritet hesab olunan prinsiplər ölkədə davamlı xarakter alan demokratik cəmiyyətin inkişafından xəbər verir. Son 18 ildə milli Konstitusiyamıza əlavə və dəyişikliklərin edilməsi məqsədilə iki dəfə ümumxalq səsverməsinin keçirilməsi, ölkəmizin hərtərəfli inkişafına xidmət edən, cəmiyyətin idarə olunmasında əsas amil kimi dəyərləndirilən qanunlarımızın təkmilləşdirilməsi və yeni qanunların qəbulu istiqamətində atılan addımlar, azad mətbuatın inkişafına xidmət edən fərman və sərəncamlar, siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının normal fəaliyyəti üçün şəraitin yaradılması, yeni “Siyasi partiyalar haqqında” qanunun qəbul olunması, seçkilərin demokratikliyini təmin etmək üçün Seçki Məcəlləsinə əlavə və dəyişikliklərin edilməsi və sair kimi bir-birindən əhəmiyyətli addımlar Azərbaycanın gələcəyinə yönəlmiş addımlardır. İnsan amilinə verilən yüksək dəyərin göstəricisi kimi dövlət başçısı İlham Əliyevin sərəncamı əsasında 18 iyun tarixinin Azərbaycanda İnsan Hüquqları Günü kimi təsis edilməsi də bu sıradandır.

Prezident İlham Əliyev hakimiyyətin hər üç qolunda - icra, qanunvericilik və məhkəmə-hüquq sistemində islahatların aparılmasının prioritetliyini önə çəkərək bu istiqamətdə irəli sürdüyü təşəbbüslər və atdığı praktiki addımlarla ictimaiyyətin dərin rəğbətini qazandı. Ümumilikdə atılan addımlar bu məqsədə xidmət edir ki, Azərbaycanın hərtərəfli inkişafı təmin edilsin, xalqımız yüksək rifah içində yaşasın.

### İdarəçilik sistemində təkmilləşmə səmərəliliyi artırır, hədəfləri yeniləri ilə əvəzləyir

Azərbaycanın inkişaf, tərəqqi yolunda inamla irəliləməsində düşünülmüş və məqsədyönlü siyasətin böyük rolu var. İdarəçilik sistemində yeniləşmə hər bir dövrün aktual məsələsidir. 2016-cı ildə keçirilən ümumxalq səsverməsində müzakirəyə çıxarılan məsələlərdən biri vitse-prezidentlik institutunun yaradılması oldu. Milli Konstitusiyamıza edilən bu əlavə ölkə ictimaiyyəti tərəfindən böyük razılıqla qarşılandı. 2017-ci ildə dövlət başçısı İlham Əliyevin sərəncamı əsasında Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Azərbaycanın Birinci vitse-prezidenti təyin edildi. Mehriban xanım Əliyevanın Heydər Əliyev Fondunun prezidenti kimi çoxşaxəli fəaliyyətinə verilən bu yüksək dəyər, göstərilən etimad 4 ildən artıq vaxtda gördüyü işlərin miqyasında öz təsdiqini tapıb.

Dövlət başçısı İlham Əliyev Mehriban xanım Əliyevanı Azərbaycanın Birinci vitse-prezidenti kimi təqdim edərkən bildirmişdir: “Bax, bu, çoxşaxəli fəaliyyət və eyni zamanda uğurlu fəaliyyət mənim bu qərarı qəbul etməyimdə əsas rol oynamışdır. Eyni zamanda qeyd etməliyəm ki, Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır. “Prezident İlham Əliyevin bu etimadını yüksək dəyərləndirən Mehriban xanım Əliyeva bildirmişdir ki, ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam.

Mehriban xanım Əliyeva Birinci vitse-prezident kimi ilk müşavirəni bu gün artıq tarixə qovuşan Dağlıq Qarabağ münaqişəsi nəticəsində öz doğma yurd-yuvalarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərin problemlərinə həsr etmişdir. Dövlət başçısı və Azərbaycanın Birinci vitse-prezidenti daim bu əminliyi ifadə edirdilər ki, yaradılan bu şərait müvəqqəti xarakter daşıyır. Tezliklə münaqişə öz həllini tapacaq, soydaşlarımız doğma yurd-yuvalarına qayıdacaqlar. Bu gün həmin istəyin, arzunun reallığa çevrilməsinin sevincini yaşayırıq.

### Ulu Öndər Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyası islahatlar prosesinə öz töhfələrini verir

Azərbaycanın uğurlarında öz payı olan, yarandığı gündən dövlətə, xalqa layiqli xidməti fəaliyyətinin önündə saxlayan, sözlə əməl birliyi sayəsində milyonların sevgisini qazanan Yeni Azərbaycan Partiyasının irəli sürdüyü təşəbbüslər, qəbul etdiyi qərarlar daim ölkə ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanır. Bu təşəbbüslərin arxasında güclü dövlət, yüksək rifah dayanır. Daim təkmilləşməyə, yeniləşməyə can atan Yeni Azərbaycan Partiyasının 2019-cu ilin sonlarında ölkədə həyata keçirilən islahatların qanunverici orqanda da öz əksini tapması üçün Milli Məclisin buraxılması və növbədənkənar parlament seçkilərinin keçirilməsi təşəbbüsü də ona xalqın inamını, etimadını artıran addımlardan oldu. Bu təşəbbüs dövlət başçısı İlham Əliyevin sərəncamına uyğun olaraq 2020-ci il fevralın 9-na təyin edilən parlament seçkilərinin keçirilməsi ilə nəticələndi. Yeni formalaşmış parlament çevikliyi, səmərəliliyi artırmaqla dəstəyini qəbul etdiyi yeni qanunlarla, yaxud qanunlara əlavə və dəyişikliklərin edilməsi ilə ifadə edir. Altıncı çağırış Milli Məclisin formalaşmasında diqqət çəkən əsas məqamlardan biri parlamentin rəhbərliyində, eyni zamanda komitələrə sədrlikdə müxalifət nümayəndələrinin təmsil olunmasıdır. Bu faktın özü ölkəmizdə siyasi dialoq mühitinin mövcudluğundan xəbər verir. Prezident İlham Əliyev yeni formalaşmış Milli Məclisin ilk iclasındakı nitqində də bu kimi məsələlərə diqqət yönəldərək perspektivləri açıqlamışdır.

Reallıq budur ki, aparılan islahatlar və demokratik dəyərlərə sadiqliyin nəticəsində Yeni Azərbaycan Partiyası təkcə Azərbaycanın deyil, regionun ən güclü və nüfuzlu siyasi təsisatına çevrilmişdir. 760 mindən artıq üzvü olan partiyanın fəaliyyəti bütövlüklə ölkənin inkişafı və milli həmrəyliyin təmin olunmasına xidmət edir. YAP VI çağırış Azərbaycan Respublikasının Milli Məclisində 69 deputatla təmsil olunur.

Yaxın günlərdə birinci ildönümünü qeyd edəcəyimiz Zəfərimizin yaratdığı yeni reallıqlar ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasında da yeniliklərə yol açdı. Bu ilin 5 mart tarixində keçirilmiş YAP-ın VII qurultayında qəbul olunmuş qərarlar partiyanın gələcək inkişaf strategiyasını müəyyən etdi. Qurultayda partiyanın yeni Nizamnaməsi və strukturu təsdiq edildi. Dövlət başçısı İlham Əliyevin yaşlı nəslin təcrübəsi ilə gənclərin dinamizmi arasında vəhdətin yaradılması tapşırığına uyğun olaraq Yeni Azərbaycan Partiyasının tərkibində Veteranlar Şurası yaradıldı. Ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev qurultaydakı nitqində qarşıdakı dövrün vəzifələrinə diqqəti yönəltdi.

Partiyanın VII qurultayının mühüm və gələcək üçün vacib qərarlarından, yeniliklərindən biri olan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın YAP sədrinin birinci müavini vəzifəsinə təyin edilməsi hədəflərə yüksək səviyyədə nail olmağa geniş imkanlar yaradır. Bütün fəaliyyəti ilə uğurlara imza atan Mehriban xanım Əliyevanın amalı, fədakarlığı, ictimai-siyasi mövqeyi hər kəsə örnəkdir.

### Ölkə ictimaiyyəti Prezident İlham Əliyevin milli və siyasi həmrəyliyə xidmət edən təşəbbüslərinin şahididir

Ölkəmizdə milli birlik, vətəndaş həmrəyliyi mövcuddur. Azərbaycan hakimiyyəti hər zaman dialoqa açıq olduğunu atdığı addımları ilə təsdiqləyir. Bununla bağlı bircə faktı qeyd etmək kifayətdir. Prezident Administrasiyasında Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin yaradılmasında da məqsəd ölkənin siyasi həyatı üçün mühüm olan məsələlərin həllinə, siyasi partiyaların fəaliyyətinə, siyasi mühitin, parlamentarizm ənənələrinin qorunmasına dəstək olmaqdır. Həmçinin qanunvericilik hakimiyyəti ilə icra hakimiyyəti arasında əlaqələrin və qanunvericilik prosesinin tənzimlənməsinə, eləcə də siyasi partiyalar haqqında qanunvericiliyin tələblərinə əməl olunmasına nəzarət edilir. Şöbənin müdiri Ədalət Vəliyevin siyasi partiyaların rəhbərləri ilə görüşləri, aktual məsələlər ətrafında fikir mübadiləsinin aparılması, ümumiyyətlə, siyasi partiyalara lazımi dəstəyin göstərilməsi də deyilənlərin təsdiqidir. Ölkədə siyasi dialoqun daha yüksək nəticələrinin əldə olunması üçün ötən müddət ərzində müxtəlif sahələrin potensialına da müraciət edilmiş, siyasətçilər ilə yanaşı, politoloqlar, müvafiq ixtisaslar üzrə mütəxəssislər, alimlər, media nümayəndələri və ictimai sektorun qadın fəalları ilə müxtəlif səpkili görüşlər təşkil edilmiş və bu istiqamətdə fəaliyyət davam etdirilir. İndiyədək qərargahı olmayan 22 siyasi partiya üçün müvafiq yerlərin ayrılması, habelə vaxtı ötürülmüş qurultaylarının keçirilməsi istiqamətində tədbirlər görülmüşdür. Ötən müddət ərzində 25 siyasi partiya qurultaylarını keçirmiş və nəticələri dövlət qeydiyyatına alınmaqla bu partiyaların fəaliyyətində legitimlik təmin edilmişdir.

Siyasi partiyalarla qurulan konstruktiv əməkdaşlıq, iqtidar-müxalifət münasibətlərinin sağlam təmələr üzərində müzakirələr vasitəsilə inkişaf etdirilməsi ölkədaxili siyasi mühitdə növbəti mərhələnin göstəricilərdir. Atılan bu addımlar milli həmrəyliyə, sağlam əməkdaşlıq ənənələrinin zənginləşməsinə xidmət edir.

Onu da qeyd edək ki, Yeni Azərbaycan Partiyasının VII qurultayında 6 siyasi partiyanın YAP-a qoşulmaq barədə qərarı da sağlam dialoq mühitinin bir daha təsdiqidir.

### Zəfərimiz uğurlarımızın davamlılığına yol açır

Dağlıq Qarabağ münaqişəsinin tarixə qovuşması ilə ölkəmizin həyatında yeni səhifənin açılması bütün sahələrdə, o cümlədən dövlət quruculuğu və siyasi islahatların davamlılığında yeni mərhələnin başlanmasından xəbər verir. Azərbaycanın bu gün öz daxili imkanlarına arxalanaraq, yeganə rəqibinin zaman olduğunu önə çəkərək bərpa və quruculuq istiqamətində atdığı addımlar Böyük Qayıdışın tezliklə gerçəkləşməsinə yönəlib. İşğaldan azad edilmiş ərazilərimizə soydaşlarımızın qayıdışı, orada yeni həyatın başlanması islahatları qaçılmaz edir. Artıq məlumdur ki, bu torpaqlarda təkmil idarəçilik sistemi yaradılıb. Qarabağımız yeni idarəçilik əsasında bərpa edilərək böyük mədəniyyət və turizm məkanına çevriləcək.

***Vüqar RƏHİMZADƏ,***
***Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru***

# Azərbaycan dünyaya Günəş kimi doğur

Hər günü, hər saatı, hər anı qürurla, fərəhlə, qələbə sevinciylə dolu bir il artıq tarixə qovuşur. Arxada qalan bu bir il doğma Azərbaycanımızın şərəf salnaməsidir. Bu salnamənin qəhrəmanlıq dolu hər səhifəsi vətəni canlarından artıq sevən, onun azadlığı uğrunda ölüm-qalım savaşında ölümdən belə qorxmayan ər igidlərimizin müqqədəs qanı ilə yazılmışdır.

Bu gün şanlı tarixə çevrilən bir ilin unudulmaz anlarını iftixar hissiylə xatırlayır, zəruri məqamda qırılmaz bağlarda birləşib “dəmir yumruğ”a çevrilən xalqımızla, düşmənə qan udduran qəhrəman Azərbaycan əsgəriylə və böyük Zəfərin müəllifi olan Müzəffər Ali Baş Komandanımızla qürur duyuruq.

44 günlük Qarabağ savaşı müasir dünyamızın hərb tarixində analoqu olmayan bir müharibə idi. Döyüş əməliyyatlarının hazırlanması və meydanda uğurla, heç bir yanlışa yol verilmədən icra edilməsi dünyanın güc mərkəzi olan dövlətlərini belə heyran etdi. 30 ildən bəri Ermənistan tərəfindən işğal altında saxlanılan, misli görünməmiş vandallıqla dağıdılıb viran qoyulan kəndlərimiz, şəhərlərimiz bir-birinin ardınca azad olundu. Müharibə ərəfəsində Azərbaycana şiddətli təhdidlər yağdıran, yeni ərazilərimizi işğal edəcəkləri, Kürə qədər gələcəkləri ilə hədələyən düşmən “dəmir yumruğ”un qarşısında dayana bilməyərək, tankını, torpağını, silah-sursatını döyüş meydanında qoyub qaçdı. Hər gün yeni-yeni yaşayış məntəqələrinin - kəndlərimizin, şəhərlərimizin işğaldan azad edilməsi ilə bağlı Ali Baş Komandanın dilindən səslənən xəbərlər ölkədə bayram ab-havası yaradaraq xalqımızı Böyük Zəfərə köklədi.

44 günlük Vətən müharibəsinin hər günü qəhrəmanlıqla doludur və qürurvericidir. Amma bu müqəddəs savaşın zirvəsi Şuşa uğrunda döyüşlər idi desək, yəqin bu fikirlə hamı razılaşar. Sıldırım qayalara dırmaşan, baş gicəlləndirən dərin uçurumları adlayan igidlərimiz Şuşaya əlbəyaxa döyüşlə daxil oldular. O əsgərlərin hərəsi bir qəhrəman idi. Onlar Vətən fədailəri, Şuşa fatehləridir.

Şuşanın bizim üçün önəmi bir başqadır. Bu fərqli yanaşma etiraf edək ki, Müzəffər Ali Baş Komandandan tutmuş adi vətəndaşadək hər birimizin baxışlarına hakimdir. Şuşanın işğaldan azad olunması xəbərini xalqa çatdıran dövlət başçısının necə kövrəldiyini unutmaq olmur. “Şuşa, sən azadsan!” deyə doğma və əziz, eyni zamanda müqəddəs tarixi yurd yerimizə xitab edən İlham Əliyevin hər sözünə, hər cümləsinə odlu ürəyinin hərarəti hopmuşdu. Danışığının ahəngindən hiss olunurdu ki, sanki çiyinlərindən ağır bir yük götürülmüşdü. O, ata vəsiyyətini şərəflə yerinə yetirən bir oğul kimi özünü xoşbəxt sayırdı.

Təkcə Prezident idimi xoşbəxt olan?! Əsla yox! O anda uşaqdan böyüyə bütün Azərbaycan xalqı xoşbəxt idi. Qarabağı, Şuşanı azadlığa, bizi xoşbəxtliyə qovuşduran qəhrəman vətən oğullarına əbədi eşq olsun! Çox güman ki, Şuşada, Cıdır düzündə Şuşa fatehlərinin şərəfinə bir abidə ucaldılsa, hamımızın ürəyincə olar. Bu abidə Şuşa fatehlərinin qəhrəmanlığını əbədiyyətə qovuşdurar, şəhidlərimizin müqəddəs ruhuna, qazilərimizin fədakarlığına məhəbbət və ehtiramın daha bir parlaq ifadəsinə çevrilər.

Zaman ən böyük hakim olduğunu israrla təsdiqləməkdədir. Arxada qalan bir ildə çox şey dəyişib. Ölən ümidlər canlanıb, xəyallar gerçəkləşib, sarsılan inamlar baharda təbiət oyanan kimi tumurcuqlayıb. Yaxın keçmişdə Ermənistanın baş naziri Paşinyanın sərxoş vəziyyətdə öz dəstəsi ilə yallı getdiyi Cıdır düzündə indi beynəlxalq musiqi festivalları, poeziya günləri keçirilir. Həm də xarici qonaqların heyranlıqla “Qafqazın incisi” adlandırdıqları Şuşa milli memarlıq üslubu saxlanılmaqla yenidən qurulur.

Əlbəttə, tikilən, qurulan təkcə Şuşa deyil. Bu gün işğaldan azad edilib rahat nəfəs alan Qarabağın, Şərqi Zəngəzurun hər bucağında həyat qaynayır. Düşmənin daş üstə daş qoymadığı Ağdam tezliklə “ağıllı şəhər”ə çevriləcək. Bərdə-Ağdam dəmir yolu və müasir tələblərə cavab verən avtomobil yollarının çəkilişi sürətlə davam edir. Füzulidə yeni inşa olunan beynəlxalq hava limanına artıq ilk uçuş gerçəkləşib. Çətin relyefə baxmayaraq Kəlbəcərə “Ömər aşırımı”ndan keçməklə rahat yol çəkilir. Cəbrayılda, Qubadlıda, Zəngilanda genişmiqyaslı quruculuq işlərinə start verilib. Zəngəzur dəhlizini reallaşdırmaq məqsədi ilə diplomatik danışıqlar intensiv xarakter alıb. Əlbəttə, bütün bunlar tarixə qovuşan son bir ilin ərzində görülən işlərin tam siyahısı deyil.

Müzəffər Ali Baş Komandanın yenilməz iradəsi, xalqımızın tükənməz qurub-yaratmaq əzmi, dövlətimizin iqtisadi qüdrəti sayəsində doğma Qarabağın, Şərqi Zəngəzurun hər bucağı başdan-başa yenidən qurulur, gerçək bir cənnətə çevrilir. Ulu Öndərin dediyi kimi, Azərbaycan dünyaya Günəş kimi doğur.

***Lazım QULİYEV,***
***“Azərbaycan”***






# Tarixin ən qüdrətli Azərbaycanının və möhtəşəm Zəfərin müəllifi










# Xocavəndlilər xilaskarları İlham Əliyevə əbədi minnətdardırlar

*Əvvəli 1-ci səh.*

Hadrutun işğaldan azad edildiyi gün reallaşan səfər zamanı dövlət başçısı Hadrut qəsəbəsində yeni məscidin və "Hadrut" Qovşaq yarımstansiyasının təməlini qoydu, Hadrut-Cəbrayıl-Şükürbəyli, Tuğ-Hadrut və Füzuli-Hadrut yollarında aparılan tikinti işləri ilə tanış oldu.

Səfərin ən əlamətdar məqamları isə dövlət başçısının Hadrutda Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə olduqca səmimi şəraitdə keçirdiyi görüş və onlarla birlikdə Tuğ kəndinə getməsi oldu.

*Xocavənd rayon ictimaiyyətinin nümayəndələrinin bu görüşlə bağlı təəssüratları olduqca zəngin və maraqlıdır.*



## Onlar Müzəffər Ali Baş Komandanın bu yurdu da cənnətə çevirəcəyinə tam əmindirlər

### Bizi Vətənə İlham Əliyev qaytardı

Prezidentlə görüşün iştirakçılarından biri olan Azərbaycan Respublikası Milli Teleradio Şurasının üzvü, yazıçı-publisist **Bəxtiyar QARACA** deyir ki, bu səfər onun üçün gözlənilməz olub. "Fikrim-xəyalım burda, özüm uzaqlarda... Aeroportdaca zəng gəldi: "Xocavəndə-Hadruta gedirik..." Bir gün sonra artıq bir qrup həmyerlimlə, həmdərdlimlə illərdir görmədiyimiz, suyuna, havasına həsrət qaldığımız torpaqlara üz tutduq. Füzulidən Hadrut istiqamətində təzə bir yolla gedirdik", - deyir yazıçı...

Bəxtiyar Qaraca ətrafda gördükləri mənzərələrin onları həm üzdüyünü, həm də sevindirdiyini qeyd edir. Vurğulayır ki, azad torpaqlarda həyat qaynayır, yollar çəkilir, insanlar çalışırdı: "Yüzillər boyu şəhid qanıyla boyanıb pirə, ziyarət yerinə dönən, bayrağa çevrilən Vətən torpaqları! Taleyimiz, tariximiz olan torpaqlar! Səni candan sevərək böyüməyi, qoruyaraq şəhid, qazi, qəhrəman olmağı öyrəndik! Hadrutda, Tuğda Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevlə görüşümüz bu səfərin ən unudulmaz, təkrarsız anları idi. Bu görüşdən öyrəndiyimiz çox şey oldu. Burda da şəhidlərimiz, qazilərimiz ehtiramla anıldı".

Həmsöhbətimiz Ali Baş Komandanın bu fikrini - "Hər birimiz deyirdik, ürəyimizdə deyirdik və sözdə də deyirdik ki, nəyin bahasına olursa-olsun, biz torpaqlarımızı geri almalıyıq. Əlbəttə, hər bir insanın həyatdan getməsi böyük faciədir - həm onun ailəsi üçün, yaxınları üçün, qohumları üçün, həm də cəmiyyət üçün. Ancaq bizim şəhidlərimiz haqq yolunda həlak olublar, Vətən uğrunda həlak olublar. Onların qəhrəmanlığı bu gün bütün dünyada artıq gerçək kimi qəbul olunur. Onların qəhrəmanlığı nəticəsində bu gün bizim bayrağımız azad edilmiş torpaqlarda ucaldılır. Onların qəhrəmanlığı nəticəsində xalqımız, dövlətimiz müzəffər dövlət, müzəffər xalq kimi yaşayır və bundan sonra əbədi yaşayacaq. Bu, şəhid ailələri üçün təsəlli ola bilər"- xatırladaraq qeyd edir ki, bu xoşbəxtliyi onlara bağışlayanların haqqını bu sözlərdən daha gözəl ifadə etmək mümkün deyil.

"Hadrutda dalğalanan Azərbaycan bayrağını gördük, əsgərlərimizlə tanış olduq. Başqa bir hissdir onları bu azad torpaqlarda, özümüzü də onların yanında görmək, Qarabağın düz ortasında qürurla dayanıb uca həqiqətlərdən danışan Müzəffər Ali Baş Komandanı dinləmək... Biz qayıtmışıq, Vətən! Artıq hamımız bu böyük qələbədən sonra bir daha əminik ki, müstəqil Azərbaycanın bu gün də, gələcəkdə də ən yüksək səviyyədə keşiyində durmaq, onu bəlalardan qorumaq, sərhədlərini keçilməz, sarsılmaz etmək üçün iradəli, sarsılmaz rəhbərə, güclü orduya ehtiyacımız həmişə olacaq. Bunu əsrlər boyu yaşadığımız faciələr, tarixi yaddaşımız da tələb edir" söyləyən Bəxtiyar Qaraca 100 il əvvəl Üzeyir bəy Hacıbəylinin andranikləri, njdeləri nəzərdə tutaraq yazdığı bir fikri yada salır: "Biz bundan sonra sərhədlərimizi elə qorumalı, elə möhkəmlətməliyik ki, yerindən qalxan hər hansı dəli, qudurmuş istənilən vaxt torpaqlarımıza soxulub insanlarımızı qətlə yetirə bilməsin".

### Gənclər daim Prezidentin yanındadır

**Oktay ƏMRAHOV** da Prezidentlə görüşün iştirakçılarındandır. 2003-cü ildə Bakı şəhərində anadan olub, bu il 647 balla Bakı Ali Neft Məktəbinin Neft-qaz mühəndisliyi ixtisasına daxil olub. Deyir ki, doğmalarımın yaşadığı və oradan məcburi köçkün olduğu Xocavənd rayonunu heç vaxt görməsəm də, orada olmağa həmişə can atmışam: "Bu şans mənə ikiqat sevinc yaşatdı. Həmin gündə həm doğma torpaqlarımızı gördük, həm də Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevlə xoş görüş mənə də qismət oldu. Şəhidlərimiz, qazilərimiz, qəhrəman Azərbaycan Ordusunun və Ali Baş Komandanın sayəsində biz düşmənin belini qırdıq".

Cənab Prezidentlə görüşərkən çox həyəcanlı olduğunu söyləyən Oktay bunu təbii bir hal hesab edir: "Mən cənab Prezidentin səmimi, ünsiyyətcil insan olduğunu bilirdim və bu görüşün təəssüratı hətta gözlədiyimdən də artıq oldu. Belə ki, Prezident hər bir vətəndaşla ayrı-ayrı söhbətlər edir, onlarla yaxından maraqlanırdı. Gördüm ki, o, hər bir vətəndaşın fikirlərini, təkliflərini dinləyirdi. Bu, həqiqətən onun xalqına olan sevgisinin bariz nümunəsidir. Hətta onu deyim ki, mən Prezidentlə selfi çəkmək istədiyimi bildirdim. O, gülümsəyərək razı oldu və səmimi bir görüş alındı".

Oktay Əmrahov söyləyir ki, doğma torpaqlarını, görkəmli eloğlularını gördüyünə, başlıcası isə, Prezidentlə şəxsən tanış olduğuna görə qürur hissi duyur və bir gənc olaraq daim dövlət başçısının kursunu dəstəkləməyi özünə mənəvi borc kimi qəbul edir.

### Ən böyük arzuma çatdım

Əməkdar müəllim **Gültəkin AĞAYEVA** Prezidentlə görüşdə çıxış da edib. Lakin hesab edir ki, nə qədər danışsa da, bütün duyğularını, minnətdarlığını, sevincini tam ifadə edə bilməz: "Neçə illərdi qəlbimdə gəzdirdiyim nisgil, həsrət, kədər bir ildir ki, vüsallanıb, şənlənib, sevincə bələnib. Doğma yurdum, səfalı,iləzar Hadrutum düşmən caynağından xilas olub. İnsanı heyran qoyan gözəlliklər, dumana bələnən dağlar, dərələr, qoz ağacları ilə çətirlənən yollar bizləri görüb bir başqa aləmə düşüblər".

Gültəkin xanım deyir ki, 30 il ərzində bir fikir beynini elə hey deşərdi: "Görəsən, o yerlərə yaz gəlirmi?" Tez öz-özümə deyərdim ki, gəlməz, gələ bilməz. O yerlərdə həyat olmazdı bizsiz. Təbiət də, torpaq da, yer də, göy də qan ağlayıb illərdi. Bir il bundan əvvələ kimi. Şəhid qanı ilə suvarılan torpaqlar, "Vətən!" hayqırtısı ilə oyanan dağlar, doğma addım səslərini eşidən yollar sevincdən qürurlandı, vüqarlandı yenidən. Həyat özünə gəldi bu həsrətlə yüklənmiş yerlərdə. Möhtəşəm köçünü gözləyir qurban olduğum yerlər. İnşallah, yenə həmişəki kimi həyat qaynayacaq Hadrutda.

1987-ci ildə Xankəndi Pedaqoji İnstitutunu bitirib Hadrutun Salakətin kənd məktəbinə Azərbaycan dili və ədəbiyyatı müəllimi təyin olunan həmsöhbətimizin Hadrutla ilk tanışlığı o vaxtdan başlayıb. İlk müəllimliyi, eyni zamanda ailə qurmağı da Hadrutla bağlı olub: "Mənim qəlbimdə o yerlərə qayıdacağımıza böyük ümid var idi. Amma bəzən bu ümid, bu inam gözümüzün yuxusu kimi ərşə çəkilirdi. 1991-ci ildə bizim kənd işğal olundu. O gündən Hadrut azad olan günə qədər mən o yerlərin, o gözəlliklərin həsrətini çəkdim. Həsrət çəkə-çəkə də illəri başa vurub yaşlandıq. Yaşlandıq, amma nağılların, dastanların sonuna bənzədi taleyimiz. Hər şey bir andaca axarına düşdü. 44 günlük savaşın sonu möhtəşəm Zəfərlə sonlandı. Bu Zəfər dərdimizə dərman oldu. Həsrətimizə qılınc çəkdi. Başımızı dik tutdu. Acımıza bal qatdı. Qalib ölkənin vətəndaşları idik. Bu möhtəşəm Zəfəri bizə yaşadan Ali Baş Komandana, cənab İlham Əliyevə təşəkkürlər edirik. Cənab Prezidentin apardığı uğurlu siyasətin uğurlu nəticəsidir torpaqlarımızın işğaldan azad olması. 1 il bundan əvvəl Ali Baş Komandan "Hadrutu azad etdik" xəbərini xalqa çatdıranda inanın ki, sevincdən ürəyim partlayırdı".

Artıq azad olunan Hadruta gəlişi ilə ən böyük arzusuna çatdığını deyən Gültəkin Ağayeva buna görə canını torpaq uğrunda fəda edən şəhidlərimiz qarşısında baş əydiyini vurğulayır: "Mən çıxışımda möhtərəm Prezidentə öz minnətdarlığımı bildirdim. Dedim ki, bu zəfər Sizin möhtəşəmliyinizdir. Bu zəfər Azərbaycan Ordusundan layiqli cavabını alan Ermənistanın "Dəmir yumruq" qarşısında nə qədər aciz oldiğunu və acı məğlubiyyəti qəbul etməsidir. Doğma xalqına bağlı, dövlətini sevən, ürəyi Vətən eşqi, vətənpərvərlik ruhu, qəlbi azərbaycançılıq sevgisi ilə döyünən, "Mən hər bir azərbaycanlının Prezidentiyəm" deyən dövlət başçısı! Hər kəsin qürur duyduğu dahi insan! Allaha min dəfə şükürlər olsun ki, biz arzumuza çatdıq. Eşq olsun ordumuza! Yaşasın Azərbaycan Prezidenti!"

### Prezident bizi heyran etdi

Xocavənd rayon Mədəniyyət evinin metodisti **Lüdmila HƏSƏNOVA** deyir ki, oktyabrın 9-u - doğma yurd-yuvamızın işğaldan azad olunduğu gün artıq onun həyatının ən mühüm tarixinə çevrilib: "Bizim çoxdan səbirsizliklə gözlədiyimiz, illərlə həsrətində olduğumuz bu yurda səfər etdiyimizi eşidəndə sevincim yerə-göyə sığmadı. Özümü dünyanın ən xoşbəxti hesab etdim. Bir vaxtlar qəlbim sızıldayır, burnumun ucu goynəyirdi o yerlər üçün. Bir vaxtlar əlim çatmırdı, ünüm yetmirdi. Yamyaşıl çəmənlər, uca dağlar, dişgöynədən bulaqlar bizi haraylayırdı".

Artıq 30 illik həsrətə son qoyulduğundan böyük sevinc yaşayan Lüdmila Həsənova qeyd edir ki, sentyabrın 27-dən başlayan, 44 gün davam edən və işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi: "Azərbaycan xalqı öz liderinin - müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirərək bizi doğma yurd yerimizə qovuşdurdu. Artıq biz doğma torpağımızdayıq. O torpağın havasını udub, suyunu içirik. Çox sevinirik, qürur hissi keçiririk ki, rəşadətli Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bəşəriyyətə haqqın, ədalətin, böyük dövlətlərin tapdağından qurtara biləcək bir dövlətin - Azərbaycanın var olduğunu sübut etdik".

Prezident İlham Əliyevin Hadrut qəsəbəsinin işğaldan azad olunmasının ildönümünü onlarla birlikdə öz torpaqlarında qeyd etməsindən qürur duyduqlarını söyləyən Lüdmila Həsənova dövlət başçısının ünsiyyətinə heyran olduğunu deyir: "O qədər səmimi, mehriban idi ki... Şirin danışığı, diqqət və qayğısı hamımızı heyran etdi. Biz çox xoşbəxtik ki, İlham Əliyev kimi Liderimiz, Prezidentimiz var. "Bu günü sizinlə birlikdə burada - Hadrutda qeyd etmək hesab edirəm ki, xüsusi məna daşıyan hadisədir. Biz uzun fasilədən sonra Hadruta - Xocavəndə qayıtmışıq. Döyüşərək, qan tökərək, şəhidlər verərək qayıtmışıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin, onların qanı, canı bahasına, hərbçilərimizin şücaəti, qəhrəmanlığı hesabına biz tarixi ədaləti bərpa etdik, işğalçıları doğma torpaqlarımızdan qovduq və doğma torpaqlarımıza qayıtdıq. Bu gün artıq Hadrutun və ümumiyyətlə, Qarabağın yeni dövrü başlayır" dedi Prezidentimiz. Gəlişilə Hadrutun bərpası işlərinə start verildi. Avtomobil yolunun təməli qoyuldu. Dördzolaqlı Hadrut-Cəbrayıl, Hadrut-Füzuli avtomobil yolları çəkilməsinin, "Hadrut" yarımstansiyasının tikilməsinin təməli qoyuldu və Hadrutda məscidin tikintisinə start verildi. Bu, böyük bir tarixi hadisədir".

Bütün keçmiş məcburi köçkünlər kimi Lüdmila Həsənova da öz evəşiyinə qayıdacağı günü səbirsizliklə gözləyir. İnanır ki, cənab Prezidentin diqqət və qayğısı ilə düşmənin işğalından azad olunmuş doğma Hadrut qəsəbəsi əvvəlkindən də gözəl olacaq: "Hadrut qəsəbəsinə çəkilən avtomobil yolu, təməli qoyulan məscid qəsəbəmizin gələcək xoş günlərindən xəbər verir. Ali Baş Komandanın rəhbərliyi altında Milli Ordumuzun bizə bəxş etdiyi zəfər günü həsrətimizə son qoydu. Uzun illər həsrəti ilə yaşadığımız doğma ocağımızın işğaldan azad edildiyinə görə Ali Baş Komandana minnətdarıq. İnanırıq ki, tezliklə səmimi ürək sözlərimizi doğma yurdumuzdan dilə gətirəcəyik".

### Prezident şəhid analarının dərdinə məlhəm oldu

**Adilə ABDULLAYEVA** şəhid Tural Abdullayevin anasıdır. Xocavəndin fəxri, qüruru olan igid yetişdirdiyinə görə elə özü də rayon sakinlərinin iftixarıdır.

Prezidentin Xocavəndə səfəri onu da hədsiz sevindirib, duyğulandırıb: "Mən şəhid anasıyam. Övladım millətimizin haqq savaşında canından keçərək əbədiyyətə ucalıb. Onun qəhrəmanlıqla döyüşdüyü, şəhid olduğu ərazilərdə indi Azərbaycan bayrağı dalğalanır. Övladım bayrağı çox sevərdi, onu qürur rəmzi görərdi. Azad olunan ərazilərdəki Azərbaycan bayrağına baxanda mənə elə gəlir ki, oğlumun ruhu şaddır və o, sevinir. Biz də sevinirik. Cənab Prezident İlham Əliyev hər dəfə Qarabağın müxtəlif şəhərlərini, kəndlərini gəzəndə fəxarət hissi keçirirəm. İllərlə məcburi köçkünlük dərdi ilə üz-üzə qaldığımızı xatırlayıram və məhrumiyyətlər gəlib gözlərimin önündə dayanır. Bu illər ərzində biz Azərbaycanın inkişafını öz həyatımızda hiss etmişik. Müstəqilliyin ilk illərində zəif dövlətimiz var idi. Ancaq zamanla Ulu Öndər Heydər Əliyev inkişafın təməlini qoydu və cənab Prezident İlham Əliyev həmin təmələ sədaqət göstərdi, o yolda uğurla addımladı. Hər bir il öncəkindən gözəl oldu. Ancaq bu illər ərzində bizim ürəyimiz yenə qubar bağlamışdı. Əlbəttə, ölkəmizin inkişafı bizi sevindirirdi, ancaq torpaqlarımız düşmən tapdağı altında idi. O torpaqlar qayıdacaqdı, bəs biz o günü görə biləcəkmiydik?"

Adilə xanımın buna əsla şübhəsi olmayıb. Daim inanıb və indi cənab Prezidentin düşməndən təmizlənmiş ərazilərə səfərlərini izləyəndə, onun sözlərinə diqqət kəsiləndə həmin günlərdəki inamını xatırlayıb kövrəlir. Çünki kim təsəvvür edərdi qısa zamanda bu qədər iş görülər: "Cənab Prezident İlham Əliyev Hadrut qəsəbəsində səfərdə oldu. O, bu qəsəbədə bir çox quruculuq işlərinin əsasını qoydu. Bizim ailə bu kadrları həvəslə izləyirdi, çünki o, bütün söhbətlərində şəhidlərin ruhuna minnətdarlıq ifadə edirdi, onların ailələrini hər zaman diqqətdə saxladığını söyləyirdi və bu, bizim qəlbimizdəki övlad həsrətini bir qədər soyudur. Övladımız bu günlərin memarlarından biri oldu və bununla əbədilik qazandı. Cənab Prezident İlham Əliyev eyni zamanda səfərləri zamanı səmimiyyəti ilə bizi sevindirir. O, rayon sakinləri ilə sevgiylə, sevinclə danışır, onların söhbətlərini diqqətlə dinləyir, problemləri ilə maraqlanır. Cənab Prezident illər öncə Xocavənd rayonunun kəndlərindən məcburi köçkün kimi çıxan ziyalılarla söhbəti zamanı evlərin dağıdılmasına, yandırılmasına, talan olunmasına üzülsə də, vətəndaşları gələcək günlərdə şəhər və kəndlərimizin yenidən qurulacağına əmin etdi. Mən bir şəhid anası kimi diqqətlə izlədiyim Hadrut səfərindən xeyli duyğulandım. Vətən övladlarının qanları bahasına aldıqları torpaqlarda bayrağımız əbədi dalğalanacaqdır və dalğalandıqca da şəhidlərimizin ruhu şad olacaqdır!"

### Dünyanın ən xoşbəxt insanı idim...

Xocavənd rayon Salakətin kənd tam orta məktəbin müəllimi **Telli ALIYEVA** əməkdar müəllimdir. O da Hadrut qəsəbəsinin azad olunmasının birinci ildönümü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə keçirilən görüşdə iştirak edib.

Bu görüş onun üçün çox əlamətdar olub: "Birinci ona görə ki, mən Qarabağın zəfər tarixini yazan bir sərkərdə, müzəffər Ali Baş Komandan, qüdrətli dövlət başçısı İlham Əliyev kimi bir şəxsiyyətlə görüşdüm. İkincisi ona görə ki, 30 il həsrətində qaldığım Qarabağ torpağına ayaq basırdım. Bu hissləri sözlə ifadə edə bilmərəm. Görüşdə Prezident İlham Əliyev 44 günlük müharibənin başlanma səbəbləri, Hadrutun çətinliklə alınmasından, qəhrəman əsgər və zabitlərimizin necə qəhrəmanlıq göstərdiklərindən ətraflı danışdı və bildirdi ki, tezliklə bu ərazinin yeni baş planı hazırlanacaq, burada turizm məkanı yaradılacaq. Bu torpağın gözəl havası və zəngin bitki örtüyü var. Bu səfər zamanı Prezident bildirdi ki, Hadrud ərazisində yeni məscidin, yarımstansiyanın və Hadrut-Füzuli-Cəbrayıl yolunun təməlini qoyduq".

Prezidentlə Tuğ kəndinə gedən Telli Alıyevanı doğma yurdunda gördüyü mənzərə çox sarsıdıb: "Azərbaycanlıların evləri tamamilə dağıdılmış, məktəb və abidələr yararsız hala salınmışdır. Bizimlə söhbət zamanı Prezident bildirdi ki, mən bir neçə dəfə bu yerlərdə olmuşam, bu vəhşilikləri görmüşəm, 30 il ərzində hayların yaşadığı evlərə baxanda gördüm ki, burada heç kəs yaşamaz. Amma biz tezliklə gördüyümüz bu dağıntıları bərpa edəcəyik, yeni yaşayış binaları inşa ediləcək, abidələr olduğu kimi bərpa ediləcək. Bu diyarı gülüstana döndərəcəyik. Beləliklə, mən bu görüşdən xoş təəssüratla ayrıldım. Dünyanın ən xoşbəxt insanı saydım özümü, ona görə ki, mən Qarabağın xilaskarı ilə üzbəüz görüşdüm, əlini sıxaraq minnətdarlığımı bildirdim. Bundan gözəl nə ola bilər".

Bakı Musiqi Akademiyasının professoru **Tamilla KƏNGƏRLİNSKAYA** deyir ki, onun da Prezidentlə görüş təəssüratları çox zəngindir: "İlk öncə cənab Prezidentin çıxışı, onun güclü şəxsiyyəti, vətənə, doğma təbiətə bağlılığı və xalqına qarşı dərin qayğılıq hissləri, eyni zamanda Xocavəndin gözəl təbiəti, bu gözəlliyə uyğun olan zəhmətkeş və mərd insanları, onlara xas olan səmimilik, sadəlik və qonaqpərvərlik... - bütün bunlar olduqca möhtəşəm hisslər yaradır. Ətrafdakı kontrastlı, bir-birini əks etdirən görüntülər də məni çox təsirləndirdi, çünki burada bir tərəfdən müharibənin dəhşətli kadrları, digər tərəfdən isə bu müqəddəs torpağı qısa bir zamanda bərpa edən, yeni həyat verən insanlar canlanırdı. Mən əminəm ki, cənab Prezidentimizin Xocavənd rayonunu beynəlxalq mədəniyyət və turizm mərkəzinə çevirmək məqsədi və arzusu yaxın zamanda reallaşacaq".

Torpaqlarımızın işğal altında olduğu illərdə Xocavənd ictimaiyyəti heç vaxt ümidini itirmədi. Torpaqlarımızın günlərin birində azad olunacağı ilə bağlı inamları gündən-günə böyüdü. Onların inamını daha da gücləndirən isə Prezident İlham Əliyevin yürütdüyü siyasət idi. Çünki bu siyasət torpaqlarımızın işğaldan azad olunacağı tarixi hər gün yaxınlaşdırırdı. Ötən ilin Vətən müharibəsində qazanılan qələbə bu inamın əbəs olmadığını göstərdi. 44 günlük savaşda xocavəndlilər də qəhrəmancasına iştirak edərək, böyük şücaətlər göstərdilər, tarixi qələbəmizin qazanılmasına özlərinin layiqli töhfələrini verdilər.

*Bu gün xocavəndlilər ikiqat sevinc yaşayırlar. Çünki doğma torpaqları sürətlə azad olunduğu kimi, sürətlə də bərpa edilir. İlham Əliyevin xüsusi diqqəti və qayğısı ilə işğaldan azad olunmuş digər rayonlar kimi, Xocavənddə də hərtərəfli quruculuq işləri aparılır və erməni vandalizminin vurduğu yaralar tədricən sağalır. Dövlət başçısının, Müzəffər Ali Baş Komandanın Xocavəndə səfəri təsdiq etdi ki, Qarabağın bu dilbər və füsunkar guşəsi də tarixi şöhrətini tezliklə özünə qaytaracaq. Xocavəndlilər əmindirlər ki, İlham Əliyev bu yurdu da cənnətə çevirəcək.*

**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**




# Tarixin ən qüdrətli Azərbaycanının və möhtəşəm Zəfərin müəllifi







◆ Zəfərin izi ilə

# 15 oktyabr 2003-cü il...

## ...Və tariximizin inkişafla başlayıb zəfərlə davam edən ən qüdrətli mərhələsi

*Əvvəli 1-ci səh.*

18 il öncə - 2003-cü il 15 oktyabr seçkilərində xalqın mütləq əksəriyyətinin dəstəyini qazanaraq Prezident seçilən İlham Əliyev öz hakimiyyətinin başlanğıcı ilə həm də Heydər Əliyevlə inkişaf edən Azərbaycanın intibah dövrünün yeni mərhələsinin bünövrəsini qoydu. Məhz həmin seçkilərin nəticəsi olaraq, Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyevdən sonra hakimiyyətdə özünün inandığı, arxalandığı bir lideri - İlham Əliyevi görürdü.

### Xalqın dəstəyi mənə güc verir

"Bizim uğurlarımızın əsas mənbəyi Azərbaycan xalqının fəaliyyətidir, Azərbaycan xalqının iradəsidir" deyən cənab İlham Əliyevin 2008-ci il oktyabrın 15-də keçirilən prezident seçkilərindən də qalib çıxmasını şərtləndirən əsas amil onun daim xalqın yanında olması, xalqının isə onu alternativsiz etimad ünvanı kimi görməsi idi. 2008-ci il seçkilərində 88,73 faiz səslə Prezident seçilən İlham Əliyev 2013-cü ilin 9 oktyabr seçkilərində 84,54 faiz, 2018-ci il aprelin 11-də keçirilən seçkilərdə isə 86,02 faiz səslə vətəndaşlarının yeganə inam mənbəyi olduğunu təsdiqlədi.

Xalqın dəstəyini hər zaman yüksək dəyərləndirən İlham Əliyevin 2018-ci il aprel seçkilərində söylədiyi fikirlər bunu bir daha təsdiq edir: "Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm... Mən 2003-cü ildə, prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə xalq etimad göstərərsə, mən Ulu Öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də öz növbəmdə sözlərimə əməl etdim".

Hakimiyyətdə olduğu illər ərzində Prezident İlham Əliyev Azərbaycanı yalnız daxildən inkişaf etdirmədi. Dövlət başçısı ölkəmizin beynəlxalq əlaqələrini genişləndirməklə, beynəlxalq arenadakı nüfuzunu artırmaqla onu həm də regionda və dünyada müstəqil xarici siyasət yürüdən ölkə, etibarlı tərəfdaş kimi tanıdıb. 44 günlük Vətən müharibəsi dövründə Azərbaycanın bütün siyasi təzyiq və təhdidlərə sinə gərməsi də dövlət başçısının beynəlxaq arenada qətiyyətli siyasət yürütməsinin nəticəsidir.

Ulu Öndər Heydər Əliyevin xilaskarlıq, quruculuq və liderlik missiyasını uğurla davam etdirən İlham Əliyevin hakimiyyətdə olduğu dövr ərzində Azərbaycanın inkişafını şərtləndirən ən əsas amil həm də müstəqilliyin, dövlətçiliyin, milli təhlükəsizliyin qorunması olub. Müstəqil Azərbaycana Ümummilli Lider Heydər Əliyevdən miras qalan ictimai-siyasi sabitliyin qorunub saxlanılması İlham Əliyevin hakimiyyətinin ilk günlərindən əsas hədəf olub: "Bizim hamımızın borcudur ki, Azərbaycanda yaranmış bu sabitliyi qoruyaq, saxlayaq, möhkəmləndirək. Əgər Azərbaycanda sabitliyin pozulmasına kimsə can atarsa, biz buna imkan verməyəcəyik, Azərbaycan xalqının rahat, təhlükəsiz, sabitlik şəraitində yaşamasını təmin edəcəyik. Bu sabitlik bizə imkan verəcək ki, gələcəkdə Azərbaycanı daha da sürətlə, hərtərəfli inkişaf etdirək".

2018-ci ildə yenidən prezident seçildikdən sonra andiçmə mərasimində çıxış edən İlham Əliyev ötən dövrü qiymətləndirərkən deyib ki, son 15 ildə dünyadakı vəziyyət təhlükəsizlik baxımından çox gərgin keçsə də, dünyanın müxtəlif bölgələrində, o cümlədən bizim bölgəmizdə çox təhlükəli proseslər baş versə də, Azərbaycan xalqı təhlükəsizlik, sabitlik şəraitində yaşayıb. Azərbaycan daxili risklərin hamısını aradan qaldıra, xarici risklərdən özünü qoruya bilib. Milli təhlükəsizliyimizin qorunmasını dövlətin inkişafı üçün əsas şərt sayan İlham Əliyevin verdiyi vədi yerinə yetirməsinin nəticəsidir ki, Azərbaycan xalqı bu gün də ölkə daxilində daxili risklərdən, xarici təhdidlərdən qorunaraq sabitlik şəraitində yaşaya bilir.

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlunun sözlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyev dünyanın azsaylı liderlərindəndir ki, onun bütün istiqamətlər üzrə həyata keçirdiyi fəaliyyətin nəticəsi yalnız uğur olub. Bu, hər şeydən əvvəl ondan irəli gəlir ki, Azərbaycan Prezidenti bütün sahələrlə bağlı aydın təsəvvürlərə, biliklərə və baxışlara malikdir. Atdığı hər bir addımın öncə ciddi konseptual əsasları haqqında düşünür, dəqiq hesablamalar aparmağı bacarır. Ən əsası, dövlət və milli maraqlar uğrunda böyük iradə, prinsipiallıq nümayiş etdirir. Bu mənada artıq bütün dünya yaxşı bilir ki, Azərbaycan Prezidenti milli maraq məsələlərində heç bir halda güzəştə getmir.

E.Mirbəşiroğlu qeyd edir ki, İlham Əliyevin Azərbaycana rəhbərliyi dövründə ölkəmizin siması əsaslı şəkildə dəyişdi. Həm ölkə daxilində, həm beynəlxalq arenada Prezident tərəfindən atılan addımlar müvafiq olaraq, vətəndaşların və xalqın rifahının təmin olunmasına xidmət edib. Məhz Prezident İlham Əliyev sayəsində Cənubi Qafqazda regional təhlükəsizlik məsələlərinin həllində Azərbaycan hər zaman öndə gedib: "Nəzərə almaq lazımdır ki, Ermənistanın işğalçılıq siyasəti regionda təhlükəsizlik sisteminin qurulması üçün ciddi maneə olub. Buna baxmayaraq, Azərbaycan Prezidentinin səyləri nəticəsində Cənubi Qafqazın təhlükəsizlik məsələlərinin həlli istiqamətində müəyyən addımlar atmaq mümkün olub. İlham Əliyevin rəhbərliyi altında Azərbaycan həm regional səviyyədə, həm də beynəlxalq çərçivədə təhlükəsizliyin təmin olunmasının əsas iştirakçılarından biri olub. Azərbaycanın təşəbbüsləri və birbaşa iştirakı ilə regionda həyata keçirilən strateji layihələr ölkəmizin beynəlxalq iştirakçılıq imkanlarını genişləndirməklə yanaşı, müəyyən təhlükəsizlik təminatlarını da şərtləndirirdi. Belə ki, Ulu Öndər Heydər Əliyevin müdrik yanaşması, Prezident İlham Əliyevin isə siyasi iradəsi və qətiyyəti nəticəsində fəaliyyətə başlamış Bakı-Tbilisi-Ceyhan (BTC) neft boru kəməri ölkənin milli iqtisadiyyatının formalaşmasında olduqca təsirli rol oynadı. BTC və reallaşdırılan digər layihələr həm də birbaşa ölkəmizin təhlükəsizliyi məsələləri ilə bağlı idi. Belə ki, bu layihələrdən əldə olunan gəlirlər Azərbaycan Ordusunun müasir standartlar çərçivəsində qurulmasına və inkişaf etdirilməsinə imkan verdi. Bu gün Azərbaycan Silahlı Qüvvələrinin dünyanın ən güclü orduları sırasında yer alması ölkəmizin iştirakçısı olduğu enerji və nəqliyyat layihələrinin həyata keçirilməsi ilə sıx bağlıdır".

Deputat əlavə edir ki, güclü ordu təhlükəsizliyin əsas təminatçısı, diplomatiyanın hərəkətverici qüvvəsidir. Azərbaycan Prezidenti İlham Əliyev əsasən bu amillərə söykənərək ölkəmizin təhlükəsizlik sistemini çox uğurla formalaşdırmağı bacardı. Təhlükəsizliyin həm siyasi, həm hərbi, həm də iqtisadi komponentlərini yaratmaqla, milli maraqların qorunması və təmini üçün bütün strateji hədəflərə uğurla çatdı. Azərbaycanın təhlükəsizliyinə ən ciddi təhdid yaradan amil rolunda təcavüzkar Ermənistanın işğalçılıq siyasəti çıxış edirdi. Prezident İlham Əliyev Ermənistanın işğalçılıq siyasətinin nəticələrini aradan qaldırmağı və ərazi bütövlüyünü təmin etməyi fəaliyyətinin əsas istiqaməti kimi müəyyən etdi: "Bu baxımdan daxili təhlükəsizlik məsələlərinin səmərəli həll olunması üçün resurslardan düzgün istifadə vacib idi. Ölkə Prezidenti özünün strateji baxışlarına söykənərək bütün təhlükəsizlik tədbirlərini uğurla həyata keçirdi. Ölkənin ərazi bütövlüyünü təmin etməklə, milli təhlükəsizliyimizə olan əsas təhdidi aradan qaldırdı".

### İlham Əliyevin iqtisadi siyasəti hər kəsdə həsəd yaratdı

Azərbaycanda yalnız siyasi sahədə deyil, iqtisadi sahədə də aparılan islahatlar güclü, müasir dövlətin yaradılmasını nəzərdə tuturdu. Bu baxımdan ölkədə siyasi və iqtisadi islahatlar bir-birini tamamlayır.

Azərbaycandakı iqtisadi inkişaf tempindən razı qalan Prezident İlham Əliyev iqtisadi göstəricilərin bizə gələcəyə çox böyük ümidlərlə baxmağa imkan verdiyi fikrindədir. Dövlət başçısı bildirib ki, aparılan uğurlu siyasət ölkəmizə böyük həcmdə vəsaitin, sərmayənin yatırılmasına gətirib çıxardı: "Biz ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirə bildik və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir".

Milli Məslisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirir ki, dövlətçilik ənənələrinin əsrlərlə yaşı olan Azərbaycan tarixin müxtəlif dövrlərində regionda böyük bir coğrafiyanı əhatə edən ərazilərdə güclü dövlət qurmağı və ədalətli idarəetmə sistemini yaratmağı bacarıb. Bununla Azərbaycan xalqı hər zaman dövlətçiliyə əsaslanan milli ideyaya sahib olduğunu göstərib və tarixin müxtəlif mərhələlərində bu milli ideyanı güclü dövlət qurmaq formasında reallaşdıra bilib: "Dayanıqlı və möhkəm dövlət quruculuğunun əsas tələbi milli inkişafın məqsəd və prioritetləri kimi çıxış edən milli ideyanın var olmasıdır. Müasir Azərbaycan dövlətçiliyinin əsas sütunu xalqın "azad və güclü olmaq" arzusu ilə formalaşan milli ideyasını güclü dövlətçiliyə çevirməyi bacaran Ulu Öndər Heydər Əliyev dühası və siyasəti olub".

Komitə sədri hesab edir ki, bütün uğurlarımızın əsas mənbəyi bu strategiyanın və yolun inamla davam etdirilməsi və onun genişləndirilməsidir. Məhz bu yolun əsas davamçısı olan Prezident İlham Əliyevin 18 illik fəaliyyəti Azərbaycana tarixdə heç bir zaman olmayan uğurlar gətirdi. Azərbaycan xalqı hər zaman arzuladığı hədəfinə nail oldu, uzun müddət işğal altında olan torpaqlarımız, təhqir olunan mənəvi ocaqlarımız işğaldan azad edildi: "Xalqımızın qaməti dikəldi, layiq olduğu şərəfli həyata qovuşdu. Azərbaycan xalqı 2020-ci il 8 noyabrda yenidən doğuldu. Artıq o, qalib xalqdır, onun dövləti ən güclü dövlətdir, onun rəhbəri ən qüdrətli və ağıllı rəhbərdir! Strateji, səbirli, uzaqgörən, soyuqqanlı, cəsarətli, xalqa arxalanan idarəetmə sistemi qurmaqla İlham Əliyev bu möhtəşəm qələbəyə 2003-cü ildən başlayaraq addım-addım gələrək nail oldu. Bütün resursları "Qarabağ" hədəfinə yönəltməklə dünyanın belə gözləmədiyi qələbəyə nail oldu, Azərbaycan xalqının düşmənlərinin başını əzdi".

T.Mirkişili əlavə etdi ki, bu uzun yolda onun iqtisadi siyasəti, əldə etdikləri nəticələr hər zaman hər kəsdə həsəd yaratdı. Son 18 ildə Azərbaycan iqtisadiyyatı 3 dəfədən çox böyüyərək inkişaf dinamikasına görə dünyada lider ölkə oldu, regionda ən çox xarici investisiya və texnologiya cəlb edən dövlətə çevrildi. Ölkəmiz iqtisadi imkanlarımızın ixracı qarşısında olan bütün sədləri keçdi və əsl iqtisadi müstəqilliyə nail oldu. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars, TANAP, TAP layihələri məhz onun səyləri və fədakarlığı ilə reallaşdı. Vaxtilə regionda infrastruktur cəhətdən blokada şəraitində olan Azərbaycan indi "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin kəsişdiyi yeganə ölkədir. Öz iqtisadi siyasətini regionların yüksəlişi ilə başlayan İlham Əliyev Azərbaycanın tarazlı inkişafında mühüm nəticələr əldə etdi. Ölkəmizin hər bir bölgəsi artıq həyat şəraitinin yaxşılaşması, abad infrastruktura sahib olmaq göstəricilərinə görə dünya reytinqlərində qabaqcıl yerlərə sahibdir.

Parlamentin komitə sədri insan kapitalının inkişaf etdirilməsinin, milli kadrların hazırlanmasının daim dövlət başçısının diqqətində olduğunu da xüsusi vurğulayır. Onun sözlərinə görə, məhz onun ideyaları nəticəsində ölkəmizdə son 18 ildə yeni bir gənclik yetişdi - vətənpərvər, qorxmaz, müasir, ağıllı. O, ölkəmizin gələcək inkişafını məhz insan kapitalının üzərində qurdu və möhtəşəm uğurlar əldə etdi.

Uğurlu siyasət nəticəsində əldə edilən neft gəlirləri hesabına ölkəmizdə qeyri-neft sektorunun güclənməsi, sahibkarlığın inkişafı onun sürətli və əhatəli iqtisadi islahatlarının əsas hədəfi oldu. Davamlı aparılan bu islahatlar nəticəsində iqtisadiyyatımızın əsas hərəkətverici qüvvəsi qeyri-neft sektoru oldu. Geniş şəffaflaşma prosesi, bürokratiyanın aradan qaldırılması, ədalətli rəqabətin təmin olunması iqtisadiyyatımızın dayanıqlı inkişafına böyük bir təkan verdi.

T.Mirkişilinin fikrincə, 18 illik Prezidentlik fəaliyyəti dövründə İlham Əliyevi ən çox fərqləndirən xüsusiyyət onun sosial dövlət konsepsiyasını inşa etməsi, əldə olunan hər bir uğurun xalqın güzəranının daha da yaxşılaşmasına, onun təhlükəsizliyinin qorunmasına və gələcəyə ümidlərinin daha da artmasına sərf etməsi oldu. Bu siyasətin nəticəsində ölkəmizdə yoxsulluq və işsizlik səviyyəsi dəfələrlə azaldı, sosial ödənişlərin həcmi dəfələrlə artdı, layiqli həyat şəraitinin səviyyəsinə görə Azərbaycan regionda bir çox ölkələri geridə qoydu.

Prezident əldə olunan güclü iqtisadi imkanları həm də ölkəmizin müttəfiqlərinin və dostlarının sayının artmasına, düşmənlərimizin neytrallaşdırılmasına, dünyada Azərbaycanın nüfuzunun artmasına sərf etdi. Bunun nəticəsində Azərbaycan həqiqətləri bütün dünyaya yayıldı, yaradıcı xalq kimi layiq olduğumuz rəğbətə sahib olduq, hazırda dünyanın aparıcı təşkilatlarına rəhbərlik etməkdəyik.

T.Mirkişili qeyd etdi ki, Prezident İlham Əliyev iqtisadi imkanları güclü ordu qurmağa sərf etməklə Azərbaycan əsgərinə və hər bir azərbaycanlıya qalib olmaq inamı aşıladı. Məhz güclü Ali Baş Komandan, güclü əsgər və fədakar xalq hesabına biz döyüş meydanında qalib gəldik. Dünyanın ən çətin dövrü sayılan COVID-19 pandemiyası vaxtında məhz İlham Əliyevin çevik idarəetməsi və böhranlı vəziyyətlərdə onun qəbul etdiyi düzgün qərarlar nəticəsində az itki ilə vəziyyəti idarəetməyi bacardıq. Azərbaycan dövlətinin iqtisadi gücü hesabına heç kimdən yardım istəmədən pandemiyadan əziyyət çəkən vətəndaşlara və sahibkarlara dövlət dəstəyi göstərildi və iqtisadi enişin kəskin olmasının qarşısı alındı: "Bu gün Azərbaycan dövləti hərtərəfli güclü dövlətdir. O, özünün ən şərəfli dövrünü yaşayır. Qarşımızda həm də ciddi çağırışlar yaranmaqdadır. İqtisadiyyatın davamlı inkişafı, vətəndaşlarımızın daha yaxşı yaşaması, müasir texnologiyalardan istifadənin genişləndirilməsi kimi mühüm çağırışlara nail olmaq yolunda Azərbaycan davamlı olaraq irəliləyir. Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə olunan nəticələr bir daha göstərdi ki, müdrik dövlət rəhbəri, xalqın ona olan inamı və sevgisi ilə istənilən hədəfə nail olmaq mümkündür. Mən inanıram ki, biz cənab İlham Əliyevin rəhbərliyi ilə hələ çox uğurlara imza atacağıq".

### Vədinə əməl edib Qarabağ münaqişəsini tarixə qovuşduran Prezident

Ötən müddət ərzində BMT Təhlükəsizlik Şurasının Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi, işğalçı qüvvələrin Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz çıxarılması tələbinin qoyulduğu 4 qətnamənin icra edilməməsi fövqəl dövlətlərin təcavüzkar faktına laqeyd münasibətinin nəticəsi idi. Buna güvənən Ermənistan ötən müddət ərzində nə BMT-nin qətnamələrinə, nə də İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı kimi digər beynəlxalq təşkilatların bəyanatlarına, qərarlara məhəl qoymadı.

"BMT Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə gün ərzində icra edildiyi halda bizə gəldikdə 27 il icra olunmamış qaldı. Bu isə ikili standartların bariz nümunəsidir" deyən Prezident İlham Əliyev dünya birliyinin göz yumduğu, güc dövlətlərinin həll etmək istəmədiyi münaqişəni Azərbaycanın hərbi gücü ilə həll edə bildi.

Hələ 2003-cü ildə ilk dəfə Prezident seçildikdən sonra andiçmə mərasimində çıxış edən İlham Əliyev xalqına Azərbaycanın öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcəyi vədini vermişdi: "Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcəkdir".

Bu vədinə əməl edərək dövlətimizin milli mənafeyi naminə, məlum məkrli qüvvələrin təzyiqlərini göz önünə alaraq, torpaqlarımızın işğalına son qoyan Ali Baş Komandan Ermənistanı döyüş meydanında məğlub etməklə illərlə davam edən Qarabağ münaqişəsini tarixə qovuşdurdu. Tariximizə yenidən Zəfər sözü yazan bir sərkərdə, dövlətin ərazi bütövlüyünü təmin edən xilaskar oldu.

Milli Məclisin deputatı Elman Məmmədov qeyd edir ki, İlham Əliyev prezidentliyinin ilk günündən təcavüz altında olan torpaqlarımızın azad ediləcəyini, bir qarış torpağımızın belə işğal altında qalmayacağını, ərazi bütövlüyümüzün bərpa olunacağını bəyan etmişdi. Dövlət başçısı 2020-ci ildə verdiyi vədinə əməl etdi: "İlham Əliyev prezidentlik dövrünün ilk günündən verdiyi sözü yerinə yetirən, vədinə əməl edən bir prezident kimi tanındı. Bu, xalqda çox böyük inam yaratdı. Prezident qarşısına məqsəd qoydu və bu məqsəd də aydın idi: torpaqlarımızın işğaldan azad edilməsinə nail olmaq. Ancaq bunun üçün bir sıra işlər paralel şəkildə aparılmalı idi. Bu hədəflər də Prezident İlham Əliyev tərəfindən müəyyən edildi. İlk növbədə, ölkə daxilində möhkəm sabitlik yaradıldı, iqtisadiyyat yalnız neft-qaz amilindən asılı olmamaqdan ötrü şaxələndirildi, dövlətin iqtisadi baxımdan güclü olmasına nail olundu. Ölkədəki sabitliyə, xalqın inamına və güclü iqtisadiyyata söykənərək ordu quruculuğu sahəsində işlər uğurla davam etdirildi. Ordunun modernləşdirilməsi, nizam-intizamının artırılması, döyüş qabiliyyətinin yüksək olması daim gündəmdə saxlanıldı. Çoxsaylı hərbi təlimlər nəticəsində ordu gündən-günə döyüş qabiliyyətini artırdı. Azərbaycan Ordusu təcrübəli, inamlı, vətənpərvər zabitlər əsasında formalaşdırıldı, çünki müasir hərbi texnikaların idarəedilməsi üçün bilikli hərbçilər lazım idi".

E.Məmmədov qeyd edir ki, Prezident İlham Əliyev 2003-cü ildən gənclərin hərbi vətənpərvərlik, mübarizlik, düşmənlə barışmaz ruhda yetişdirilməsini qarşıya məqsəd qoymuşdu: "Torpaqlarımızı düşməndən azad edə bilməyimiz üçün bu məsələ gənclərimizin qarşısında daim durmalı idi. Bu yanaşma 44 günlük müharibədə öz nəticəsini göstərdi. Digər vacib məqam odur ki, cənab İlham Əliyev prezidentliyinin ilk günündən beynəlxalq qurumlarla çox fəal işləməyə başladı. İdeoloji, informasiya sahəsində uğurlar əldə etdi. Prezident İlham Əliyevin Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılması, onların buna inandırılması, erməni yalanının ifşa edilməsi sahəsindəki uğurları əvəzedilməzdir. Biz bunu Vətən müharibəsi başlamamışdan əvvəl də, müharibə dövründə də Prezident İlham Əliyevin xarici KİV-ə müsahibəsində görürdük".

Azərbaycan torpaqlarının işğaldan azad edildiyini, dövlətimizin ərazi bütövlüyünün təmin edildiyini vurğulayan E.Məmmədov bu gün bütün dövlət sərhədlərimizdə öz sərhədçilərimizin dayandığını, azad edilmiş ərazilərdə yenidənqurma işlərinin aparıldığını söyləyir. O, yaxın gələcəkdə məcburi köçkünlərin hissə-hissə öz doğma yurdlarına qayıdışının gözlənildiyini də deyir: "Müharibə külli miqdarda vəsait tələb edir. Müharibənin hər saniyəsi puldur. Biz 44 günlük çox ağır müharibədən qalibiyyətlə çıxmağı bacardıq. Azərbaycan müharibədən yeni çıxan ölkə olmasına baxmayaraq, işğaldan azad edilmiş ərazilərdə yenidənqurma işlərini çox qısa zaman ərzində aparmağa başlayıb. Bu, dövlətin iqtisadi gücündən xəbər verir. Artıq azad edilmiş ərazilərdə bir neçə yerdə 4 zolaqlı yollar çəkilir, Ağdamda, Şuşada və digər yerlərdə yenidənqurma işləri aparılır. Prezident İlham Əliyevin apardığı bütün bu işlər düşmənə və onun havadarlarına bir daha mesaj verir ki, bu torpaqların sahibi bizik. Biz yaradıcı, sizin müdafiə etdiyiniz Ermənistan isə dağıdıcı dövlətdir".

Prezident İlham Əliyev hələ ilk dəfə prezident seçilərkən xalqına Azərbaycanın gələcəkdə çox zəngin və qüdrətli ölkəyə çevriləcəyi vədini vermişdi. Xalq birliyinə güvənən dövlət başçısı bunun üçün Azərbaycanda bütün imkanların - təbii sərvətlərin, insan potensialının və ən önəmlisi, xalqın iradəsinin olduğunu bildirmişdi. "Biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik" deyən İlham Əliyev məhz birlikdə olduğumuz zaman güclü dövlət qura biləcəyimiz fikrində heç zaman yanılmadı.

*Bu birlik bizə güclü Azərbaycanı, güclü ordunu və ən nəhayət, həsrətində olduğumuz Qələbəni bəxş etdi. Şuşanın azad edilməsindən sonra - 2020-ci il noyabrın 8-də "Mən bu gün eyni zamanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim" fikirləri ilə xalqa müraciət edən İlham Əliyev bütün bunları yalnız bir atanın oğluna etdiyi vəsiyyət olaraq yerinə yetirmədi. Heydər Əliyevin başladığı siyasi kursu yüksək peşəkarlıq və uğurla davam etdirən böyük lider həm də bir Prezident kimi xalqına verdiyi vədi yerinə yetirdi, ona olan inamın qırılmasına nəinki imkan vermədi, onu getdikcə daha da gücləndirdi. Bu gün Azərbaycan bu inamın sayəsində güclənərək inkişaf edir.*

***İlhamə İSABALAYEVA,***
***"Azərbaycan"***




# Tarixin ən qüdrətli Azərbaycanının və möhtəşəm Zəfərin müəllifi







## Dünya indi də Qarabağın sürətlə dirçəldilməsinə şahidlik edir

Vətən müharibəsində şiddətli döyüşlərin getdiyi yerlərdən biri də Hadrut idi. Elə ermənilərin məğlubiyyətlərini ən çox gizlətmək istədikləri də bu döyüş olmuşdur. Çünki həmin ərazinin kimdə olması müharibədə üstünlüyün hansı tərəfdə olması demək idi. Bu səbəbdən də işğalçılar hər vəchlə Hadrut məğlubiyyətlərini gizlətmək, dezinformasiya yaymaqla erməni cəmiyyətini sakitləşdirmək istəyirdilər.








Prezident İlham Əliyev oktyabrın 9-da Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə bu barədə ətraflı danışdı. Dövlət başçısı bildirdi ki, düşmənin yalanlarına son qoymaq məqsədilə Hadrut qəsəbəsində Azərbaycan bayrağının dalğalandırılması göstərişini vermişdir. Bu qərardan sonra Ermənistan rəsmən Hadrut qəsəbəsinin Azərbaycan tərəfindən azad edildiyini etiraf etməyə məcbur olmuşdur.

Prezident rayon ictimaiyyəti ilə görüşdə tarixdən məlum olan faktı bir daha bəyan etdi: ermənilər tarixi saxtalaşdıraraq dünyaya bəyan edir ki, onlar keçmiş Dağlıq Qarabağ ərazisində əsrlər boyu yaşamışlar. Lakin dövlət başçısının dediyi kimi, ermənilər XIX əsrdə İran ərazisindən buraya çar Rusiyası tərəfindən köçürülüb. Onlar Qarabağda buna abidə də qoymuşdular. Prezident bu faktı bir daha xatırlatmaqla işğalçıların havadarlarına bildirmək istəyir ki, ermənilərin Azərbaycana qarşı ərazi iddiaları irəli sürməyə nə tarixi, nə də hüquqi haqları var. Məlumdur ki, ermənilər bir çox ölkələrdə yaşasalar da, onların heç bir siyasi, inzibati və hüquqi özünüidarəetmə qurumu yoxdur. Bu üzdən başqa dövlətlərin, eləcə də beynəlxalq təşkilatların Azərbaycandan belə bir avtonom da olsa, inzibati ərazinin yaradılması tələbi əsassızdır.

Dövlət başçısı görüş zamanı ermənilərin qurucu deyil, dağıdıcı xalq olduğunu da vurğulamışdır. Bildirmişdir ki, ermənilər 30 il Hadrutu işğal altında saxlasa da, daş üstünə daş qoymayıblar, qəsəbədə infrastruktur və yaşayış evləri bərbad vəziyyətdədir.

Bu gün isə işğaldan azad edilən ərazilərdə, o cümlədən Hadrutda nəhəng bərpa-quruculuq işləri aparılır. Dövlət başçısı səfər zamanı belə işlərin biri - Hadrut-Cəbrayıl-Şükürbəyli, Tuğ-Hadrut və Füzuli-Hadrut yollarında aparılan tikinti işləri ilə tanış oldu. Prezidentə məlumat verildi ki, çəkilən avtomobil yolları Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi inkişafında, bölgənin yenidən qurulmasında, yerli sakinlərin qayıdışından sonra onların rahatlığının təmin edilməsində mühüm rol oynayacaq.

Bölgənin enerji təminatında yeni tikiləcək "Hadrut" qovşaq yarımstansiyasının da xüsusi əhəmiyyəti olacaq. Belə ki, "Şükürbəyli", "Hadrut" və "Şuşa" yarımstansiyalarının arasında yaradılmış 35 kilovoltluq dairəvi elektrik təchizat sisteminə daxil olan yeni yarımstansiya Hadrut qəsəbəsində müxtəlif təyinatlı infrastrukturun elektrik enerjisinə olan tələbatını qarşılayacaq. Köhnə yarımstansiyanın əvəzinə tikiləcək müasir tipli bu yeni yarımstansiya Xocavənd rayonunun bir hissəsinin, Şuşa və ətraf ərazilərinin elektrik təchizatının etibarlığını və dayanıqlığını da təmin edəcək.

Hadrutda həmçinin əhalinin rahat yaşaması və işləməsi üçün hər cür şərait yaradılacaq. Qəsəbənin bərpası üçün işlənəcək baş planda bunlar öz əksini tapacaq. Hadrut qəsəbəsinin də daxil olduğu Xocavənd rayonunda kənd təsərrüfatının inkişafı prioritet istiqamət olacaq. Burada bitkiçilik, heyvandarlıq, üzümçülük bərpa ediləcək. Digər tərəfdən rayonun zəngin təbiəti, qədim Azıx və Tağlar mağaraları burada turizmin inkişafına böyük imkanlar yaradır. Bir sözlə, yaxın bir müddətdə Xocavənd rayonu Qarabağın abad və dilbər güşələrindən birinə çevriləcək.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

◆ **Müəllifi İlham Əliyevdir**




## İlham Əliyevin "ASAN" modeli dünyada ən mükəmməl nümunələrdəndir

Bu gün cənab İlham Əliyevin Prezident seçilməsindən 18 il ötür. Bu müddət Azərbaycan tarixinin ən möhtəşəm inkişaf dövrü olmaqla yanaşı, həm də vətəndaş-dövlət münasibətlərinin ən möhkəm olduğu mərhələdir. İlham Əliyev fəaliyyətə başladığı ilk gündən dövlət orqanları qarşısında əhalinin problemlərinin operativ öyrənilməsini və səmərəli həllini ən vacib vəzifə kimi müəyyənləşdirib. Özü bu sahədə ən mükəmməl nümunəni yaratmaqla rəsmi strukturların və şəxslərin məhz xalqın xidmətçisi funksiyası daşıdıqlarını daim təbliğ edib.

"ASAN xidmət" sisteminin yaradılması da Prezidentin bu siyasətinin real təcəssümüdür. Dünyada bu sahədə ən təkmil örnək kimi qəbul edilən "ASAN" modeli Azərbaycanın daha doğrusu, məhz Prezident İlham Əliyevin yaratdığı brenddir.

### İctimai xidmətlər sahəsində inqilabi dəyişiklik edən Azərbaycan brendi

Ümumiyyətlə, sirr deyil ki, İlham Əliyevin müəllifi olduğu "ASAN xidmət"in yaradılması ictimai xidmətlər sahəsində inqilabi dəyişiklik sayılır. Eyni zamanda bu, yeni davranış qaydalarının tətbiq edilməsidir.

Əvvəllər xidmət sektoru problemli sahə idi. Həm qanun pozuntuları olurdu, həm diqqətsizlik, vətəndaşlara bir çox hallarda hörmətsizlik edilirdi, həm də laqeyd münasibət göstərilirdi. Vətəndaşlar onlara çatacaq sənədləri, arayışları günlərlə, həftələrlə ala bilmirdilər, yaxud da onlardan nə isə istənilir, qanunsuz tələblər irəli sürülürdü. Ona görə də Prezidentin söylədiyi kimi, ictimai xidmətlər sahəsində "ASAN xidmət"in xətti ilə aparılan islahatlar nəinki bu sahəni nümunəvi sahəyə çevirdi, eyni zamanda, cəmiyyətdəki münasibətlərə də çox müsbət təsir göstərdi.

Azərbaycan Prezidentinin 2012-ci il 13 iyul tarixli 685 nömrəli fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində "ASAN xidmət" mərkəzləri yaradılıb.

Hazırda 21 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Onlardan 6-sı Bakı şəhərində, digərləri Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi və Balakəndə fəaliyyət göstərir. Bakı, Gəncə və Sumqayıtda növbəti, Lənkəran, Salyan və Naxçıvanda isə ilk "ASAN xidmət" mərkəzləri inşa olunur. "ASAN xidmət" mərkəzlərində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 320-dən çox xidmət göstərilir. "ASAN Kommunal" mərkəzlərində isə "Azərişıq" ASC, "Azərsu" ASC və "Azəriqaz" İB tərəfindən 55 növ xidmət göstərilir. Bu günədək "ASAN xidmət" mərkəzlərinə 7 milyon 597 mindən çox vətəndaşın 47 milyondan artıq müraciəti daxil olub. Keçirilən rəy sorğularına əsasən vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,5 faiz təşkil edir.

Regionlarda 10 səyyar "ASAN xidmət" avtobusu və səyyar "ASAN qatar" vasitəsilə vətəndaşlara səyyar formada xidmətlərin göstərilməsi davam etdirilir. 2013-cü ilin iyun ayından etibarən 2 milyon 444 mindən çox vətəndaşa səyyar formada xidmət göstərilib.

Bu konsepsiyanın bir komponenti də könüllülərdir. Prezidentin söylədiyi kimi, "ASAN xidmət" həm də gənclər mərkəzidir. Fəaliyyətə başladığı ilk gündən bu prosesə 27000-dən çox könüllü gənc qoşulub. Bu günə kimi könüllülər tərəfindən 3000-dən çox təlim, 650-dən çox layihə keçirilib və 2700-dən çox könüllü "ASAN Kadr" portalı vasitəsilə işlə təmin olunub.

### Vətəndaşa ünvanında xidmət göstərən səyyar "ASAN"

Sözün həqiqi mənasında, Azərbaycanın intellektual məhsulu olan bu mərkəzlər vətəndaş məmnunluğunun qazanılmasına xidmət edir. Artıq vətəndaş üçün vaxt itkisi yoxdur. Hələlik "ASAN xidmət" mərkəzləri olmayan rayon və qəsəbələrdə vətəndaşlara səyyar formada xidmət göstərilir. "ASAN qatar" və ya səyyar "ASAN xidmət" avtobusu vətəndaşın ünvanına gedir.

Azərbaycanı qarış-qarış gəzən səyyar avtobusun bu günlərdə dayanacağı Cəlilabad şəhəridir. Səyyar "ASAN xidmət" avtobusu oktyabrın 5-dən etibarən Cəlilabad Şəhər Bələdiyyəsinn qarşısında vətəndaşlara xidmət göstərəcək.

Rayon sakinləri çox rahatlıqla xidmətə müraciət edərək istədikləri sənədləri bir neçə dəqiqənin içərisində ala bilirlər. Cəlilabada təşkil olunan media-tur zamanı biz də bu proseslərə bir daha şahidlik etdik.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Niftəliyev deyir ki, "ASAN xidmət" mərkəzlərinin olmadığı regionlarda əhaliyə xidmətlərin çatdırılması və onların mərkəzlərə gəlmədən xidmətlərdən yararlanması üçün xüsusi təchiz edilən 10 xüsusi avtobus və "ASAN qatar" səyyar formada əhaliyə xidmət göstərir. Əsas məqsəd dövlət xidmətlərinin vətəndaşlara daha rahat, yeni və innovativ üsullarla təqdim edilməsi, vətəndaşlar üçün əlçatanlığın təmin edilməsi və vətəndaş məmnunluğuna nail olunmasıdır.

Ümumilikdə Cəlilabadda səyyar xidmət 13 dəfə gerçəkləşib. Səyyar "ASAN xidmət" avtobusları vasitəsilə mərkəzə 34 minə yaxın vətəndaş müraciəti daxil olub.

Səyyar şəkildə göstərilən xidmətlər Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən təqdim olunur.

Cəlilabad şəhərində fəaliyyət göstərən səyyar "ASAN xidmət" avtobusunun növbəti dayanacağı Astara rayonu olacaq.

Elnur Niftəliyevin sözlərinə görə, 2013-cü ildən həyata keçirilən səyyar "ASAN xidmət" vasitəsi ilə mərkəzə ümumilikdə 2 milyon 500 minə yaxın, 2021-ci il ərzində isə 108 minə yaxın vətəndaş müraciəti daxil olub.









### İşlər ASAN olanda vətəndaş məmnun qalır

Rayon sakini Həbib Əzimov etibarnamə almaq üçün səyyar xidmətə müraciət etmişdi. Sənədləri hazır olana qədər bizimlə söhbətində maraqlı fikirlər səsləndirdi. Onun sözlərinə görə, "ASAN xidmət" yaranandan hər kəsin işi rahatlıqla qaydasına düşüb. Çünki kənd və rayon əhalisinin daim işlə-güclə, təsərrüfatla məşğul olduğu üçün hansısa sənəd almağa çox vaxtı olmur. Amma bu xidmət vətəndaşları tam məmnun edib:

"Etibarnamə almağa gəlmişəm. 10-15 dəqiqəyə sənədləri qaydasına salıb təqdim edirlər. Səyyar avtobus Cəlilabada tez-tez gəlir və biz də rahat şəkildə çatışmayan, vaxtı ötən sənədlərimizi yeniləyirik. Sağ olsun dövlət başçımız ki, ölkə vətəndaşlarının rahatlığı üçün belə bir nümunəvi xidmət yaradıb. Əvvəllər qapılarda saatlarla gözləyirdik. Bir möhürdən ötrü günlərlə idarələrin qabağında qalırdıq. İndi 5-10 dəqiqə içərisində istənilən məsələ həll edilir. Bundan yaxşı xidmət nə ola bilər ki? Bu, əladı və xalq da çox razıdır".

Ağsaqqal Həbib Əzimov da xidmətdən razılıq edir. Deyir ki, "ASAN xidmət" yaranmadan öncə hər hansı bir sənədi almaq üçün Lənkəran şəhərinə üz tuturdular. Bu da həm vaxt itkisi, həm də çox xərc aparırdı. İndi isə dövlət elə bir xidmət yaradıb ki, o, özü vətəndaşın ünvanına gəlib nə lazımdırsa həll edir: "Əvvəllər çox çətinlik çəkirdik, amma indi işlər çox asanlaşıb. Rayonumuzda belə xidmət yox idi. Banklarda, poçtlarda növbə gözləyirdik. İndi nə işimiz oldu səyyar avtobus gələndə tez bir zamanda həll edirik. Dövlətmizə, Prezidentimiz İlham Əliyevə təşəkkür edirik ki, rayonlarda yaşayan əhalinin işinin asanlaşması üçün mütəmadi olaraq qərarlar verir, yeni xidmətlər yaradır. Səyyar "ASAN xidmət" avtobusu da onlardan biridir. Hamıya eyni münasibət, eyni diqqət göstərilir. Növbə ilə hər kəs istədiyi məsələni çox rahatlıqla həll edib sevinə-sevinə evinə qayıdır. Belə xidmət heç bir yerdə yoxdur. Allah Prezidentimizdən razı olsun".

Göründüyü kimi, xidmətə müraciət edən hər bir kəs məmnunluq ifadə edir. Çünki siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanan Prezident İlham Əliyev 18 ildə xalqın rahatlığı üçün nə mümkündürsə edib.

Dövlət agentliyinin "ASAN"ı və onun səyyar xidmətləri bir daha təsdiq edir ki, cənab İlham Əliyevin vətəndaşlara daim diqqət və qayğı göstərilməsi ilə bağlı tapşırığı, habelə bir sıra tövsiyələri effektiv üsullarla yerinə yetirilir. Milli brendimiz olan "ASAN xidmət" fəaliyyətini getdikcə daha da şaxələndirir. Bu isə o deməkdir ki, tezliklə vətəndaşın məmnunluq əmsalı birmənalı şəkildə 100 faiz təşkil edəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***




# Tarixin ən qüdrətli Azərbaycanının və möhtəşəm Zəfərin müəllifi







# Elə güclü Azərbaycan qurdu ki...

Prezident İlham Əliyev güclü Azərbaycan qurdu. Elə bir Azərbaycan ki, bölgələrinin hamısı tarazlı inkişaf etdi, "ucqar kənd", "ucqar rayon" ifadələri keçmişdə qaldı. Bütün ölkə çıraqban oldu. Qaz xətləri ən uzaq dağ kəndlərinədək uzandı. Elə bir Azərbaycan ki, dinamik sosial-iqtisadi inkişafı ilə ən nüfuzlu beynəlxalq reytinq təşkilatlarını heyrətləndirdi, kosmosa yüksəldi, nəhəng neft, qaz və ixrac layihələri ilə Avropanın enerji xəritəsini yenidən çəkdi...

Prezident İlham Əliyev elə bir güclü Azərbaycan qurdu, elə yenilməz ordu formalaşdırdı ki, arxasında böyük "dayaq"ları olan düşmənə diz çökdürdü. 30 il ərzində yağının viran qoyduğu böyük bir ərazidə genişmiqyaslı quruculuq işlərinə başladı.

Dövlət başçısı deyir ki, bu gün artıq dəyişən dünyada güc amili rəsmi qaydada ön plana çıxıb və güc elə iqtisadiyyatdır: "İqtisadiyyat güclü olmasa, hərbi gücdən, siyasi gücdən söhbət gedə bilməz. Biz iqtisadi müstəqillik yaratmalı idik və yaratdıq. Artıq neçə ildir ki, Azərbaycan iqtisadi cəhətdən tam müstəqil ölkədir, heç kimdən asılı deyil, heç bir ölkədən asılı deyil, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil... Güc toplamaq üçün, əlbəttə ki, düzgün siyasət aparılmalıdır... Mənim fəaliyyətimdə ölkəmizin gücləndirilməsi, beynəlxalq müstəvidə mövqelərimizin möhkəmləndirilməsi, ölkə daxilindəki proseslərin müsbət məcrada getməsi əsas vəzifə idi. Heç bir təzyiq, heç bir təhdid məni bu yoldan döndərə bilmədi. Çünki bir amalım var idi - güclü Azərbaycan qurmaq, torpaqlarımızı işğaldan azad etmək! Biz bu illər ərzində böyük, nəhəng layihələri icra etdik. Bu layihələr bizə imkan verdi ki, biz iqtisadi inkişaf baxımından dünyada qabaqcıl yerlərdəyik".

Məlumdur ki, ərzaq, enerji və nəqliyyat təhlükəsizliyini təmin edə bilməyən ölkələrdə adətən ciddi problemlər yaranır, onlar sərbəst yaşamaq imkanına malik olmurlar. Son illər ərzində Azərbaycan dövləti düzgün və məqsədyönlü siyasət yürüdərək bu istiqamətdə önəmli layihələr həyata keçirdi. Məsələn, 2006-cı ildə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri, 2007-ci ildə "Şahdəniz" qazını daşıyan Bakı-Tbilisi-Ərzurum xətti istifadəyə verildi. Daha sonra Bakı-Tbilisi-Qars dəmir yolu çəkildi. Bunların ardınca nəqliyyat-logistika və digər sahələrdə də önəmli layihələr icra olundu. Bir sözlə, Azərbaycan qısa müddətdə regionun güc mərkəzinə çevrildi.

BTC Azərbaycan iqtisadiyyatının inkişafına böyük töhfələr verdi. Bu, ümumiyyətlə, bütün regiona xeyir-bərəkət gətirən kəmərdir. Yeri gəlmişkən qeyd edək ki, belə bir xəttin Ermənistandan yan keçməsi bu ölkənin həm siyasi imicinə, həm də əhalisinin güzəranına böyük zərbədir.

TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) dördüncü ildir Azərbaycan qazını uğurla Türkiyəyə nəql edir. İndi layihələrimizin yolu daha uzaq ünvanlaradır. TAP (Trans-Adriatik Qaz Boru Kəməri) TANAP-dan qəbul etdiyi mavi yanacağı keçən ilin son günündə Avropaya çatdırdı. Bununla da "Cənub qaz dəhlizi" tam fəaliyyətə başladı.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Cənub qaz dəhlizi" Azərbaycanın liderliyi ilə həyata keçirilən, tarixi əhəmiyyətə malik, xalqımızın firavan gələcəyini təmin edən, regionda, Avropada təhlükəsizliyin, əməkdaşlığın möhkəmlənməsinə xidmət göstərən qlobal layihədir. Dövlət başçısı bununla yanaşı, "Cənub qaz dəhlizi"nin beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq şəraitində reallaşdığını da dəfələrlə vurğulamışdır. Yəni "Cənub qaz dəhlizi" layihəsinin uğurla tamamlanması nümayiş etdirir ki, komanda şəklində aparılan iş həmişə yaxşı nəticə verir. Burada istehsalçı, tranzit və istehlakçı ölkələrin maraqları üst-üstə düşür. Belə ki, layihənin icrasında geniş beynəlxalq əməkdaşlıq formatı yaradaraq yeddi ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliya iştirak edir. Üç Balkan ölkəsi - Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro tərəfdaşlar kimi növbəti mərhələdə layihəyə qoşulacaqlar. Deməli, "Cənub qaz dəhlizi"nin "qol"larının da olacağı mümkündür. Çünki Avropanın Azərbaycan qazına ehtiyacı var. Eyni zamanda biz öz ixrac imkanlarımızı genişləndirmək istəyirik və bu baxımdan Avropa bazarı çox əlverişlidir.

Müəllifi İlham Əliyev olan "Cənub qaz dəhlizi" qarşıdan gələn 100 il ərzində Azərbaycan xalqına xidmət edəcək və milli iqtisadiyyatımızın inkişafında mühüm amil olacaq. Ölkəmizin regionda və Avropada nüfuzunun artmasını, Azərbaycanla Qərb arasında münasibətlərin daha yüksək pilləyə qalxmasını şərtləndirəcək. Azərbaycanın enerji ixrac edən və tranzit ölkə kimi əhəmiyyəti daha da artacaq. Layihədə iştirak edən bütün ölkələr, şirkətlər mənfəət götürəcəklər. Bu layihə Azərbaycana böyük gəlirlər gətirərək insanların rifahının yüksəlməsinə təsir göstərəcək, xalqımızın firavan gələcəyini təmin edəcək.

Prezident İlham Əliyev Azərbaycanın sosial-iqtisadi və hərbi qüdrətinin artmasında həyata keçirilən bu nəhəng layihələrin əhəmiyyətini dəfələrlə vurğulamışdır: "Bizim transmilli layihələrimiz regionda tamamilə yeni mənzərə yaratdı. Biz regionun enerji xəritəsini, nəqliyyat xəritəsini yenidən tərtib etdik. Bizim təşəbbüsümüzlə reallaşan layihələr təkcə bizim xalqımızın maraqlarını təmin etmir, bir çox ölkələrin maraqlarını təmin edir, o cümlədən region ölkələrinin. Qonşu ölkələrlə bizim həm ikitərəfli, həm üçtərəfli əməkdaşlıq formatlarımız vardır. Bütün bunlar Azərbaycanın beynəlxalq nüfuzunu böyük dərəcədə gücləndirdi. Əgər bu nailiyyətlər olmasaydı, problem dondurulmuş vəziyyətdə qala bilərdi".

Zaman Prezidentimiz tərəfindən qarşıya qoyulmuş vəzifələrin məqsədyönlü olduğunu, müəyyənləşdirilmiş strategiyanın düzgün seçildiyini təsdiqlədi. Həyata keçirilən çoxşaxəli proqramlar, dərin islahatlar ölkəmizi böyük inkişaf yoluna çıxardı. Odur ki, bu gün müstəqil Azərbaycan özünün ən şanlı dövrünü yaşayır. İqtisadi gücü ona bütün dünyada böyük nüfuz qazandırmış, eləcə də torpaqlarımızı işğaldan azad etməkdə, düşmən üzərində qələbə çalmaqda əsas səbəblərdən biri olmuşdur.

***Flora SADIQLI, "Azərbaycan"***

# 15 oktyabr — ZƏFƏR gündəliyi

## 2020-ci il

Oktyabrın 14-dən 15-nə keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli- Hadrut-Cəbrayıl istiqamətlərində əvvəlki günlərdə olduğu kimi vəziyyət gərgin olaraq qalıb.

Ermənistan silahlı qüvvələrinin bölmələri gecə ərzində cəbhənin bəzi istiqamətlərində Azərbaycan Ordusunun mövqelərinə basqın etməyə cəhd göstərib. Qoşunlarımız tərəfindən həyata keçirilən uğurlu tədbirlər nəticəsində qarşı tərəf ciddi itki verib və cəbhənin müxtəlif istiqamətlərində geri çəkilməyə məcbur edilib.



Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 1 ədəd "Tor-M2KM" zenit raket kompleksi, 4 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd D-20, 1 ədəd D-30 və 2 ədəd D-1 haubitsa topu, bir neçə PUA-sı və avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Əldə olunan məlumata əsasən Ermənistan silahlı qüvvələrinin müvəqqəti işğal etdiyi ərazilərdəki qüvvə və ehtiyatlarına ağır zərbə vurulub. Düşmənin canlı qüvvəsi, döyüş texnikası, silah-sursatı, yanacağı tükənmək üzrədir.

Humanitar atəşkəs rejiminə əməl edən qoşunlarımız bütün cəbhəboyu əməliyyat üstünlüyünü saxlayır.

❖ ❖ ❖

Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazilərini atəşə tutub. Tərtər rayonunda dəfn mərasimi zamanı əraziyə ağır atrilleriyadan atəş açılıb. Ölən və yaralananlar olub.

❖ ❖ ❖



Prezident İlham Əliyev Rusiyanın Ria Novosti agentliyi üçün "Rossiya Seqodnya Beynəlxalq İnformasiya Agentliyi" media qrupunun baş direktoru Dmitri Kiselyova müsahibə verib.

Ali Baş Komandan döyüş əməliyyatlarının nəticələri ilə bağlı verilən suala cavabında deyib ki, Azərbaycan Ordusu düşmənin dərin eşelonlaşdırılmış müdafiə xəttini yarmağa nail olub: "Bəzi sahələrdə hətta 4 müdafiə xətti vardı. Lakin ərazinin relyefi, dağ relyefi, əlbəttə, müdafiə olunmaq üçün əks-hücumla müqayisədə daha münasibdir. Bugünə qədər onlarca yaşayış məntəqəsi, o cümlədən Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun kəndlərinin çox hissəsi, Füzuli rayonunun kəndlərinin əksəriyyəti, strateji əhəmiyyətli Suqovuşan qəsəbəsi işğaldan azad edilib. Biz işğalçıları Murovdağ silsiləsindəki strateji yüksəkliklərdən çıxarmışıq və ölkəmizin ərazi bütövlüyünün bərpası üzrə uğurlu əməliyyatı davam etdiririk".

Prezident deyib ki, təkcə pilotsuz zərbə uçuş aparatları vasitəsilə düşmənin 1 milyard dollardan artıq dəyərində hərbi texnikası məhv edilib.

❖ ❖ ❖



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində paylaşım edib:

"Nə dərəcədə insaniyyətdən kənar, rəhmsiz və mənəvi tənəzzülə uğramış olmalısan ki, dəfn mərasimi zamanı qəbiristanlığı qəsdən atəşə tutasan? Dünya ictimaiyyətini Ermənistanın müharibə cinayətlərini qınamağa çağırıram. Həlak olanların ailələrinə və doğmalarına başsağlığı verirəm. Allah rəhmət eləsin".

❖ ❖ ❖

Prezident İlham Əliyev Türkiyənin NTV televiziyasına müsahibə verərək bir daha Azərbaycan Ordusunun uğurlu əməliyyatlarından danışıb. Qeyd edib ki, döyüş meydanında əsas hədəf strateji yüksəklikləri işğalçılardan azad etmək və böyük əraziləri nəzarət altına almaqdır:

"Bizim uğurlu əməliyyatımız davam edir. Bugünə qədər, - əlbəttə ki, hər gün bu rəqəmlər dəyişir, - təqribən 40-a yaxın, ya da ki, 40-dan çox yaşayış məntəqəsi, - şəhərlər və kəndlər işğalçılardan azad edilmişdir. Yaxın vaxtlarda növbəti sevincli xəbərlər, xoş xəbərlər gələcəkdir".

Ali Baş Komandan əməliyyatların tədricən, vahid bir planlama əsasında aparıldığını və bütün hədəflərin seçildiyini söyləyir.



Prezident bir daha Ermənistana mesaj ünvanlayır: "Ermənistan tərəfi, sadəcə olaraq, bu reallıqla hesablaşmalı və təcavüzünü dayandırmalıdır, atəşkəsə əməl etməlidir və qalan torpaqlardan da öz xoşu ilə çıxmalıdır ki, qan tökülməsin və bundan sonra bu məsələ sülh yolu ilə həll edilsin. Biz indi torpaqlarımızı azad edirik. Biz bayrağımızı artıq şəhərlərimizi əhatə edən dağlara sancırıq, şəhərlərimizdə mövcud olan binalara sancırıq, biz zəfər marşındayıq".

❖ ❖ ❖




Prezident xalqa növbəti xoş xəbəri çatdırıb. İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində yazıb:

"Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşulu, Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

Əks-hücum əməliyyatları zamanı mənəvi-psixoloji təminat tədbirləri çərçivəsində keçirilən təbliğat-təşviqat işi davam edib.

Ali Baş Komandanın müraciətləri, həmçinin işğaldan azad olunmuş kəndlər haqqında məlumatlar operativ şəkildə çap olunmuş bülletenlər və səyyar radioqovşaq vasitəsilə mülki sakinlərə çatdırılıb.

Keçirilən tədbirlər cəbhəboyu zonada yaşayan dinc sakinlər tərəfindən ruh yüksəkliyi ilə qarşılanıb.

❖ ❖ ❖



"France 24" televiziya kanalına müsahibə verən Prezident İlham Əliyev bir daha həqiqətləri söyləyib. Ermənistanın humanitar atəşkəsə əməl etmədiyini vurğulayan İlham Əliyev bəzi təxribatçı suallara da əsl diplomat və Baş Komandan kimi cavab verib.

Jurnalistin "Siz deyirsiniz ki, atəşkəs müəyyən olunandan sonra Azərbaycan tərəfindən heç bir zərbə endirilməmişdir? Hətta hərbi hədəflərə də?" sualını Prezident belə cavablandırıb: "Xeyr, hərbi hədəflərə zərbələr endirilmişdir. Biz bunu təkzib etmirik. Lakin bu təbiidir, çünki biz özümüzü müdafiə etməli idik. Atəşkəsə birtərəfli qaydada nail olmaq mümkün deyil. Əks halda, Ermənistan üstünlüyə malik olacaq və öz məqsədinə çatacaq. Əslində, onlar elə bunu etməyə çalışırlar. Onlar azad edilmiş əraziləri geri götürməyə cəhd edirlər. Xüsusilə onlar Hadrut şəhərini geri götürməyə cəhd ediblər. Lakin uğursuzluğa düçar oldular. Mənim onlara məsləhətim belədir və mən artıq Ermənistan hökumətinə və həmçinin Ermənistan xalqına açıq şəkildə mesajımı ünvanlamışam ki, onlar azad edilmiş əraziləri geri götürmək cəhdlərini dayandırmalıdırlar. Bu, yalnız yeni qurbanlara səbəb olacaq və qan tökülməsinə gətirib çıxaracaqdır".

❖ ❖ ❖



Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Qubadlı rayonu ərazisindən atdığı əməliyyat-taktiki raket Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu ərazisində partlayıb. Dinc sakinlərə və mülki obyektlərə zərər dəyməyib.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Naxçıvanda yeni qapalı suvarma şəbəkəsi qurulub









"Kənd təsərrüfatı ilə bağlı məsələlər xüsusi diqqət tələb edir... Çünki bu sahə həm məşğulluqdur, həm inkişafdır, həm də ixracdır", - deyən ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın bütün sahələri ilə yanaşı, kənd təsərrüfatının inkişafı da diqqətdə saxlanılır. Muxtar respublikada torpaq ehtiyatlarından səmərəli istifadə olunur, meliorativ tədbirlərin həcmi genişləndirilir, mütərəqqi suvarma şəbəkələri qurularaq istifadəyə verilir. Uzun müddət suvarılmayan torpaq sahələrindən bol məhsul götürülür, əhalinin məşğulluğu və rifahı yaxşılaşdırılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, oktyabrın 14-də "Naxçıvan Toxumçuluq Mərkəzi" publik hüquqi şəxsin Kəngərli rayonundakı əkin sahələrində tikilən yeni qapalı suvarma şəbəkəsi istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Yəhya Allahverdiyev məlumat verərək deyib ki, "Naxçıvan Toxumçuluq Mərkəzi" publik hüquqi şəxsin 364 hektar əkin sahəsini əhatə edən qapalı suvarma şəbəkəsinin tikintisi yerli mütəxəssislər tərəfindən aparılıb. Araz su anbarından götürülən su nasoslar vasitəsilə Böyükdüz kəndi ərazisində yerləşən hovuza vurulur və öz axını ilə müxtəlif diametrli borularla sahələrə verilir. Ərazidə 3800 metr ana xətt çəkilib və 34,7 kilometr paylayıcı boru xətti, 323 hidrant, 44 siyirtmə və 28 suboşaldıcı quraşdırılıb. Ərazidə qrunt sularını kənarlaşdırmaq üçün diametri 300 millimetr olan borularla 5590 metr qapalı drenaj xətti və 5250 metr açıq kollektor çəkilib. Ümumilikdə "Naxçıvan Toxumçuluq Mərkəzi" publik hüquqi şəxsin 2069 hektar əkin sahəsində qapalı suvarma şəbəkəsi qurulub.

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin rəisi Müslüm Cabbarzadə məlumat verib ki, Kəngərli rayonunda əkinəyararlı torpaq sahələrinin 9293 hektarı və ya 97 faizi suvarılandır. Həmin torpaqlardan dövlət mülkiyyətində olan 2069 hektarı "Naxçıvan Toxumçuluq Mərkəzi" publik hüquqi şəxsin istifadəsinə verilib və yerquruluşu xəritəsi hazırlanıb. Ərazidə ibtidai boz, bozçəmən, allüvial-çəmən torpaqlar daha geniş yayılıb. Arazboyu zonada səthə yaxın qrunt sularının, ətraf duz dağlarının təsiri nəticəsində şoranlaşmış torpaqlara da təsadüf olunur. Aqrotexniki qaydalara ciddi riayət etməklə əkin aparılması, normalara uyğun üzvi və mineral gübrələrin verilməsi, suvarma normalarına əməl edilməsi nəticəsində ərazidəki torpaqların daha səmərəli istifadə olunması təmin olunub və münbitlik göstəriciləri yaxşılaşıb.

Sonra Ali Məclisin Sədri muxtar respublikada payızlıq taxıl əkininin gedişi ilə maraqlanıb.

Bildirilib ki, 2022-ci ilin məhsulu üçün cari ilin payızında muxtar respublikada 30 min hektar sahədə şum aparılaraq taxıl əkini keçirilməsi nəzərdə tutulur. Payızlıq taxıl əkini ilə əlaqədar şum və səpin aparmaq üçün 771 təkərli, 67 tırtıllı, 118 taxılsəpən, 38 toxumtəmizləyən, 403 kotan, 287 qoşqu, 78 çizel və şırımaçan texnika saz vəziyyətə gətirilib. Cari ildə bütün taxıl sahələrinin şırım üsulu ilə əkilməsi nəzərdə tutulur. Bu məqsədlə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətində 7 və fiziki şəxslərdə olan 18 toxumsəpənə pulsuz olaraq şırımaçan aqreqatlar qoşulub. Hazırda muxtar respublika üzrə 15 min 118 hektar sahədə şum aparılıb ki, onun da 221 hektarı dəmyə sahələrdir. "Naxçıvan Toxumçuluq Mərkəzi"ndə 1200 hektar sahədə payızlıq taxıl əkini aparılması nəzərdə tutulub, 1065 hektarda şum, 300 hektardan artıq ərazidə isə səpin aparılıb. Mərkəzdə 88 texnika və texnoloji avadanlıq mövcuddur. Səpində 15 maşın, texnika və digər kənd təsərrüfatı aqreqatlarından istifadə olunur.

Payızlıq taxıl əkini zamanı hər hektara 180-250 kiloqram toxum səpilir. Bunun üçün muxtar respublikanın torpaq mülkiyyətçilərinə 6 min 500 ton arpa və buğda toxumları tələb olunur. Tələb olunan toxum "Naxçıvan Toxumçuluq Mərkəzi"ndə, "Araz" Elm-İstehsalat Birliyinin yardımçı təsərrüfatında və torpaq mülkiyyətçilərində mövcuddur. "Naxçıvan Toxumçuluq Mərkəzi"ndə 320, "Araz" Elm-İstehsalat Birliyinin yardımçı təsərrüfatlarında 128 ton buğda və arpa toxumları vardır. Əkin zamanı muxtar respublikanın torpaq iqlim şəraitinə uyğun sınaqdan keçirilmiş reproduksiyalı "Qobustan", "Fatimə", "Quality", "Quadilop", "Dağ-daş", "Ceyhan-99", "Bezostya-1", "Konya", "Bayraktar", "Əhmədağa", "Əkizlər" buğda və "Naxçıvandəni", "Cəlilabad-19", "Qarabağ-22" arpa və buğda sortlarından istifadə edilir.

Toxumların dərmanlanması və payızlıq taxıl sahələrində gəmiricilərlə mübarizə aparılması məqsədilə tələb olunan miqdarda dərman preparatları gətirilib, əkindən əvvəl toxumlar dərmanlanıb və toxumçuluq laboratoriyasında analiz olunaraq sertifikat verilib. Toxumların cücərmə qabiliyyəti 93-96 faizdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Naxçıvan Toxumçuluq Mərkəzi" publik hüquqi şəxsin 364 hektar ərazisində qapalı suvarma şəbəkəsinin qurulması münasibətilə kollektivi təbrik edərək deyib: "Ölkəmizdə gedən proseslərin tərkib hissəsi kimi muxtar respublikada da inkişaf, sabitlik və məskunlaşma təmin olunmuşdur. Əhali artımı nəzərə alınaraq müvafiq tədbirlər görülür, yeni torpaqlar əkin dövriyyəsinə qatılır, əkilən torpaqlardan aqrotexniki qaydalarda istifadəyə nəzarət və məhsuldarlıq artırılır. 2022-ci ildə ölkəmizdə torpaq mülkiyyətçilərinə subsidiyaların verilməsinin yeni qaydaları təsdiq olunmuşdur. Aidiyyəti qurumlar yeni qaydaları əhaliyə izah etməli, subsidiyaların aqrotexniki qaydalara əməl edən şəxslərə veriləcəyi diqqətə çatdırılmalıdır".

Ali Məclisin Sədri deyib: "Muxtar respublikada məhsuldarlığın artırılması üçün meliorativ tədbirlər görülür, əhaliyə lazımi texnikalar alınıb verilir, maarifləndirmə işləri aparılır, keyfiyyətli toxum sortlarından istifadə olunur. Məqsəd ondan ibarətdir ki, əkilən torpaqlardan bol məhsul götürülsün. Əgər yaxşı məhsul götürə bilmiriksə, bu, muxtar respublikamızın kənd təsərrüfatı sahəsində geriləməsinə, məhsuldarlığın aşağı düşməsinə səbəb olur. Eyni zamanda, əkinçi də qazanc əldə edə bilmir. Ona görə də həm dövlət, həm də əhali birgə səy göstərməlidir ki, əkilən torpaqlardan səmərəli istifadə olunsun, yüksək məhsul götürülsün".

Qeyd olunub ki, qapalı suvarma şəbəkəsinin qurulmasına 2 milyon manatdan artıq vəsait sərf olunub. Bu işlər ona görə həyata keçirilir ki, muxtar respublikamızda əhali artımı ilə bərabər, ərzaq artımı da həyata keçirilsin. Əgər əhali artımı varsa, deməli, ona uyğun kənd təsərrüfatı və digər sahələr də inkişaf etdirilməlidir. Bu işlər bundan sonra da davam etdiriləcəkdir. Kəngərli rayonunun Xok kəndindən başlamış Naxçıvan şəhərinin Qaraçuq kəndinə qədər olan, təqribən 2 min hektara yaxın ərazidə də meliorativ tədbirlər aparılacaq və bu ərazilər də dövlət fondunda qalmaqla əhaliyə icarəyə veriləcəkdir.

"Həyata keçirilən tədbirlər ölkəmizdə Ulu Öndər Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsi nəticəsində mümkün olmuşdur. Əgər ölkəmizdəki sabitlik, inkişaf və tərəqqi olmasaydı, bu işləri həyata keçirmək də mümkün olmazdı",- deyən Ali Məclisin Sədri bildirib ki, muxtar respublikanın mövcudluğu dövründən bu ərazilər ilk dəfədir ki, əkin dövriyyəsinə qatılır. Çünki bu cür münbit torpaqların əkin dövriyyəsinə qatılması üçün ölkənin güclü iqtisadi imkanları olmalı idi. Bu gün ölkəmizin iqtisadi imkanları bu tədbirlərin görülməsinə imkan verir. Nəticədə münbit torpaqlar əkin dövriyyəsinə qatılır ki, bu da ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır.

Ali Məclisin Sədri bu işlərin həyata keçirilməsində əməyi olanlara təşəkkür edib, çəkilən zəhmətin hər bir muxtar respublika sakininin həyatında özünü göstərdiyini bildirib.

Sonra Ali Məclisin Sədri qapalı suvarma şəbəkəsinin tikintisində iştirak edənlərə hədiyyələr təqdim edib və suvarma şəbəkəsini işə salıb.

Ali Məclisin Sədri ərazinin pasportlaşdırılması, payız suvarma mövsümünə başlanılması, toxumçuluq təsərrüfatında təbii gübrəyə üstünlük verilməsi, subsidiyaların verilməsinə nəzarət olunması, sifarişə uyğun kənd təsərrüfatı texnikalarının gətirilməsi, meliorasiya və irriqasiya işlərinin davam etdirilməsi və ərazidə yaşıllıq zolaqlarının salınması barədə tapşırıqlar verib.

# Tərtər rayonu üzrə 265 qazi və şəhid ailəsi üzvü özünüməşğulluq proqramına cəlb edilib









Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi şəhid ailələri və qazilər üçün özünüməşğulluq proqramı üzrə yaradılan kiçik təsərrüfatlarla tanışlıq məqsədilə növbəti mediatur təşkil edib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, jurnalistlər Tərtər rayonunda yaradılan kiçik təsərrüfatlarla tanış olublar. Məlumat verilib ki, Tərtər rayonu üzrə bu il həssas əhali qruplarına aid 265 şəxs özünüməşğulluq proqramına cəlb edilib.

## Şəhid atası özünüməşğulluq proqramına qoşularaq öz kiçik biznesini qurub

Şəhid Yasən Mehdiyevin atası Alim Mehdiyev postmüharibə dövründə növbədənkənar özünüməşğulluq proqramına cəlb olunub. Proqramın dəstəyi ilə bərbər fəaliyyəti üzrə avadanlıqlarla təmin edilərək kiçik biznesini qurub.

Alim Mehdiyev özünün yeni fəaliyyət sahəsindən razılıqla söhbət açır: "Bərbər fəaliyyəti göstərmək üçün lazımi avadanlıqlarım yox idi. Odur ki, özünüməşğulluq proqramına qoşulmaq üçün müraciət etdim. Kursa cəlb edildim. Şəhid ailəsi olduğumuz üçün növbədənkənar olaraq lazımi avadanlıqlarla, o cümlədən güzgülü mebel dəsti, çanaqlı, güzgülü saçyuma mebel dəsti, bərbər kreslosu, saç qurutma feni, saç kəsmə maşını, sterilizə aparatı, elektrikli su qızdırıcı, 3 ədəd stul, kondisionerlə təmin olundum. İndi çox rahat iş şəraitim var. Bu şəraiti yaratdığına görə dövlətimizə minnətdarlığımı bildirirəm".

## Vətən müharibəsi qazisi avtotəmizləmə avadanlıqları ilə təmin edilib

Vətən müharibəsi iştirakçısı Ceyhun Quliyev isə özünüməşğulluq proqramına qoşularaq avtotəmizləmə sahəsi üzrə avadanlıqlarla təmin edilib.

Ceyhun Quliyev özünüməşğulluq proqramına qoşulması ilə bağlı deyib: "Vətən müharibəsindən sonra Dövlət Məşğulluq Agentliyinin ərazi məşğulluq filialına avtoyuma fəaliyyəti ilə bağlı müraciət etdim. Təlimlərə cəlb olundum və qısa müddət sonra mənə yuma aparatı, tozsoran, köpük-maye püskürmə və buxarlı təmizlik avadanlıqları verildi. Çox razıyam. Avadanlıqlarım yeni və müasir olduğu üçün müştərilərim də çoxdur".

## Şəhid anası heyvandarlıq sahəsi üzrə təsərrüfat yaradıb

Şəhid Xəyal Aslanovun anası Nəzakət Aslanova proqramdan yararlanaraq iribuynuzlu heyvandarlıq sahəsi üzrə öz təsərrüfatını yaradıb.

"Oğlum Xəyal Vətən müharibəsində Suqovuşanın azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub. Müharibədən sonra müraciət edərək özünüməşğulluq proqramına qoşuldum. Üç baş iribuynuzlu heyvanla təmin edildim. Artıq inəklərdən ikisi bala verib. Heyvanlardan əldə etdiyim südlə həm ailəmin dolanışığını təmin edir, həm də satışını həyata keçirərək ehtiyacımızı ödəyirik", - deyə şəhid anası vurğulayıb.

Proqram iştirakçıları şəhid ailələri və qazilərə göstərilən diqqət və qayğıya, onlara öz kiçik bizneslərini yaratmaları üçün göstərilən dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər. Onlar öz ailə təsərrüfatlarını gələcəkdə genişləndirmək əzmində olduqlarını vurğulayıblar.

## Şəhid ailələri üzvlərinin, qazilərin sosial dəstəklə təminat tədbirləri 31 min şəxsi əhatə edir

Dövlət Məşğulluq Agentliyinin Strateji Kommunikasiya Departamentinin müdiri Mayis Musayev jurnalistlərə müsahibəsində 44 günlük Vətən müharibəsindən sonra şəhid ailələri üzvlərinin, qazilərin sosial dəstəklə təminat tədbirləri barədə məlumat verib. Bildirib ki, artıq 31 min şəxsi əhatə edən bu tədbirlərin bir istiqaməti də onların məşğulluq məsələlərinin həllidir. Postmüharibə dövründə həmin kateqoriyalara aid 5320 şəxs üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik biznes sahələri yaradılıb, 2019 şəxs isə münasib işlərlə təmin edilib. Şəhid ailəsi üzvləri və müharibədə yaralanmış qazilərin məşğulluğuna dəstək məqsədilə bu il iyunun 10-dan başlanan "Məşğulluq marafonu"na artıq 548 işəgötürən qoşulub və 2967 vakansiya təqdim edilib. Həmin vakansiyalar üzrə artıq 873 şəhid ailəsi üzvü və qazi işlə təmin olunub.

# Bolqarıstan Milli Kitabxanasında Azərbaycana dair daimi guşə açılıb

Oktyabrın 14-də Sofiya şəhərində yerləşən Müqəddəs Kiril və Mefodi adına Bolqarıstan Milli Kitabxanasında Azərbaycana dair daimi guşənin açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov, Bolqarıstan Milli Kitabxanasının direktoru Krasmira Aleksandrovna, Azərbaycanın Bolqarıstandakı səfiri Hüseyn Hüseynov və digər nümayəndələr iştirak ediblər.

Tədbirdə Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov çıxış edərək Bolqarıstan Milli Kitabxanasında olmasından məmnunluğunu ifadə edib. Qeyd edib ki, Azərbaycana dair daimi guşədə nümayiş olunmaq məqsədilə 100-dən artıq kitab Azərbaycan Milli Kitabxanasının Ehtiyat mübadilə fondundan Bolqarıstan Milli Kitabxanasına göndərilib. Direktor vurğulayıb ki, yaradılan daimi guşədə Azərbaycanın zəngin tarixi və mədəniyyəti, müasir inkişafı, eləcə də Qarabağ haqqında kitablar nümayiş olunur. Bildirib ki, Azərbaycan Milli Kitabxanası xarici ölkələrlə beynəlxalq kitab mübadiləsi işinə xüsusi əhəmiyyət verir. Gələcəkdə də Bolqarıstan Milli Kitabxanasına təqdim olunan kitabların sayının artırılmasının vacibliyini vurğulayıb.

Açılış mərasimində Azərbaycanın Bolqarıstandakı səfiri Hüseyn Hüseynov çıxış edərək Bolqarıstan Milli Kitabxanasında Azərbaycana dair daimi guşənin yaradılmasını təqdirəlayiq addım kimi qiymətləndirərək gələcəkdə də burada nümayiş olunan kitabların sayının artırılmasının vacibliyini qeyd edib və hər iki kitabxananın rəhbərliyinə öz təşəkkürünü bildirib.

Bolqarıstan Milli Kitabxanasında yaradılan Azərbaycan daimi guşəsi maraqla qarşılanıb.

Açılış mərasimi çərçivəsində M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası ilə Müqəddəs Kiril və Mefodi adına Bolqarıstan Milli Kitabxanası arasında qarşılıqlı əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.

Anlaşma memorandumunu Azərbaycan Milli Kitabxanası tərəfindən direktor Kərim Tahirov, Bolqarıstan Milli Kitabxanasından isə direktor Krasmira Aleksandrovna imzalayıblar.

Səfir Hüseyn Hüseynov bildirib ki, Azərbaycan ilə Bolqarıstan Milli kitabxanaları arasında qarşılıqlı əməkdaşlığa dair memorandumun imzalanması çox qürurverici haldır. Belə ki, hər iki ölkə kitabxanaları arasında olan qardaşlıq, dostluq münasibətləri imzalanan memorandumdan sonra daha da möhkəmlənəcək.

Müqavilənin şərtlərinə əsasən tərəflər kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması, elektron kataloq və elektron kitabxanalardan qarşılıqlı istifadə, məlumat bazalarının idarə edilməsi, kitabxana və kitab nəşri sahəsində elmi tədqiqatlar, nadir kitabların mühafizəsi, bərpası və konservasiyası texnologiyaları, kitabxana arxivlərinin keyfiyyətinin təkmilləşdirilməsi məqsədilə beynəlxalq kitab mübadiləsinin inkişafı, kitab sərgilərinin təşkili və s. sahələrdə əməkdaşlıq etmək barədə razılığa gəliblər.

Direktor Kərim Tahirov Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından nəşr etdirdiyi "Nizami Gəncəvi. Biblioqrafiya" kitabını və "Sözləri Nizamінindir" adlı CD disk albomunu Bolqarıstan Milli Kitabxanasının direktoru Krasmira Aleksandrovnaya hədiyyə edib.

Mərasimdən sonra Kərim Tahirov Bolqarıstan Milli Kitabxanası ilə yaxından tanış olub. Ona kitabxananın elektron imkanları, elektron kitabxana, tətbiq edilən qabaqcıl təcrübələr, habelə istifadəçilərə göstərilən xidmətlər haqqında məlumat verilib.

Həmçinin Kərim Tahirov "Bolqarıstan Gənclər Qırmızı Xaç" təşkilatının yaranmasının 100 illiyinə həsr olunan tədbirdə də iştirak edib.

# İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin rəsmiləri Şuşada modul tipli xəstəxananın şəraiti ilə tanış olublar

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini Nigar Bayramova Şuşada yeni quraşdırılan modul tipli xəstəxananın şəraiti ilə tanış olub.

Agentliyin Marketinq və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, N.Bayramova bildirib ki, ölkə başçısının tapşırığına əsasən istifadəyə verilən Şuşa modul tipli xəstəxana ölkəmizdə səhiyyə infrastrukturunun təkmilləşdirilməsi istiqamətində atılan növbəti addımdır.

O qeyd edib ki, xəstəxananın quraşdırılması tibbi xidmətləri əhali üçün əlçatan edir: "Vətəndaşlar burada icbari tibbi sığortanın Xidmətlər Zərfi çərçivəsində tibbi xidmətlərdən ödənişsiz şəkildə yararlana biləcəklər".

Nərimanov Tibb Mərkəzinin rəhbəri, Şuşa modul tipli xəstəxanaya təhkim edilən Fazil Alməmmədov İdarə Heyəti sədrinin müavininə xəstəxanada görülən tədbirlər barədə məlumat verib. O bildirib ki, Şuşa modul tipli xəstəxanada yaradılan şərait, müasir tibbi avadanlıqlarla təchizat vətəndaşların müayinə və müalicəsinə xidmət edəcək: "Xəstəxana mərkəzləşdirilmiş oksigen generator sistemi ilə təchiz olunub. Əməliyyat və intensiv terapiya otaqlarında, eyni zamanda bütün palatalarda oksigen xətti mövcuddur. Xəstəxanada təcili tibbi yardım, poliklinika, laboratoriya, funksional diaqnostika, anesteziologiya-reanimasiya və stasionar xidmətlər göstəriləcək".

Xəstəxananın təchizatı barədə məlumat verən F.Alməmmədovun sözlərinə görə, funksional diaqnostika otağı portativ rentgenoqrafiya aparatı ilə təmin olunub.

Məlumata əsasən, tibb müəssisəsinin laboratoriyasında ümumi və biokimyəvi analizlərin aparılması mümkündür. Xəstəxanada travmatoloq, ümumi cərrah, kardioloq, revmotoloq, anestezioloq-reanimatoloq, funksional diaqnostika həkimi, orta və kiçik tibb işçiləri, eləcə də qeyri-tibb işçiləri çalışırlar. Hazırda xəstəxanada 9 çarpayı yeri mövcuddur.

Daha sonra xəstəxanada yaradılmış şəraitlə tanışlıq olub.


## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Sağlamlıq imkanları məhdud uşaqlar və əlilliyi olan şəxslər üçün respublika və beynəlxalq idman yarışlarının təşkili və bu yarışlara həmin şəxslərin hazırlığının və iştirakının təmin edilməsi" adlı müsabiqə keçirir

**Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.**

**İştirak haqqı yoxdur.**

Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 01 noyabr 2021-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 02 noyabr 2021-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5037)

***Müsabiqə komissiyası***

“AZƏRBAYCAN”a cavab verirlər

# Nöqsanlar aradan qaldırılır

Qəzetimizin 2021-ci il 13 iyul tarixli nömrəsində dərc olunmuş “Cəlilabadda taxıl istehsalı niyə azalıb” başlıqlı məqalədə qaldırılmış problemlərlə (taxıl toxumlarının keyfiyyətsizliyi və fermerlərə taxıl əkininə görə subsidiyaların vaxtında verilməməsi) bağlı Kənd Təsərrüfatı Nazirliyindən redaksiyamıza məktub daxil olmuşdur.

Nazir müavini İlhamə Qədimovanın imzaladığı məktubda yazılır:

“Bildiririk ki, ölkədə toxum ticarəti azad surətdə həyata keçirilir, satış qiyməti isə tələb və təklifdən asılı olaraq sərbəst formalaşır.

2020-ci ildə ölkədə dənli taxıl bitkilərinin (buğda və arpa) 111274,3 ton sertifikatlı toxumu istehsal edilmişdir ki, bunun da 108714,2 tonu R1 və R2 reproduksiyalı toxum olmuşdur.

2020-ci ildə ölkənin cənubunu (Salyan, Neftçala, Biləsuvar, Cəlilabad, Masallı və Lənkəran) əhatə edən rayonlarda 28 toxumçuluq təsərrüfatı tərəfindən 3734 ton sertifikatlı toxum istehsal edilərək 2021-ci ilin məhsulu üçün səpilmişdir.

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi toxumçuluq təsərrüfatları tərəfindən ölkədə istehsal edilərək kondisiyaya çatdırılmış toxumların sertifikatlaşdırılmasını həyata keçirir və sertifikatlaşdırdığı toxumların səpin keyfiyyətlərinin etibarlığını təsdiqləyir.

Məqalədə qeyd edilən “Moran Aqro” MMC toxumçuluq təsərrüfatı tərəfindən 2020-ci ildə kondisiyaya çatdırılmış 530 ton buğda toxumu Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin Laboratoriya Ekspertiza və Sertifikatlaşdırma Mərkəzi tərəfindən sertifikatlaşdırılmışdır. Lakin tədarük edilmiş, idxal olunmuş, mənşəyi bilinməyən və sertifikatlaşdırılmadan satılmış toxumlar barədə məlumatları Aqrar Xidmətlər Agentliyi əldə edə bilmir. “Moran Aqro” MMC və digər toxum satıcıları tərəfindən bölgələrdə Aqrar Xidmətlər Agentliyi tərəfindən sertifikatlaşdırılmamış və satılmış, mənşəyi məlum olmayan əkin materiallarının keyfiyyətinə məsuliyyət onların öz üzərinə düşür.

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 21 may tarixli 701 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi haqqında Əsasnamə”nin 3.0.20-ci və 3.0.26-cı yarımbəndlərinə müvafiq olaraq dövlət reyestrində qeydə alınmamış, habelə istifadəsi qadağan olunmuş bitki sort və hibridlərinin istehsalının və satışının qarşısının alınması üçün tədbirlər görmək və qanunla müəyyən edilmiş tələblərə uyğun gəlməyən və keyfiyyət sənədləri olmayan toxumları və əkin materiallarını çıxdaş etmək və onların toxumluq məqsədilə satışının qarşısını almaq agentliyin vəzifələri olaraq müəyyənləşdirilmişdir. Lakin “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1410-IVQ nömrəli Qanununun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 oktyabr tarixli 660 nömrəli Fərmanının tələblərinə əsasən agentlik yuxarıda sadalanan vəzifələrini həyata keçirə bilmir.

Məqalədə qeyd edilən nöqsanların aradan qaldırılması üçün Kənd Təsərrüfatı Nazirliyi tərəfindən:

1. “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında “Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1410-IVQ nömrəli Qanununun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 oktyabr tarixli 660 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” fərman layihəsi (dövlət reyestrində qeydə alınmamış, istifadəsi qadağan olunmuş bitki sort və hibridlərinin istehsalının, satışının qarşısının alınması standartların tələblərinə uyğun gəlməyən, keyfiyyət sənədləri olmayan toxumları və əkin materiallarını çıxdaş etmək və onların toxumluq məqsədilə satışının qarşısını almaq) hazırlanaraq müvafiq qaydada baxılması üçün aidiyyəti dövlət orqanlarına (qurumlarına) təqdim olunmuş, lakin layihənin razılaşdırılması mümkün olmamışdır.

2. 2021-ci ildə dövriyyəyə daxil edilən sertifikatlı toxumların hərəkətinin izlənilməsi üçün vahid etiketləşmə və izlənmə kodu tətbiq edilmişdir.

3. Sertifikatlı toxumlardan istifadənin üstünlükləri barədə maarifləndirmə işləri (KİV-də) həyata keçirilir.

4. Sertifikatlı toxumlardan istifadənin üstünlükləri və məhsul istehsalçılarının əlçatanlığının təmin olunması üçün 2021-ci ilin sentyabr ayında 6 bölgədə, o cümlədən Cəlilabad rayonunda “Toxum nümayişi və satışı” sərgi-yarmarkaları keçirilmişdir.

Eyni zamanda məqalədə Cəlilabad və digər rayonlar üzrə fermerlərə apardıqları əkinlərə görə dövlət büdcəsinin vəsaiti hesabına əkin subsidiyasının vaxtında verilməməsi nəticəsində taxılçılıqda məhsuldarlığın aşağı düşməsi, habelə bəzi fermerlərin torpaq sənədlərinin qaydasında olmaması ilə əlaqədar subsidiyanı ala bilməməsi qeyd olunmuşdur.

Bildiririk ki, 2021-ci il 1 yanvar tarixindən etibarən subsidiyaların verilməsi “Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası”na və fərmanın 3.3-cü bəndinə əsasən Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin 2019-cu il 30 dekabr tarixli 05Q nömrəli Qərarı ilə təsdiq edilmiş “Kənd təsərrüfatı məhsullarının istehsalçılarına subsidiyaların verilməsinin təşkili üçün xidmət reqlamentləri”nə uyğun olaraq “Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi” (EKTİS) vasitəsilə həyata keçirilir.

Qaydanın 3.8-ci bəndinə əsasən, fermerlər bitkiçilik sahəsi üzrə subsidiyaları almaq üçün bu qayda ilə müəyyənləşdirilən müddətlərdə torpaq sahəsindən istifadə hüququna dair sənədləri və əkinləri barədə məlumatları EKTİS-ə daxil etməlidirlər. Qaydanın 5.1.3-cü yarımbəndinə əsasən, seçmə üsulu ilə əkinlərin aparıldığı yerlərdə Kənd Təsərrüfatı Nazirliyinin dövlət aqrar inkişaf mərkəzlərinin mütəxəssisləri nəzarət və qiymətləndirmə tədbirlərini həyata keçirir. Qaydanın 5.2-ci bəndinə əsasən bəyan edilmiş əkin sahəsinə görə hesablanan məbləğ monitorinq nəticəsində müəyyənləşdirilmiş məbləğdən çox olduqda, veriləcək subsidiya azaldılır və ya cari il və sonrakı il subsidiya ödənilmir.

Qaydanın və müvafiq reqlamentin tələblərinə uyğun torpaq sənədlərini və məlumatlarını EKTİS-ə daxil etməyən fermerlərə sistem tərəfindən subsidiya hesablanmır. Mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq sənədlərini EKTİS-ə daxil edən və əkin subsidiyasına müraciət edən fermerlərə bəyan etdikləri əkinlərə görə monitorinqin nəticələrinə uyğun olaraq hesablanmış əkin subsidiyasının ödənilməsi Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən təmin edilir.

Belə ki, 2020-2021-ci ilin əkin dövrü üzrə Cəlilabad rayonunda Qaydaya uyğun olaraq payızlıq əkinlərə müraciət etmiş 15782 fermerdən 15544 fermerə (fermerlərin 98,5 faizini əhatə etməklə) yazlıq əkinlər üzrə 1265 fermerdən 1195 fermerə (fermerlərin 94,5 faizini əhatə etməklə) müvafiq olaraq cari ilin mart-aprel və iyun-iyul aylarında əkin subsidiyasının vaxtında verilməsi təmin edilmişdir. Həmçinin Qaydanın 5.2-ci bəndinə əsasən subsidiya bəyan edilmiş əkin sahəsinə görə hesablanan məbləğ monitorinq nəticəsində müəyyənləşdirilmiş məbləğdən çox olduğuna görə (yəni fermer əkinlə bağlı yanlış məlumatları EKTİS-ə daxil etdiyi üçün) 85 fermerə subsidiya ödənişi həyata keçirilməmişdir. EKTİS-də qeydiyyatdan keçib əkin bəyan edən, yalnız torpaqdan istifadə hüququna dair sənədləri olmayan və ya sənədləri qaydasında olmayan fermerlər barədə məlumat dövri olaraq aidiyyəti üzrə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim olunur. Belə vətəndaşlar İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə müraciət edərək istifadə hüququna dair sənədlərini əldə etdikdən sonra növbəti dövrdə subsidiya almaq üçün müraciət edə bilərlər”.

# AZAL hava gəmiləri parkına yeni Boeing 787 Dreamliner təyyarələrini əlavə etməklə uçuşlarının coğrafiyasını genişləndirəcək

“Azərbaycan Hava Yolları” QSC-nin Mətbuat xidməti məlumat verir ki, oktyabrın 14-də Bakı şəhərində AZAL-ın prezidenti Cahangir Əsgərov ilk dəfə Bakıya işgüzar görüşlə səfər edən “Boeing Commercial Airplanes” şirkətinin Rusiya və MDB ölkələrində Satış və Marketinq üzrə vitse-prezidenti Monte Freyzerlə görüşmüşdür. Görüşdə şirkətin satış üzrə direktoru Volkan Eser də iştirak etmişdir.



Görüş çərçivəsində “Azərbaycan Hava Yolları” aviaşirkəti üçün yeni Boeing 787 Dreamliner təyyarələrinin çatdırılmasına dair ilkin razılaşma əldə edilib. Tərəflər “Boeing” korporasiyası tərəfindən 9 genişfüzelyajlı Dreamliner təyyarəsinin təchizat imkanlarını müzakirə ediblər. Həmin təyyarələr AZAL-ın hava gəmiləri parkına daxil olan mövcud Boeing 757, Boeing 767 və Airbus A340 təyyarələrini 2030-cu ilin sonunadək əvəz edəcək.

Müvafiq təklif hazırlandıqdan sonra “Azərbaycan Hava Yolları” QSC-nin Müşahidə Şurasının və Azərbaycan İnvestisiya Holdinqinin müzakirəsinə təqdim olunacaqdır.

Hazırda AZAL aviaşirkəti uzaqməsafəli istiqamətlərdə özünü doğruldan iki Boeing 787-8 Dreamliner təyyarəsini istismar edir. AZAL postsovet məkanında Boeing 787-8 Dreamliner təyyarəsi istismar edən ilk aviaşirkətdir. Aviaşirkətin hava gəmiləri parkına belə yeni təyyarələrin daxil edilməsi “Azərbaycan Hava Yolları”nın bütün dünyada uçuşlarının coğrafiyasını daha da genişləndirəcəkdir.

Görüş zamanı tərəflər AZAL və Boeing arasında tərəfdaşlıq və dostluq münasibətlərini yüksək qiymətləndiriblər və qarşılıqlı faydalı əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əmin olduqlarını bildiriblər.

# Son sutkada Azərbaycanda koronavirus infeksiyasına 1448 yeni yoluxma faktı qeydə alınıb




Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 1448 yoluxma faktı qeydə alınıb, 847 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 11 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 496 min 780 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 476 min 229 nəfər müalicə olunaraq sağalıb, 6 min 720 nəfər vəfat edib. Aktiv xəstə sayı 13 min 831 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 10 min 92, bugünə qədər isə ümumilikdə 4 milyon 989 min 627 test icra olunub.

# Dünən Azərbaycanda COVID-19 əleyhinə 33 min dozadan çox peyvənd vurulub




Oktyabrın 14-də Azərbaycanda 33 min 441 nəfər yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə vaksinasiya olunub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, gün ərzində birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 12 min 763, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 20 min 678 nəfər təşkil edib.

Azərbaycanda bugünə qədər vurulan vaksinlərin ümumi sayı 9 milyon 106 min 934, birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 4 milyon 929 min 657, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı 4 milyon 177 min 277 nəfər təşkil edir.

# Qlobal istiləşmə dövründə gözlənilməz hadisə

## Cənub qütbündə ən soyuq mövsüm qeydə alınıb

Şimal yarımkürəsinin əksər hissəsində dağıdıcı daşqınlar, qasırğalar və yanğınlarla müşayiət olunan rekord dərəcədə isti yay fonunda Antarktidada güclü şaxtalar qeydə alınıb. Qitənin cənub nöqtəsində bu, adətən qış aylarında baş verir. Lakin 2021-ci ildə hər şey əksinə olub. Aprel-sentyabr ayları dövründə Antarktidadakı Amundsen-Skott stansiyasında orta temperatur selsi üzrə mənfi 61 dərəcə olmuşdur. Bu, 1957-ci ildən bəri, bütün müşahidələr tarixi boyu ən soyuq temperaturdur.

Bu gözlənilməz hadisəni alimlər təsadüf kimi qiymətləndirirlər. Çünki Antarktida planetin qalan yerləri kimi ekstremal hava şəraiti fonunda sürətlə qızmaqda davam edir.

İlk olaraq, temperatur rekordu barədə meteoroloq Stefano Di Battista məlumat verib. Sonradan bu informasiyanı NASA-nın Qlobal Modelləşdirilmə və Assimiliyasiya İdarəsinin tədqiqatçı alimi Riçard Kalleter təsdiqləyib.

Bildirilir ki, avqust ayında Antarktida üzərindəki ekstremal soyuqlar qitə ətrafında dəniz buzunu bütün müşahidələr tarixi boyu qeyd olunan səviyyənin 5-ci dərəcəsinə qaldırıb.

Viskonsin Universitetinin alimi və Antarktida meteorologiyası üzrə ekspert Metyu Lazzara deyir ki, göstərilən dövrdə temperatur dəfələrlə mənfi 73 dərəcəyə yaxınlaşıb. Belə temperaturlarda təyyarəni idarə etmək çətindir. Belə ki, hidravlik sistem dona bilər və yanacaq jeleyə çevrilər.

Dünyada ekstremal hava şəraiti üzrə mütəxəssis, iqlimşünas Maksimiliano Errera bildirir ki, dünən Rusiyanın “Vostok” stansiyasında mənfi 79,4 dərəcə temperatur qeydə alınıb.

Alimlər hesab edirlər ki, bu şaxtaların arxasında güclü qütb çovğunu, yaxud Antarktida ətrafında stratosferdə güclü küləklər halqası dayanır.

NASA-nın elmi əməkdaşı Kşiştof Varqan deyir ki, çovğunun gücü yerdəki hava ilə əlaqəlidir və Cənub halqa rejimi adlanan sikldən asılıdır. Hazırda həmin sikl müsbət fazada olduğuna görə çovğun intensivləşib.

Digər amerikalı alim Emi Batler isə hesab edir ki, qütb stratosferində əsən küləklər əvvəlkilərdən daha güclü olub və bu, qütbə yönəlmiş axının dəyişməsi ilə əlaqədardır. Nəticədə Antarktidanın əksər hissəsi üzərində soyuq hava “bağlı” qalır.

Alim yazır ki, güclü qütb çovğunu Antarktida üzərində şaxtanı saxlamaqla bərabər, həm də stratosfer ozonunun tükənməsinə aparan prosesləri sürətləndirir. Bu il Antarktida üzərindəki ozon dəliyi orta göstəricidən xeyli çoxdur və çovğunun qarşısını alarkən təxminən 24 milyon kvadratkilometrə çatıb.



Alimlər vurğulayıb ki, cənub qütbü üzərində qeydə alınan rekord soyuqlar qlobal istiləşmə nəzəriyyəsini təkzib etmir. Belə ki, Antarktidada qlobal tendensiyalara zidd olan kəskin hava və iqlim dəyişikliklərinin baş verməsi məlumdur.

Antarktidada iqlimlə bağlı baş verənləri qiymətləndirmək üçün bir mövsümlük məlumat azdır. Vaşinqton Universitetinin atmosfer elmləri professoru Erik Steyq bildirir ki, “bir soyuq qış maraqlıdır, lakin bu, istiliyə doğru uzunmüddətli tendensiyanı heç cür dəyişmir”.

***Rizvan CƏFƏROV,***
***“Azərbaycan”***

# Dənizkənarı Bulvarda böyük Qələbəmizə həsr olunan “Zəfər” yarmarkası keçiriləcək

Tezliklə Dənizkənarı Bulvarda böyük Qələbəmizə həsr olunan “Zəfər” yarmarkası keçiriləcək.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, “Qarabağ qəhrəmanlarının izi ilə” mövzusunda baş tutacaq yarmarkadan əldə olunan gəlir şəhid ailə üzvləri və yaralılarımıza dəstək olmaq məqsədilə “YAŞAT” Fonduna ianə ediləcək.

“Zəfər” yarmarkasında iştirak etmək istəyən şirkətlər 8110 nömrəsi ilə əlaqə saxlaya bilərlər.

# Paşinyanın Rusiya səfəri Ermənistanda tənqidlə qarşılanıb

Rusiya Prezidenti Vladimir Putinlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında Moskvada keçirilən görüş İrəvanda müzakirə mövzusuna çevrilib.

Görüşdən sonra Paşinyan Rusiya Prezidenti ilə görüşünü səmərəli adlandırıb. O, bu barədə rəsmi “Twitter” səhifəsində yazıb: “Rusiya Prezidenti Vladimir Putinlə görüşdüm. Görüş çox məhsuldar keçdi. Həm ikitərəfli gündəmi, həm də bölgədəki vəziyyəti müzakirə etdik. Əldə olunan razılaşmaları həyata keçirmək üçün təmasları davam etdirəcəyik”.

N. Paşinyan həmçinin qeyd edib ki, hələlik regionda vəziyyətin tam sabitləşməsindən danışmaq olmaz. Onun sözlərinə görə, regionun təhlükəsizliyinin təmin olunmasında Rusiya açar rolunu oynayır.

Daha əvvəl Ermənistan hökumətinin Mətbuat xidməti Paşinyanla Putinin İrəvan və Moskvanın müttəfiq gündəliyi, regional təhlükəsizlik məsələləri, Qarabağla bağlı bəyanatların icrası, eləcə də inteqrasiya birliklərində qarşılıqlı əlaqəni müzakirə etdiklərini açıqlamışdı.

Ermənistanın İslahatçılar Partiyasının sədri Vahan Babayan isə bununla bağlı bildirir: “Moskvada çox cəld şəkildə Paşinyanı imzalanmalı olanı imzalamağa məcbur edəcəklər”. Erməni siyasi xadimin sözlərinə görə, Ermənistanın bugünkü fəaliyyəti müharibəyə yenidən başlamağa əsaslanmamalıdır: “Təəssüf ki, müharibədən bir il keçib, lakin diplomatlarımızın Şuşa haqqında qışqırmasını eşitməmişəm”.

Ermənistanın “1in.am” nəşri yazır ki, bu fonda İrəvanda mövcud olan daxili siyasi dayazlıq daha da aşkar olur. Nəşrə görə, söhbət daxili siyasi həyatın mürəkkəb vəziyyətindən deyil, şərti olaraq regional inkişaflarda maraqlı olan və ziddiyyətli strategiyaları olan mərkəzlərə və region ölkələrinə Ermənistanı “asanlıqla” deşifrə etməyə, beləliklə də ölkə ilə bağlı oyunla əlaqəli olan problemləri həll etməyə imkan verməyəcək mürəkkəb çətinlikdən gedir: “Bu səbəbdən oyunun iştirakçısı olmaq üçün böyük maliyyə-iqtisadi resurslar yoxdursa, belə ölkələrə daxili siyasi quruluşun məzmun mürəkkəbliyi və çoxqatlılığı lazımdır. Lakin Ermənistanda illər ərzində davamlı olaraq hər şey daxili siyasi dayazlıq yaratmaq, bunu reallaşdırmaq üçün edilib, siyasi mətnlər olmadıqda və ən yaxşı halda siyasi mətnlər səslənəndə həm şimalda, cənubda, həm də qərbdə və şərqdə üçüncü ölkələrin maraqlarına xidmət etməyə qeyd-şərtsiz hazırlıq haqqında danışılıb. Məhz bu daxili siyasi dayazlıq Ermənistandakı və onun ətrafındakı vəziyyətin mürəkkəbliyini, ondan irəli gələn problemləri göstərir. Bu mənada Paşinyanın Rusiyaya son səfəri də ölkəyə hər hansı uğur qazandırmadı”.

Azərbaycanın Ermənistanla münasibətləri bir-birinin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərin toxunulmazlığına hörmət əsasında normallaşdırmaqdan, iki ölkə arasında sülh müqaviləsinin imzalanması və sərhədlərin delimitasiya və demarkasiyası barəsində təkliflərinin İrəvanın qəbul etməkdən başqa yolunun olmadığı xüsusi qeyd edilir. Hesab edilir ki, bu, Rusiyanın da maraq dairəsindədir. Elə bu səbəbdən bu məsələ Rusiyada Paşinyanın diqqətinə çatdırılıb.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Məktəblilər arasında "AZERCELL CUP" proqramlaşdırma üzrə müsabiqənin final mərhələsi baş tutdu




Şirkətin Mətbuat xidmətinin verdiyi məlumata görə, Təhsil İnstitutunun İstedadlı uşaqlarla iş şöbəsi və İnformatika üzrə Milli Olimpiada komandasının məğrur tərəfdaşı"Azercell Telekom" MMC-nin proqramlaşdırma üzrə elan etdiyi "AZERCELL CUP" müsabiqəsinin final mərhələsi keçirilib.

ADA-da 6-8-ci sinif şagirdləri arasında baş tutan müsabiqədə iştirakçılara həll edilməsi üçün 5 alqoritmik məsələ və 3 saat vaxt verilib. Yarışın sonunda nəticələr və medalçılar elan olunub. Xatırladaq ki, müsabiqəyə qeydiyyat https://www.olimpiada.edu.az saytı üzərindən aparılıb. Birinci tur onlayn şəkildə iyunun 27-də baş tutub. Müsabiqənin əsas məqsədi rəqəmsal texnologiyalara, informatika elminə, kompüter mühəndisliyi və proqramlaşdırmaya marağı olan məktəblilərə dəstək olmaqdır. Həmçinin müvafiq sahələr üzrə məntiqi təfəkkürün inkişaf səviyyəsi, alqoritmik düşünmə qabiliyyəti və problem həlli bacarığı ilə fərqlənən şagirdləri müəyyənləşdirərək onları həvəsləndirmək, beynəlxalq olimpiadalara hazırlıq məşğələlərinə cəlb etmək, onların fərdi və elmi inkişafına töhfə verməkdir.

2017-ci ildən etibarən məktəblilərimizin Beynəlxalq İnformatika Olimpiadalarına hazırlıq prosesi "Azercell" şirkətinin köməyi ilə həyata keçirilir və onların inkişafı üçün təşəbbüslər davamlı olaraq dəstəklənir. Şirkət Azərbaycanın müxtəlif bölgələrindən və paytaxt məktəblərindən onlarla şagirdin hazırlıq prosesinə cəlb edilməsinə yardımçı olur. Belə ki, hazırlıqdan keçən şagirdlərimiz mötəbər beynəlxalq bilik yarışlarında yüksək nəticələr əldə edirlər. İndiyədək azərbaycanlı şagirdlər informatika fənni üzrə bilik yarışlarında 27 medal qazanıblar.


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

*"Azərmətbuatyayımı" ASC (012) 440-46-94, (012) 441-19-91*
*"Azərpoçt" ASC (012) 598-49-55, (051) 225-02-13*
*"Qaya" firması (012) 566-77-80, (050) 214-40-53*
*"Kaspi" MMC (012) 432-39-55, (012) 510-82-24*
*"Region Press" MMC (055) 316-79-01, (050) 316-79-01*
*"Səma-M" MMC (012) 594-09-59*
*"Ziya" LTD (012) 497-76-96, (050) 306-77-22*
*"Pressinform" MMC (012) 598-49-52, (070) 340-01-00*
*"City press" MMC (055) 819-09-26*

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi Şuşa şəhər 1 nömrəli 960 şagird yerlik tam orta məktəbin tikintisi işlərinin satın alınması üçün *açıq tender elan edir*

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, yüksək keyfiyyət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət edə bilərsiniz:

Əlaqələndirici şəxs - Sirac Əliyev.
Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.
Tel: (+99412) 465 73 48 (110).

Maraqlananlar açıq tender prosedurunun Əsas şərtlər toplusunu 1500,0 (bir min beş yüz) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçı açıq tender prosedurunda iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *iddiaçının tenderdə iştirak etmək üçün yazılı müraciəti;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçı işlərin həyata keçirilməsi üçün müvafiq lisenziyaya malik olmalıdır;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının peşəkarlığı və təcrübəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin Əlavə 1-nə uyğun);*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli (Əlavə 1)*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, eləcə də satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər;*
- *iddiaçı inşa etdiyi analoji tikililər barədə istismara qəbul Dövlət Aktının surətini və ya inşasını davam etdirdiyi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir;*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır);*
- *iddiaçının tender təklifinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmalar haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 22 noyabr 2021-ci il saat 11:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 30 noyabr 2021-ci il saat 17:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 01 dekabr 2021-ci il saat 15:00-da Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələrinə qazanxana və istilik sistemləri üçün avadanlıqların alınıb-quraşdırılması işlərinin satın alınması məqsədilə *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyən təşkilatlar 200 (iki yüz) manat məbləğdə heç bir halda geri qaytarılmayan iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edə bilərlər:

**Təşkilat: Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının peşəkarlığı və təcrübəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin Əlavə 1-nə uyğun);*
- *müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *iddiaçının 2020-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli (Əlavə 1);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, eləcə də satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər;*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 25.12.2021-ci ilədək icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **04.11.2021-ci il saat 10:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **16.11.2021-ci il saat 10:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **17.11.2021-ci il saat 10:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi Cəbrayıl şəhərində 960 şagird yerlik akademik Mehdi Mehdizadə adına tam orta məktəbin tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanmasının satın alınması üçün açıq tender elan edir

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Cəbrayıl şəhərində 960 şagird yerlik akademik Mehdi Mehdizadə adına tam orta məktəbin tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanmasına dair açıq tender üsulu ilə elektron satınalma keçirir.

Tender proseduru 17 noyabr 2021-ci il saat 11:00-da Dövlət satınalmalarının vahid Portalında (etender.gov.az) keçiriləcəkdir.

Maraqlanan şəxslər tenderdə iştirak üçün Portal vasitəsilə elektron elanla tanış ola və 100,0 (bir yüz) manat məbləğində iştirak haqqı ödəməklə iddiaçı qismində qeydiyyatdan keçərək tenderin Əsas şərtlər toplusunu əldə edə bilərlər.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Azərbaycan Respublikası daxili işlər nazirinin müavini, polis general-leytenantı Oruc Zalova qardaşı

**BAYRAM ZALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ədliyyə nazirinin müavini Ceyhun Həsənov və Penitensiar xidmətin kollektivi Azərbaycan Respublikası daxili işlər nazirinin müavini Oruc Zalova qardaşı

**BAYRAM ZALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Azərbaycan Respublikası daxili işlər nazirinin müavini Oruc Zalova qardaşı

**BAYRAM ZALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının daxili işlər naziri Vilayət Eyvazov və nazirliyin kollegiya üzvləri nazir müavini, polis general-leytenantı Oruc Zalova qardaşı

**BAYRAM ZALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası daxili işlər nazirinin müavini, polis general-leytenantı Oruc Zalova qardaşı

**BAYRAM ZALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Aydın Əliyev Azərbaycan Respublikası daxili işlər nazirinin müavini Oruc Zalova qardaşı

**BAYRAM ZALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Baba Rzayev Azərbaycan Respublikası daxili işlər nazirinin müavini Oruc Zalova qardaşı

**BAYRAM ZALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Azərbaycan Respublikası daxili işlər nazirinin müavini, polis general-leytenantı Oruc Zalova qardaşı

**BAYRAM ZALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Tofiq Abdullayev və Rafiq Hüseynov Azərbaycan Texniki Universitetinin rektor müşaviri, professor İlham Pirməmmədova və Bakı şəhəri Yasamal rayonunun sabiq prokuroru Həsrət Pirməmmədova anaları

**HAVA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*
Tiraj 5610
Sifariş 1928
Qiyməti 40 qəpik